RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 210 (9955) 1 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Uzun illərin etibarlı tərəfdaşları



## İtaliya Respublikasının Prezidenti Sercio Mattarella Azərbaycan Respublikasına rəsmi səfərə gəlib

**Sentyabrın 30-da İtaliya Prezidentinin rəsmi qarşılanma mərasimi olub.**

**Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü, həmçinin geniş tərkibdə görüşü keçirilib.**

**Prezident İlham Əliyevin adından İtaliya Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi ziyafət verilib.**

**Hər iki Prezident mətbuata bəyanatlarla çıxış edib.**

2-3

## Diplomatiyamızın daha bir uğuru



Bir-birinin ardınca Amerika Birləşmiş Ştatlarına iki möhtəşəm səfər, dünyanın bu aparıcı ölkəsinin rəhbərliyi ilə sıx, səmimi kommunikasiyalar Azərbaycan-ABŞ münasibətlərində də artıq yeni bir səhifə açılmasının təzahürüdür. Bu baxımdan xüsusilə avqustda Azərbaycan Prezidentinin ABŞ-yə səfəri zamanı əldə edilmiş razılaşmalar çox mühüm əhəmiyyət daşıyır. Münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması yaxın gələcəkdə ölkələrimiz arasındakı münasibətlərin daha da inkişaf edəcəyini göstərir. Prezident İlham Əliyev çıxışında bu məsələyə xüsusi diqqət yetirdi: "Vaşinqton Sammiti həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır".

9

## Azərbaycan-Çin əməkdaşlığı strateji maraqlar üzərində qurulub



Çin Azərbaycanın ilk idxal mənbəyidir və Azərbaycanın beş əsas ticarət tərəfdaşından biridir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Azərbaycanda Çin kapitalı ilə yaradılmış təxminən 375 şirkət qeydiyyatdan keçmişdir ki, onlardan 298-i aktiv fəaliyyət göstərir.

Bu ilin aprel ayında Bakıda keçirilmiş hökumətlərarası komissiyanın 10-cu iclasında Azərbaycanla Çin arasında əməkdaşlıq imkanları müzakirə olunmuşdur və müvafiq razılaşmalar əldə edilmişdir. İki ölkə arasında iqtisadi əlaqələrin inkişafı, o cümlədən investisiya əməkdaşlığı istiqamətində daha bir neçə sənəd 2025-ci il aprel ayının 17-də Pekində imzalanmışdır.

150-dən çox ölkəni birləşdirən "Bir kəmər, bir yol" təşəbbüsü təmiz texnologiyalar və rəqəmsal inteqrasiyanı inkişaf etdirmək məqsədi daşıyır. Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub və Çinlə nəqliyyat-logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Azərbaycan bu layihəni dəstəkləyərək ona ən çox investisiya yatıran 2-ci investordur. Azərbaycan Çin iqtisadiyyatına 2,1 milyard dollardan çox, Çin isə Azərbaycan iqtisadiyyatına 1 milyard dollardan çox investisiya yatırmışdır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi - Orta dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. 2024-cü il ərzində bu dəhliz vasitəsilə daşınan Çin yüklərinin həcmi 378 min tonu keçmişdir.

Azərbaycan Orta dəhlizin önəmini və cəlbediciliyini artırmaq məqsədilə ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini həyata keçirib. Habelə Şərqi Zəngəzur iqtisadi rayonu vasitəsilə Naxçıvana birləşəcək Zəngəzur dəhlizi (TRIPP) layihəsi Orta dəhlizin imkanlarını daha da artıracaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən bu yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması isə ümumilikdə cəmi 18 günə baş verir.

10

## Prokurorluq orqanları suverenliyin və qanunçuluğun keşiyindədir

### Dövlətimizin parlaq gələcəyinə hesablanmış müstəqil və qətiyyətli siyasət

Müstəqil və qüdrətli Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik ideyalarının davamçısı, böyük zəfərin müəllifi və uğurlu sabahımızın qarantı cənab İlham Əliyevin rəhbərliyi ilə yazılan yeni tarix ölkəmizdə sabitlik və təhlükəsizlik mühitinin daha da möhkəmlənməsini təmin etmişdir.

Qalib xalqa yaraşan tam suverenliyi ölkəmizə bəxş edən, milli maraqları bütün dəyərlərdən üstün tutan Müzəffər Ali Baş Komandanın möhkəm iradəsi və fenomenal əzmi sayəsində qlobal arenada söz sahibinə çevrilmiş Azərbaycan çağdaş inkişafının yeni mərhələsinə qədəm qoymaqla intibah dövrünün sağlam bünövrəsinin təməlini atmışdır.

Şanlı Zəfərimizin beşilliyi ərəfəsində milli iradəmizi müstəsna vətənpərvərlik ruhu və fitri idarəçilik istedadı ilə dünyaya qəbul etdirən möhtərəm cənab Prezidentin diplomatik şahmat qələbəsi hesab olunan Vaşinqton razılaşması davamlı sülhü və tarixi ədaləti bərqərar etməklə gələcək nəsillər üçün daha sabit, daha firavan Azərbaycanın etibarlı əsasını yaratmışdır.



Şərqlə Qərb arasında etibarlı tərəfdaş kimi qəbul edilən, dialoq və etimad körpüsü rolunda unikal mövqeyi ilə seçilən ölkəmizin Zəngəzur dəhlizinin reallaşması milli, tarixi və iqtisadi maraqlarımız təmin edilməklə türk dünyasının daha sıx birləşməsinə rəvac verəcək, bütövlükdə dünyanın nəqliyyat xəritəsi yenidən formalaşacaqdır.

Qlobal çağırışlara daim mühüm töhfələr verməklə strateji baxış və ortaq maraqları paylaşan dost və qardaş ölkələrlə əməkdaşlığın daha da gücləndirilməsi diqqət mərkəzində saxlanılmaqla cari il ərzində İğdır-Naxçıvan qaz kəmərinin açılışı, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə, həmçinin Türkiyə və Pakistanla keçirilmiş Zirvə görüşləri müttəfiqlik münasibətlərinin geostrateji əhəmiyyətini yeni müstəviyə qaldırmışdır.

Genişmiqyaslı və gələcəyə hesablanmış məqsədyönlü hədəflərin uğurla gerçəkləşməsinin nəticəsidir ki, ölkəmiz ötən ilin noyabrında dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etmiş, uğurlu siyasi-diplomatik gedişlər orta güc faktoru kimi respublikamızın nüfuzunu daha da artırmış, mövcud münaqişələrin və qarşıdurmaların çözülməsində Azərbaycan vasitəçi rolunda çıxış etmişdir.

Regionumuzun siyasi arxitekturasını dizayn edən, gələcəyə hesablanmış tərəqqi modelinin yaradıcısı dövlət başçısı cənab İlham Əliyevin ən yaxın silahdaşı Mehriban xanım Əliyevanın fəal iştirakı ilə milli hədəflər naminə gerçəkləşdirdiyi islahatlar ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində böyük canlanmaya və xalqımızın rifah halının daha da yaxşılaşmasına zəmin yaratmışdır.

8

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

12

İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri

# Uzun illərin etibarlı tərəfdaşları

## Rəsmi qarşılanma mərasimi



**Sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda İtaliya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İtaliya Prezidentinə raport verdi.

İtaliya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İtaliya Prezidenti Sercio Mattarellanın qarşısından keçdi.

Azərbaycan və İtaliya prezidentləri rəsmi foto çəkdirdilər.



## Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü keçirilib



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü keçirilib.

## Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarella ilə geniş tərkibdə görüşü olub

**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizə biz çox böyük əhəmiyyət veririk. Bu, İtaliya ilə Azərbaycan arasındakı dostluq, tərəfdaşlıq əlaqələrinin təzahürüdür.

Biz Sizinlə tez-tez görüşürük Romada və eyni zamanda bu, Sizin Azərbaycana ikinci rəsmi səfərinizdir. Keçən il Sizinlə görüş zamanı mən Sizi Azərbaycana dəvət etmişəm və təşəkkür edirəm ki, dəvətimi qəbul etmisiniz. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin inkişafı göz qabağındadır. Biz artıq bir neçə vacib məsələni müzakirə etmişik. Bizim əməkdaşlığımız çoxşaxəlidir, demək olar ki, bir çox sahələri əhatə edir, energetikadan başlamış sənaye istehsalına qədər. Hazırda təhsil sektorunu da əhatə edən əməkdaşlıq, doğrudan da, strateji əhəmiyyət daşıyır və beş il bundan əvvəl imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə deyə bilərəm ki, tam icra edilir.

Bizim əlaqələrimiz eyni zamanda yerləşdiyimiz bölgənin inkişafı üçün də önəmlidir, bizim Avropa İttifaqı ilə əlaqələrimizə müsbət təsir göstərir. İtaliya həmişə bizim Avropa İttifaqı ilə daha sıx münasibətlərin qurulmasına öz dəstəyini vermişdir və biz buna görə Sizə minnətdarıq.

Təbii ki, energetika sahəsində bir çox əhəmiyyətli nəticələr var. Bu barədə biz artıq danışmışıq. İndi geniş tərkibdə bu müzakirəni davam etdirəcəyik. Nəticələrlə bağlı, əlbəttə ki, bir-birimizi haqlı olaraq təbrik edə bilərik. Amma bizim planlarımız daha genişdir. Həm İtaliya ilə ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bütövlükdə energetika sahəsində yeni layihələrin həyata keçirilməsi məsələləri çox vacibdir və biz bu məsələlər üzərində uğurla çalışırıq.



Sabah da çox gözəl tədbir olacaq - biz İtaliya-Azərbaycan Universitetinin yeni binasının açılışında birlikdə iştirak edəcəyik. Bu, əslində, bizim bir dostluq layihəmizdir və layihənin başlamasından icrasına qədər cəmi üç il vaxt keçib. 2022-ci ildə mənim tərəfimdən müvafiq sərəncam verilmişdir və artıq yüzlərlə tələbə təhsilə cəlb edilib. Əlbəttə ki, onlar İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Həm gözəl təhsil alacaq, həm də ki, bizim aramızdakı dostluğu daha da möhkəmləndirəcəklər.

Bir daha Sizi salamlayıram və bir daha "Xoş gəlmisiniz!" deyirəm.

❖ ❖ ❖

İtaliya Prezidenti **Sercio MATTARELLA** çıxış edərək dedi:

-Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə olduqca minnətdaram. Elə indicə, əvvəlki görüşümüzdə dedim ki, Bakıda yenidən olmağımdan çox məmnunam. Siz də qeyd etdiyiniz kimi, 7 il öncə etdiyim səfəri xatırlayıram. Həmin səfər çərçivəsində TAP-a böyük dəstək verməyə müvəffəq olduq. Buna görə də Sizə minnətdaram.

Eyni zamanda Romaya etdiyiniz çox mühüm səfərləri mən xatırlayıram. Sizinlə apardığımız söhbətlər hər zaman dostluq və əməkdaşlığın rəmzi olub. Öz növbəmdə bildirdim ki, ölkələrimiz arasında strateji əməkdaşlığa tam dəstək veririk. Əməkdaşlığımız yüksələn xətlə artır, genişlənir və müxtəlif sahələri əhatə edir. Sabahkı tədbirə gəldikdə, Sizinlə birgə İtaliya-Azərbaycan Universitetinin tələbə şəhərciyinin açılış mərasimində iştirak etmək üçün dəvətinizə görə təşəkkür edirəm.

Tərəfdaşlığımız iqtisadi sahələrlə, çox vacib enerji və sənaye sektorları ilə məhdudlaşmır. O həmçinin mədəniyyət, gənclərimiz üçün təhsil sahələrini əhatə edir. Bu məqam işbirliyimizin böyüklüyünü, onun möhkəmliyini göstərir.

Dəvətə görə təşəkkürümü bildirirəm və düşünürəm ki, bununla əməkdaşlığımız genişlənəcək, eyni zamanda Sizin Avropa İttifaqı ilə münasibətlərinizə töhfə olacaq.

❖ ❖ ❖

İtaliya Prezidenti Sercio Mattarella COP29-un ölkəmizdə yüksək səviyyədə keçirildiyini vurğulayaraq, həmin tədbirdə qəbul edilmiş qərarların əhəmiyyətinə toxundu. Qonaq eyni zamanda Vaşinqtonda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

◆ İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri

# Uzun illərin etibarlı tərəfdaşları

## Azərbaycan və İtaliya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər







**Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Bir daha sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda ikinci dəfədir. Birinci rəsmi səfər 7 il bundan əvvəl baş vermişdir. Bugünkü səfər onu göstərir ki, İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir və biz əsl strateji tərəfdaşlarıq.

Bizim görüşlərimiz tez-tez baş verir. Keçən il mən Prezident Mattarellanın qonağı idim və görüş zamanı onu Azərbaycana yenidən rəsmi səfərə dəvət etdim. Şadam ki, o, mənim dəvətimi qəbul edib və bu gün bizimlə birlikdədir.

Bizim aramızda iki strateji tərəfdaşlıq sənədi var. Birinci sənəd 2015-ci ildə imzalanmışdır. İkinci sənəd - Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə 5 il bundan əvvəl imzalanmışdır. Bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir. Qeyd etdiyim kimi, biz tez-tez görüşürük. İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır. Energetika sahəsində bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. Eyni zamanda bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik.

Bu gün Prezident Mattarella ilə söhbət əsnasında onun keçən səfərini xatırladıq. O vaxt TAP layihəsinin icrası məsələsi gündəlikdə idi. Müxtəlif problemli məqamlar mövcud idi və Prezident Mattarellanın səfərdən sonra şəxsən bu məsələyə müdaxilə etməsi, bu məsələnin tənzimlənməsi imkan verdi ki, TAP layihəsi uğurla icra edildi. 2020-ci ildən başlayaraq bu layihə vasitəsilə İtaliyaya Azərbaycan qazı ixrac edilir. Bu gün "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan 14 ölkəyə təbii qazı ixrac edir. İldən-ilə bizim əhatə dairəmiz artır və bu gün boru kəmərləri ilə ixrac edilən təbii qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdədir. Yəni bu əməkdaşlıq həm güclü tərəfdaşlıqdan xəbər verir, həm də biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı.

Mən Prezident Mattarellaya bu gün məlumat verdim ki, biz hazırda Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzrə işləyirik. Elektrik xətlərinin çəkilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanmaqdadır. Yəqin ki, yaxın vaxtlarda hazır olacaq. Beləliklə TAP-ın və "Cənub qaz dəhlizi"nin açdığı yol bu gün daha böyük layihələrə yol açır. Elektrik enerjisi, o cümlədən Xəzərin dibi ilə Orta Asiyadan Azərbaycana və ondan sonra Avropa məkanına ötürüləcək elektrik enerjisi bizim əməkdaşlığımızın həcmini daha da artıracaq.

Keçən dəfə Prezident Mattarella Azərbaycanda səfərdə olanda biz birlikdə Sumqayıtda İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük bir sənaye müəssisəsinin açılışında iştirak etdik. Bu səfər zamanı isə sabah İtaliya-Azərbaycan Universitetinin açılışını qeyd edəcəyik. Yəni bu dinamika, bu əməkdaşlıq çərçivələrinin genişləndirilməsi ilk növbədə bizim səmimi münasibətlərimizdən xəbər verir. Yəni energetika, sənaye sahəsindəki əməkdaşlıq humanitar sahədəki əməkdaşlığa da yol açdı. Artıq İtaliya-Azərbaycan Universitetində yüzlərlə tələbə oxuyur və bu, bizim üçün yeni bir təhsil ocağı olacaq. Burada təhsil alan və alacaq tələbələr həm yüksək biliklərə malik olacaqlar, eyni zamanda təbii olaraq İtaliyanın Azərbaycandakı, Azərbaycanın İtaliyadakı elçilərinə çevriləcəklər. Yəni bu, bizim dostluğumuzu daha da gücləndirəcək.

Bu gün danışıqlar zamanı biz həmçinin Avropa İttifaqı-Azərbaycan əlaqələri haqqında danışdıq. İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək vermişdir, bu gün də biz bunu hiss edirik və son vaxtlar Avropa İttifaqı-Azərbaycan əlaqələrində də müsbətə doğru addımlar atılır. Bu da bizi təbii olaraq məmnun edir.

Bir sözlə, bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verir. Hesab edirəm ki, bir-birindən uzaqda yerləşən ölkələr arasındakı münasibətlərin qurulması bizim timsalımızda bir örnək ola bilər.

Hörmətli cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra İtaliya Prezidenti bəyanatla çıxış edib.

### Prezident Sercio Mattarellanın bəyanatı

- Mən cənab Prezident İlham Əliyevə Azərbaycana yenidən səfər etmək üçün dəvətinə görə minnətdaram. Mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərliyə görə də minnətdaram. Aramızda böyük dostluq, qarşılıqlı, tam şəkildə təşəkkül tapmış anlaşma var və İtaliya-Azərbaycan arasında münasibətlər inkişaf edir. Çox sağ olun ki, Siz mənə yeddi il əvvəl etdiyim səfərimi bir daha xatırlatdınız. Bu da əslində, çox böyük rəmzi xarakter daşıdı və cənab Prezident, təşəkkür edirəm ki, bu dəfə də məni ölkənizə dəvət etdiniz, səfərə gəldim. Əlbəttə ki, biz sabah İtaliya-Azərbaycan Universitetinin tələbələr kampusunun açılışını edəcəyik. Bu da o deməkdir ki, bir tərəfdən İtaliya universitetləri, digər tərəfdən Azərbaycan universitetləri əməkdaşlıq edəcəklər.

Cənab Prezident mənə bildirdi ki, yeddi il öncə biz böyük bir sənaye obyektinin açılışında olduq. Onu da qeyd etdi ki, bunun çox böyük rəmzi əhəmiyyəti var. Bu, artıq bizim enerji, sənaye əməkdaşlığımızdan sabaha açılan yeni bir yol oldu və İtaliya ilə Azərbaycan artıq mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığa başladılar. Bu, əslində strateji tərəfdaşlığımızın və 10 il əvvəl imzalanmış sazişdə qeyd olunanların tam, səmərəli şəkildə həyata keçirilməsi deməkdir. Bu, bizim ölkələrimizin münasibətlərini inkişaf etdirir. Bu, nəinki sənaye və enerji sahələrində, həmçinin mədəniyyət sahəsində də əməkdaşlıqdan xəbər verir.

Cənab Prezident burada qeyd etdi ki, sabah açılışını edəcəyimiz universitetdə təhsil alacaq çoxsaylı tələbələr ölkələrimiz arasındakı dostluğu daha da gücləndirəcəklər. Əlbəttə ki, bu münasibətlərə gəldikdə, ölkələrimiz arasında əlaqələr çox yaxşıdır və gördüyünüz kimi, bir neçə tədbirləri təşkil edirik. İndi növbəti tədbirimiz də olacaq. Təbii ki, bunu biz çox yüksək dəyərləndiririk. Əməkdaşlığımız - Azərbaycanın bizə açıqlığı, bizimlə gördüyü işlər, işbirliyimiz göz qabağındadır.

Mən Prezident Əliyevə bildirdim ki, sizin Avropa İttifaqı ilə əməkdaşlığınıza gəldikdə, İtaliya öz tərəfindən addımlar atacaqdır. Xüsusi qeyd edirəm ki, Azərbaycan geniş şəkildə çox nüfuzlu bir tərəfdaşdır. Avropa İttifaqı bunu görür və təbii ki, bizim sizinlə əməkdaşlığımız bu çərçivədə də çox əhəmiyyətli olacaqdır. Biz əlimizdən gələni edəcəyik ki, bu əlaqələr daha da artsın, inkişaf etsin və hər zaman daha çox yeni sahələri əhatə etsin, ölkələrimizin, xalqlarımızın rifahına xidmət etsin. Bu məqsədlə də mən Bakıya səfərə gəlmişəm. Cənab Prezidentə minnətdaram ki, ikinci dəfədir məni ölkəsinə dəvət edib. Təbii ki, Siz burada həmçinin İtaliyanın rolunu da qeyd etdiniz. Buna görə mən Sizə təşəkkürümü bildirirəm. Həmçinin qonaqpərvərliyinizə görə minnətdaram.

Qeyd edim ki, sabah İtaliya ilə Azərbaycan arasında mədəniyyət sahəsində, təhsil sahəsində mühüm bir gün olacaq və biz sabah səhər birgə tədbirdə iştirak edəcəyik.

Prezident Əliyevlə atdığımız addım bizim qarşılıqlı anlaşmaya, dostluğa, əməkdaşlığımıza xidmət edən addım olacaqdır. İtaliya bu dostluqdan, əməkdaşlıqdan çox fərəhlənir və bunu ən yüksək səviyyəyə qaldırmaq fikrindədir.

## İtaliya Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi ziyafət verilib



Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi ziyafət verilib.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**İtaliya Respublikasının Prezidenti Sercio Mattarella sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarellanı hava limanında Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.



## B.V.Əhmədova "ədliyyə general-mayoru" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Bəhruz Vidadi oğlu Əhmədova "ədliyyə general-mayoru" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

## A.M.İsmayılova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Anar Müslüm oğlu İsmayılova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il iyulun 21-də Pnompen şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Kamboca Krallığı Hökuməti arasında turizm əməkdaşlığına dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Kamboca Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 10 mart tarixli 299 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3(I kitab), maddə 166 (Cild I); 2024, № 3, maddə 264, № 4, maddə 388, № 8, maddə 948)2.15-ci bəndinə "ərazisində" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasında" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127,№ 3, maddə 231,№ 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 461 nömrəli və 5 avqust tarixli 469 nömrəli fərmanları) 5.34-2-civə 5.34-3-cü bəndlərinə "ərazisində" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasında" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 461 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 19.0-cı bəndinə "bölmə rəisləri" sözlərindən sonra ", Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri və onun müavinləri" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 471 nömrəli və 13 avqust tarixli 478 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 26-3-cü hissəsindən", Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199; 2025, № 3, maddə227) ilə təsdiq edilmiş"Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 3.1.25-4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.25-4. Bakı şəhərinin inzibati ərazisində və Naxçıvan Muxtar Respublikasında nəqliyyat qovşaqlarının (nəqliyyat mübadilə mərkəzlərinin), yeni avtomobil duracaqlarının (qarajlarının), habelə Bakı şəhərinin inzibati ərazisində mühafizə olunan duracaqların yaradılması (layihələndirilməsi, tikilməsi) ilə bağlı tədbirlər görmək və onların cari vəziyyətinə nəzarəti həyata keçirmək, habelə öz balansındakı mühafizə olunan duracaqları və avtomobil duracaqlarını (qarajlarını) idarə etmək;".

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində Gənclərin İqlim Forumu işə başlayıb

Sentyabrın 30-da Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW 2025) çərçivəsində Gənclərin İqlim Forumu işə başlayıb.

Azərbaycan və dünyanın müxtəlif ölkələrindən gəncləri bir araya gətirən Gənclərin İqlim Forumunda gün ərzində rəqəmsal transformasiya, təmiz enerji, şəhərsalma və iqlim diplomatiyası mövzularında keçirilən panellər gənclərin COP29 irsini davam etdirməklə yanaşı, iqlim fəaliyyəti üzrə innovativ yanaşmaları necə formalaşdırdıqlarını da nümayiş etdirdi.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Azərbaycan Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un Prezidenti Muxtar Babayev COP29 Sədrliyinin uşaqları və gəncləri bütün fəaliyyətlərin prioritetinə çevirdiyini deyib.

"Bu, onların ehtiyac və səslərinin hər bir müzakirədə və qərarda öz əksini tapması demək idi. Həmin yanaşmamızın nəticələrindən qürur duyuruq. Tarixi razılaşmamız olan "Bakı Maliyyə Çərçivəsi" bütün tərəfləri və vətəndaş cəmiyyətini uşaqlar və gənclərin iqlim maliyyəsi ilə dəstəklənməsinə çağırdı. Biz razılaşdıq ki, iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmada əldə olunan irəliləyişlər ölçülərkən gənclərin ehtiyacları mütləq nəzərə alınsın. Həmçinin ölkələrin yaşa uyğun iqlim planları hazırlamasını və bu prosesə gənclərin bilavasitə cəlb olunmasını təşviq etdik. Bu istiqamətdə "İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsü"nü təqdim etdik. Bu təşəbbüs beynəlxalq iqlim strategiyalarında təhsilin, potensialın artırılmasının və bacarıqların inkişafının vacibliyini vurğuladı. Paralel olaraq, ekoloji savadlılıq göstəricilərinin hazırlanması üçün "Yaşıl Təhsil Tərəfdaşlığı"nı təsis etdik. Bundan başqa, UNICEF-i "Uşaqlar və İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu"nun yaradılmasında dəstəklədik. Bizim üçün xüsusi önəm daşıyırdı ki, Azərbaycan gəncləri COP prosesinə bilavasitə cəlb olunsun. Ölkəmizin müxtəlif bölgələrindən gənclər könüllü şəkildə konfransın təşkilinə qatıldılar, həmrəylik nümayiş etdirdilər, Azərbaycanın qonaqpərvərliyini bütün dünyaya göstərdilər və hər kəsə gənclərin enerjisini, qətiyyətini və iqlim həllərinə sadiqliyini sübut etdilər. COP29-un özündə isə biz "Uşaqlar, Gənclər və İqlim Fəaliyyəti üzrə Bakı Bəyannaməsi"ni qəbul etdik. Həmin sənəd uşaqlara və gənclərə yönəlik iqlim siyasətlərinin sürətləndirilməsinə dair öhdəliyimizi təsdiqlədi. İndi isə Azərbaycan hökuməti bu vədləri yerinə yetirmək əzmindədir. Biz gənclərimizin "yaşıl keçid" dövründə uğurla irəliləməsi üçün lazım olan bilik, bacarıq və imkanlarla təmin olunmasını qarşımıza məqsəd qoymuşuq. Azərbaycan gəncləri həm də Braziliyanın növbəti sədrliyi və Gənclər üzrə İqlim Çempionu ilə sıx əməkdaşlıq edəcək, gənclərin iqlim fəaliyyətinin mərkəzində qalmasına dəstək göstərəcəklər", - deyə Muxtar Babayev diqqətə çatdırıb.

Azərbaycanın xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyevin sözlərinə görə, COP29 gənclərin baxışlarının inteqrasiyası baxımından ən inklüziv konfranslardan biri kimi tarixə düşdü: "Bizim fəaliyyətimiz yalnız danışıqlar masası ilə məhdudlaşmadı, həmçinin sədrliyimizin konsepsiyasında da gənclərin rolu nəzərə alındı. Bütövlükdə yanaşmamız gənclərin qlobal miqyasda ehtiyac və prioritetlərini özündə əks etdirdi.

Bu gün biz çoxtərəfli diplomatiya və qlobal iqlim fəaliyyətində yeni və ümidverici mərhələyə qədəm qoyuruq. Həmin mərhələ təkcə beynəlxalq sistem üçün deyil, bütövlükdə iqlim gündəliyimiz üçün də böyük əhəmiyyət daşıyır. Əsas çağırışımız odur ki, gənclər qlobal iqlim fəaliyyətinə daha da sadiq olsun, bu prosesdə öz məsuliyyətlərini dərk etsin və gələcəyin peşəkar danışıqlar aparıcıları kimi formalaşsın".

Milli Məclisin deputatı, COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai çıxışı zamanı gənclərə müraciət edib. "Əziz gənclər, bir həqiqəti vurğulamaq istəyirəm. Bu tədbir sadəcə bir toplantı deyil, hərəkatdır. İqlim fəaliyyətini irəli aparan ən güclü qüvvə sizsiniz! Sizin enerjiniz, ideyalarınız və təciliyyət hissiniz. Bunlar sadəcə ruhlandırıcı deyil, həm də bu mübarizənin ayrılmaz əsas şərtidir. Azərbaycan COP29-a evsahibliyi edəndə dünya ümid və qətiyyətlə Bakıda bir araya gəldi. Bu, bizim üçün qürur və məsuliyyət anı idi. Amma həmin prosesin əsl mirası yalnız imzalanmış sənədlərdə və ya verilmiş öhdəliklərdə deyil, ondan sonra görüləcək işlərdədir. Çünki iqlim dəyişikliyi uzaq gələcəyin deyil, bu günün reallığıdır. O, sizin gələcək həyatınıza çox təsir edəcək. Unutmayaq ki, heç bir yol xəritəsi, qlobal öhdəlik sizin liderliyiniz, israrınız və təzyiqiniz olmadan uğurla həyata keçirilə bilməz. Dünyanın hər yerində gənclər artıq öncüllük edirlər. Təmiz enerji startapları yaradır, ekoloji layihələrə rəhbərlik edir, maarifləndirmə aparır, ədalət tələb edir və həmyaşıdlarını cəsarətlə səfərbər edirlər. Elə burada Azərbaycanda da gənclər "yaşıl həllər" hazırlayır, plastik tullantılara qarşı mübarizə aparır, Xəzərdən dağ kəndlərinə qədər meşələrin bərpası və təbiəti mühafizə təşəbbüslərinə qoşulurlar. Siz göstərirsiniz ki, ambisiya yalnız sözlərlə ölçülmür, ambisiya insanları, icmaları və bütün sistemi dəyişdirən real hərəkətdir. Bu forum sizin platformanızdır, innovasiya etmək, ideyalarınızı bölüşmək, siyasətlərin formalaşmasına təsir göstərmək üçün bir fürsətdir. Bizim mövqeyimiz açıqdır: gənclər bu prosesin mərkəzində olmalıdırlar. Azərbaycan olaraq biz gənclərin gücləndirilməsini yalnız düzgün deyil, həm də ağıllı seçim hesab edirik. Ölkəmiz iqtisadiyyatını şaxələndirərkən, bərpaolunan enerji sahəsini böyüdərkən və iqlim dayanıqlığını gücləndirərkən bu dönüşümün əsas hərəkətverici qüvvəsi məhz siz - sizin bacarıqlarınız, innovasiyanız və liderliyiniz olacaq. Əlbəttə, gələcək çətinliklərlə doludur: süni intellekt, rəqəmsallaşma və iqlim dəyişikliyi dünyanı yeni çağırışlarla üz-üzə qoyur. Lakin eyni zamanda böyük imkanlar da gətirir. Bu imkanlardan necə yararlanmaq, yeni bacarıqları necə qazanmaq və gələcəyinizi necə formalaşdırmaq isə artıq sizin əlinizdədir, əziz gənclər! Burada olduğunuz üçün hər birinizə təşəkkür edirəm. Bilin ki, Azərbaycan və COP29-un sədrliyi olaraq biz həmişə yanınızdayıq və təşəbbüslərinizdə sizi dəstəkləməyə hazırıq. Gəlin birlikdə sözləri əmələ, əməli isə qalıcı dəyişikliklərə çevirək", - deyə o bildirib.



BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreeva gənclərin insanlığın birgə hərəkətini təmin edən əsas qüvvə olduğunu qeyd edib. O, fikirlərinə belə davam edib: "Dünən eşitdiyim çox gözəl ifadəni bölüşmək istəyirəm: bir-birimizə qarşı məsuliyyətimiz var. Bu, yalnız yaşaya biləcəyimiz planet üçün deyil, həm də təmiz su və "yaşıl gələcək" üçün məsuliyyət deməkdir. Siz elə bir mənəvi aydınlıq gətirirsiniz ki, bu, bizləri hər zaman daha məsuliyyətli olmağa həvəsləndirir. Bugünkü forum sizə üç əsas mövzunu müzakirə etmək imkanı verir. Birincisi, rəqəmsal alətlər - iqlim fəaliyyətində şəffaflıq, səmərəlilik və hesabatlılığı necə gücləndirə bilərlər.

İkincisi, şəhər inkişafı - gələn ilin mayında Bakı 13-cü Dünya Şəhər Forumuna evsahibliyi edəcək. Gənclərin səsi şəhərləri iqlimə davamlı, dayanıqlı və təhlükəsiz etməkdə həlledici olacaq. Üçüncüsü, iqlim diplomatiyası - diplomatiya gündəlik bacarıqdır, lakin iqlim diplomatiyası xüsusilə vacibdir. Geosiyasi dəyişikliklər fonunda qarşımızda elmi arqumentlərə əsaslanmayan tərəflər də olacaq. Buna baxmayaraq, planetimiz ortaq evimizdir və gələcək nəsillər üçün ortaq razılıq və yol tapmaq bizim borcumuzdur. İqlim böhranı dövrümüzün ən böyük çağırışıdır. Lakin sizin yaradıcılığınız, əzminiz və vizyonunuz bu böhranı böyük bir transformasiya fürsətinə çevirə bilər. Birləşmiş Millətlər Təşkilatı, qlobal komanda və mənim həmkarlarım Azərbaycanda gənclərin yanındadır. Biz gənclərin liderliyini dəstəkləməyə, onların səsini gücləndirməyə və onları dayanıqlı, yaşıl və ədalətli gələcəyin formalaşmasında bərabərhüquqlu tərəfdaş etməyə sadiqik. Gəlin gələcəyimizi birlikdə quraq!".

COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənova Bakı İqlim Fəaliyyəti Həftəsi 2025 çərçivəsində keçirilən ilk Gənclər Forumunun həm tarixi bir mərhələ, həm də gənclərin iqlim həllərində liderlik rolunu formalaşdıracaq güclü bir ənənənin başlanğıcı olduğunu diqqətə çatdırıb.

Leyla Həsənova vurğulayıb ki, Bakı İqlim Fəaliyyəti Həftəsi yalnız "dəyirmi masa" müzakirələri üçün deyil. Məqsəd bütün cəmiyyəti bu məsələyə cəlb etmək, böhranı həll etmək və iqlim mövzusunu hər kəsin gündəliyinə gətirməkdir. "Növbəti iki gün ərzində bu forum gəncləri, siyasətçiləri, beynəlxalq təşkilatları və innovatorları bir araya gətirəcək. Məqsəd iqlim fəaliyyətini rəqəmsal transformasiya, təmiz enerji, dayanıqlı şəhərlər və iqlim diplomatiyası vasitəsilə irəli aparmaqdır. Sabah isə tematik qrup işləri ilə davam edəcəyik və iştirakçılar artıq öyrəndiklərini tətbiq edəcəklər. Burada əsas diqqət mesajların düzgün qurulmasına, gənclərin prioritetlərinin və həll yollarının aydın şəkildə eşidilməsinə yönələcək. Bu forumdan kənarda isə builki Bakı İqlim Fəaliyyəti Həftəsi ən geniş gənclər proqramına sahibdir. Həftə boyunca "Sustainable Expo", "Planet üçün İncəsənət və İnnovasiya", kənd təsərrüfatı üzrə gənclər üçün seminar, ADA Universitetində iqlim dəyişikliyi üzrə ikinci tədbir və Dayanıqlı Karyera Yarmarkası da keçiriləcək. Bunların hamısı göstərir ki, gənclər elmdə, innovasiyada, incəsənətdə və təhsildə liderlik edirlər və karyera yollarını qururlar. Siz burada ideyaları irəli gətirmək üçün cəsarət, köhnə modelləri aşmaq üçün yaradıcılıq və uşaqların, gənclərin səsinin qərar qəbuletmənin mərkəzində olmasını təmin etmək üçün əlaqələr nümayiş etdirəcəksiniz", - deyə o diqqətə çatdırıb.

Tədbir "İdeyalardan hərəkətə: rəqəmsal transformasiya davamlı inkişafı necə təmin edir", "Baxışdan reallığa: daha yaşıl dünya üçün təmiz enerji və şəhər inkişafı", "Danışıqlardan hərəkətə: iqlimə davamlılıq üçün diplomatiya" mövzularında panel müzakirələrlə davam edib.

"İdeyalardan hərəkətə: rəqəmsal transformasiya davamlı inkişafı necə təmin edir" panel müzakirəsində çıxış edən İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdir müavini Arzu Tairquliyeva-Nağıyeva iqtisadi idarəetmənin çevikləşdirilməsi, sosial sistemlərin səmərəliliyinin artırılması və ekoloji siyasətlərin gücləndirilməsinin bu gün prioritet məsələ olduğunu bildirib. Qeyd olunub ki, texnologiyanın sürətli inkişafı həyatımızı dəyişir və təhsil bu dəyişikliklərə cavab olaraq insanlara lazımi bacarıqlar qazandırır, cəmiyyətə və planetə fayda verir.

Onun sözlərinə görə, Azərbaycan 2022-ci ildən etibarən BMT və tərəfdaş qurumlarla birgə Davamlı İnkişaf Məqsədləri üzrə dialoqlar təşkil edir. Hər il ən azı iki belə dialoq keçirilir. Bu ilin iyununda keçirilən ilk dialoq təhsilə ömür boyu öyrənmə və gələcək bacarıqlara həsr olunub. İki həftə sonra isə yeni dialoq baş tutacaq və əsas mövzu yenə də Azərbaycanın davamlı inkişafı üçün təhsilə investisiya olacaq.

Rəqəmsallaşma əmək bazarını köklü şəkildə dəyişir.

Azərbaycanın "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" insan kapitalının inkişafını prioritetləşdirir. Bu istiqamətdə yeni təhsil məzmunu hazırlanır, mövcud kadrların bilikləri artırılır. İqtisadiyyat Nazirliyi əmək bazarını izləyir və rəqəmsal ixtisaslara xüsusi önəm verir.

Bu çərçivədə Dördüncü Sənaye İnqilabı Akademiyası artıq 10 min nəfərə ödənişsiz təhsil imkanı verib, 1800-dən çox kurs təqdim edib. Süni intellekt, data analitikası, blockchain, bulud texnologiyaları və yumşaq bacarıqlar əsas mövzulardır.

Dövlət tərəfindən maliyyələşdirilən təhsil proqramlarının sayı da artır. Hazırda qəbul olunan tələbələrin təxminən 90 faizi dövlət sifarişi ilə oxuyur, bu isə əvvəlki illərlə müqayisədə 50 faiz artım deməkdir.

O bildirib ki, təhsil hər bir transformasiyanın, xüsusilə də rəqəmsal transformasiyanın mərkəzində dayanır. Əgər biz gəncləri düzgün bacarıq və dəyərlərlə təmin etsək, texnologiya dayanıqlılıq, bərabərlik və innovasiyanın ən güclü alətinə çevriləcək.

Hazırda qlobal e-tullantı monitorinqinə rəhbərlik etdiklərini bildirən Beynəlxalq Telekommunikasiya İttifaqının MDB üzrə regional direktoru Natalia Moçu son hesabatlarına görə, dünyada ildə təxminən 62 milyon ton elektron tullantı yarandığını və bu rəqəmin 2030-cu ilə qədər 75 milyon tona çata biləcəyini diqqətə çatdırıb: "Bu, çox ciddi çağırışdır. Ona görə də gəncləri praktiki təşəbbüslərə qoşulmağa, startaplar yaratmağa, innovativ ideyalarla e-tullantıların azaldılmasına dəstək olmağa dəvət edirik. Çünki hər gün istifadə etdiyimiz telefon, kompüter və digər cihazlar köhnəldikdə tullantıya çevrilir, lakin onların iqlimə təsirini çox vaxt nəzərə almırıq. Halbuki məsuliyyətli yanaşma ilə biz həm təbiəti qoruya, həm də dayanıqlı rəqəmsal gələcək qura bilərik".

Qeyd edək ki, Gənclərin İqlim Forumunun işinə bu gün yekun vurulacaq.

# Baş nazir Əli Əsədov MDB Hökumət Başçıları Şurası üzvlərinin Belarus Prezidenti ilə görüşündə iştirak edib





Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurası üzvlərinin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşündə iştirak edib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib. Belarus Prezidenti MDB Hökumət Başçıları Şurası üzvlərini salamlayıb.

Görüşdə çıxış edən Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Aleksandr Lukaşenkoya çatdırıb.

Baş nazir həmçinin Azərbaycan-Belarus iqtisadi əməkdaşlığının ikitərəfli gündəliyinə daxil olan məsələlərə toxunub.

# Minskdə Azərbaycan və Belarus baş nazirləri arasında danışıqlar aparılıb





Sentyabrın 30-da Minskdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Belarus Respublikasının Baş naziri Aleksandr Turçin arasında danışıqlar aparılıb.

AZƏRTAC xəbər verir ki, tərəflər dövlətlərarası münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə edib və iki ölkənin prezidentlərinin birgə səyləri nəticəsində qarşılıqlı faydalı tərəfdaşlığın dinamik inkişafını vurğulayıblar.

Onlar iqtisadi-ticari və investisiya qarşılıqlı fəaliyyəti, sənaye kooperasiyası, o cümlədən kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər. Azərbaycan və Belarus dövlət başçılarının tapşırıqlarının icrasına xüsusi diqqət yetirilib, əldə olunmuş razılaşmalar çərçivəsində hazırlanmış bir sıra layihələrin həyata keçirilməsinin gedişi yüksək qiymətləndirilib.

# Baş nazir Əli Əsədov Minskdə Avrasiya Hökumətlərarası Şurasının iclasında qonaq qismində iştirak edib

Minskə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 30-da Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclasında qonaq qismində iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Baş nazir Ə.Əsədov iqtisadi-ticari əməkdaşlığı Azərbaycanın AİB-ə üzv ölkələr ilə əlaqələrinin fundamental vektoru kimi dəyərləndirib. O qeyd edib ki, 2025-ci ilin ilk səkkiz ayında Azərbaycanın AİB-ə üzv ölkələr ilə ticarət dövriyyəsi 22 faizdən çox artıb.

Baş nazir investisiya qarşılıqlı fəaliyyətinin müsbət dinamikasını qeyd edib. "Avrasiya İqtisadi Birliyinə (AİB) üzv ölkələrdən olan tərəfdaşlarımızın biznesləri Azərbaycan iqtisadiyyatının bir çox sahəsində geniş şəkildə təmsil olunur", - deyə o vurğulayıb. Baş nazir əlavə edib ki, buna ölkədəki etibarlı və şəffaf investisiya mühiti kömək edir.

O həmçinin bildirib ki, Azərbaycan investorları AİB üzv dövlətlərində sənayenin geniş spektrini əhatə edən və onların iqtisadiyyatlarının inkişafına töhfə verən layihələri fəal şəkildə həyata keçirirlər. Baş nazir əsas iqtisadi sektorlara qarşılıqlı sərmayə axınını təmin etmək üçün Azərbaycanın AİB üzvü olan bir neçə tərəfdaşla yaratdığı birgə investisiya fondlarının fəaliyyətinə toxunub: "Bu təşəbbüs artıq öz effektivliyini sübut edib və əməkdaşlıq üçün yeni üfüqlər açır".

Nəqliyyat-tranzit sektorunda əməkdaşlığa toxunan Ə.Əsədov bildirib ki, bu, qarşılıqlı ticarətin, investisiyaların artırılması, yeni iqtisadi imkanların inkişafı üçün mühüm potensiala malik olduğu üçün gündəlikdə xüsusi yer tutur.

"Avropa və Asiyanın kəsişməsində yerləşən və müasir infrastruktura malik Azərbaycan region ölkələri və tərəfdaşlarımız üçün yeni imkanlar yaradan etibarlı nəqliyyat və logistika habına çevrilib", - deyə o qeyd edib.

Nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində Azərbaycanın sistemli səyləri barədə danışan Baş nazir Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətinin artırılmasını və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsinin ikinci mərhələsinə





start verildiyini diqqətə çatdırıb. Ə.Əsədov Orta dəhlizin əhəmiyyətini də vurğulayıb. O qeyd edib: "Son üç ildə bu dəhliz üzrə Azərbaycan ərazisindən keçən yükdaşımaların həcmi demək olar 90 faiz artıb ki, bu da onun artan səmərəliliyinin və daha çox tələbat olmasının inandırıcı sübutudur".

Baş nazir bu kontekstdə Azərbaycanın əsas ərazisini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün əldə olunan razılaşmaların tarixi əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, bu sazişlər tranzit marşrutlarının genişləndirilməsi, Azərbaycanın regional və qlobal logistikada rolunun gücləndirilməsi üçün yeni şərait yaradır.

Azərbaycan hökumətinin başçısı yeni dəhlizin "Şimal-Cənub" dəhlizi ilə yanaşı, Orta dəhlizin də mühüm seqmentinə çevriləcəyinə əminliyini ifadə edib.

Xəzəryanı beş dövlətin hamısının, o cümlədən İran nümayəndələrinin iclasda iştirak etdiyini nəzərə alaraq, Ə.Əsədov Xəzər dənizinin dayazlaşması məsələsinə də diqqət çəkib.

"Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə BMT kürsüsündə bu məsələnin vacibliyini bir daha vurğuladı. Təəssüf ki, Xəzər dənizinin ekoloji vəziyyəti sürətlə pisləşir. Xəzər regionunda potensial ekoloji fəlakətin qarşısının alınması Xəzəryanı ölkələrin təcili birgə səylərini tələb edir. Azərbaycan əvvəllər əldə edilmiş razılaşmalara sadiq qalaraq, bu problemin birgə həlli yollarını tapmaq üçün əməkdaşlığı gücləndirməyə hazırdır", - deyə Baş nazir bildirib.

Baş nazir həmçinin AİB çərçivəsində başlanan antidempinq təhqiqatlarını qeyd edib. O, Azərbaycan mənşəli mallara - daha dəqiq desək, polietilen, polipropilen və propilen sopolimerlərə münasibətdə təhqiqatları, habelə alüminium lentləri ilə bağlı təkrar təhqiqatı xatırladıb. Əli Əsədov qeyd edib ki, qeyd olunan mallara antidempinq tədbirləri tətbiq edilərsə, Azərbaycanın AİB-ə ixracının ümumi həcmi əhəmiyyətli dərəcədə azala bilər.

Bu prosesdə iştirak edən Azərbaycan şirkətləri əməkdaşlığa açıqdır. Ümid edirik ki, araşdırmalar mümkün qədər real faktlara əsaslanacaq və nəticə Azərbaycanın AİB ölkələri ilə həm çoxtərəfli, həm də ikitərəfli səviyyədə ticarət əməkdaşlığına heç bir real ziyan vurmayacaq.

## Milli Məclisin iclasında

# Parlamentin payız sessiyası öz işinə başladı

Sentyabrın 30-da Milli Məclisin payız sessiyasında ilk plenar iclası keçirilib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Spiker Sahibə Qafarova payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib və bu sessiyada da onların fəaliyyətinin səmərəli olacağına inamını bildirib.

Prezident İlham Əliyevin sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışını xatırladan Milli Məclisin Sədri bildirib ki, möhtərəm Prezidentin nitqi Cənubi Qafqazda yaranmış yeni reallıqların dünyanın əsas beynəlxalq platformasından təqdim edilməsi baxımından tarixi əhəmiyyət daşıyır.

Spiker deyib ki, dövlət başçısı çıxışında bəyan etdi ki, Azərbaycan onilliklər ərzində təcavüzə və işğala məruz qalan ölkə statusundan qalib ölkə və regional lider statusuna keçib. Prezidentin çıxışında hərbi zəfərin diplomatik uğurla tamamlandığı xüsusi vurğulanıb.

Bildirilib ki, sülh sazişinin paraflanması və əldə edilmiş digər razılaşmalar dövlətimizin öz milli maraqlarını həm güc yolu ilə müdafiə etmək, həm də hüquqi və siyasi alətlərin köməyi ilə təsbit etmək qabiliyyətini nümayiş etdirdi. Bu həm də onu göstərdi ki, dayanıqlı sülh yalnız beynəlxalq hüquq normaları əsasında mümkündür.

Prezidentin çıxışında azad edilmiş ərazilərin minalardan təmizlənməsinə və bərpasına, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasına, infrastrukturun inkişafına böyük diqqət yetirildi. Azərbaycan döyüş meydanında qələbəni davamlı inkişaf layihəsinə çevirməyi bacaran bir dövlət modeli kimi təqdim edildi.

Spiker qeyd edib ki, ölkəmiz Şərqlə Qərbi birləşdirən nəqliyyat və enerji marşrutlarının əsas həlqəsinə çevrilib. Azərbaycanın rolu və əhəmiyyəti regionun hüdudlarından çox-çox kənara çıxır, Avropanın və Asiyanın təhlükəsizliyinə və tərəqqisinə təsir göstərir.

Cənab Prezidentin çıxışında beynəlxalq münasibətlər sistemində islahatlar aparılmasına çağırış edilməsi də çox əhəmiyyətlidir. Dövlət başçısı beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, qarşılıqlı hörmət və əməkdaşlıq, dövlətlərin daxili işlərinə müdaxilə edilməməsi və ikili standartlardan imtina olunması prinsiplərinin önəmini də vurğuladı. Və bu prinsiplərin Azərbaycanın qlobal gündəliyə baxışları kimi təqdim edilməsi möhtərəm Prezidentin çıxışını beynəlxalq hüququn və qlobal idarəetmənin gələcəyi ilə bağlı müzakirələrin mühüm tərkib hissəsinə çevirdi.

Milli Məclisin Sədri bildirib ki, inamla demək olar ki, ölkə Prezidentinin yüksək tribunadan səsləndirdiyi fikirlər, Azərbaycanın təcrübəsi barədə söylədikləri bir çox dövlət üçün son dərəcə əhəmiyyətli olacaqdır.

Sonra spiker diqqətə çatdırıb ki, payız sessiyasının ilk iclasıdır. O, ötən sessiyada görülmüş işlərə bir daha nəzər salaraq, bu ilin yaz və növbədənkənar sessiyalarının yekunları barədə məlumat verib. Milli Məclisin Sədri qeyd edib ki, sentyabrın 9-da parlamentin növbədənkənar bir sessiyası da keçirildi və həmin sessiya Vaşinqton razılaşmalarına həsr edilmişdi.

Ümumən üç sessiyada iyirmi iki iclas keçirilib, yüz on qanun və qərar qəbul edilib. Ölkənin ictimai-siyasi həyatının mühüm məsələlərinə münasibət bildirilib.

Spiker qeyd edib ki, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də



davam etdirilib. Belə ki, parlamentin iyirmi deputatı on xarici ölkəyə iyirmi üç səfər həyata keçirib. Deputatlar beş beynəlxalq təşkilatın tədbirlərində iştirak ediblər, həmçinin Moldovada keçirilən parlament seçkilərini müşahidə ediblər. Sessiyalar arasında iyirmi ölkənin iyirmi üç nümayəndə heyəti, ümumən isə yüz otuz dörd nəfər xarici qonaq Milli Məclisdə olub. Milli Məclisin Sədri Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Serbiya Milli Assambleyasının Sədri Ana Brnabiç, iki ölkənin icra orqanlarının ali vəzifəli şəxsləri, habelə iki beynəlxalq təşkilatın nümayəndə heyətləri və beş ölkənin səfirləri ilə görüşlər keçirib.

Sessiyalar arasında Milli Məclis Sədrinin üç ölkəyə işgüzar səfərləri olub. Belə ki, Milli Məclis Sədrinin başçılığı ilə nümayəndə heyəti iyulun 27-dən 30-dək İsveçrənin Cenevrə şəhərində Parlament Sədrlərinin 6-cı Dünya Konfransında və Parlamentlərarası İttifaqın Qadın Parlament Sədrlərinin 15-ci Sammitində, avqustun 4-də Türkmənistanın Avaza şəhərində BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə üçüncü Konfransı çərçivəsində Parlamentlərarası Forumda iştirak edib.

Həmçinin Milli Məclisin Sədri sentyabrın 16-dan 18-dək Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində işgüzar səfərdə olub, orada Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının 46-cı Baş Assambleyasının sessiyasında və Assambleyanın 2-ci Qadın Siyasi Liderlər Forumunda iştirak edib.

Spiker işgüzar səfərlər çərçivəsində onun bir sıra ölkələrin parlament rəhbərləri ilə görüşlər keçirdiyini də diqqətə çatdırıb.

Çıxışına yekun vuran spiker "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclis tərəfindən iki tədbir təşkil edildiyini qeyd edib. Belə ki, sentyabrın 19-da parlamentdə Dövlət Suverenliyi Gününə həsr olunan böyük bir konfrans keçirilib, sentyabrın 25-də isə Milli Məclisin bir qrup deputatının və parlament aparatı əməkdaşlarının Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə yürüşü olub.

Sonra iclasın gündəliyi təsdiqlənib və cari məsələlərin müzakirəsinə başlanılıb. Müzakirələrdə parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Sahib Alıyev, Aydın Mirzəzadə, Nizami Səfərov, Asif Əsgərov, Məlahət İbrahimqızı, Azər Badamov, Elman Nəsirov, Şahin İsmayılov, Günay Ağamalı çıxış ediblər.

Deputatlar payız sessiyası ərəfəsində ölkəmiz üçün bir sıra mühüm əhəmiyyətə malik hadisələrin baş verdiyini söyləyiblər. Bildirilib ki, Prezident İlham Əliyevin cari il sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında qeyd olunduğu kimi, Vətən müharibəsində işğala son qoyulduqdan sonra Azərbaycan sülhün siyasi vasitələrlə təmin edilməsinə çalışıb. Belə ki, dövlətimiz müharibədə Zəfər əldə etdikdən sonra ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı şəkildə tanınması və beynəlxalq hüququn prinsiplərinə əsaslanan sülh müqaviləsinin bağlanması təklifini irəli sürüb və Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu açıqlayıb. Diqqətə çatdırılıb ki, məhz Azərbaycanın səyləri nəticəsində cari il avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə Vaşinqtonda üçtərəfli görüş keçirilib, Birgə Bəyanat imzalanıb, Azərbaycanla Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında sazişin razılaşdırılmış mətni paraflanıb. Bunun Cənubi Qafqazda uzunmüddətli münaqişənin həllinə yönəlmiş önəmli addım olduğu vurğulanaraq, ABŞ-nin regionda sülhün təmin edilməsinə töhfə verməsi müsbət dəyərləndirilib. Habelə ATƏT-in Minsk qrupunun və onunla bağlı strukturların 1 sentyabr tarixindən bağlanmasına dair qərarın qəbul olunması xüsusi qeyd edilib.

Bununla yanaşı, millət vəkilləri ölkə Prezidentinin sentyabrın 25-də Nyu York şəhərində keçirilmiş BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirakının, səsləndirdiyi fikirlərin, buradakı görüşlərinin əhəmiyyətindən söhbət açıblar, bunun Azərbaycanın siyasi və iqtisadi baxımdan beynəlxalq səviyyədə nüfuzunun artmasının bariz nümunəsi olduğunu vurğulayıblar.

Deputatlar sentyabrın 28-də Gəncədə III MDB Oyunlarının açılış mərasimində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakını, onların şəhid övladları ilə səmimi görüşünü, onlara göstərdikləri diqqət və qayğını yüksək qiymətləndiriblər.

Çıxışlarda habelə deputatların tətil zamanı seçicilərlə keçirdikləri görüşlər, onların qaldırdıqları məsələlərin həlli istiqamətində görülən işlər və digər aktual mövzular barədə söhbət açılıb.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasın gündəliyinə 12 məsələ daxildir. İlk iki məsələ Milli Məclisin qərar layihələridir. Sədr birinci məsələnin 27 Sentyabr Anım Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı olduğunu söyləyib.

Milli Məclisin Sədri bildirib ki, beş il bundan əvvəl, 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri qəhrəmanlıq tariximizə yeni şanlı səhifələr yazıb. 8 Noyabr Zəfəri sayəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulub, dövlətimizin ərazi bütövlüyü bərpa olunub. 2023-cü ilin sentyabr ayında keçirilən antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar edilib.

Əldə edilən tarixi qələbələr bir daha göstərir ki, milli maraqlar təkcə sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü ilə deyil, həm də xalqın şərəfi, ləyaqəti və tarixi yaddaşı ilə bağlı olan bir anlayışdır. Azərbaycan düşmən üzərində tarixi qələbələri xalqımıza bəxş etmiş Müzəffər Ali Baş Komandana, cəsur əsgər və zabitlərimizə əbədi olaraq minnətdardır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Vətən və xalq yolunda canından keçmiş şəhidlərimiz unudulmur və heç zaman unudulmayacaqlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına uyğun olaraq, artıq beş ildir ki, ölkəmizdə Anım Günü qeyd edilir. Üç gün öncə, sentyabrın 27-də Anım Günündə möhtərəm Prezident Gəncə Memorial Kompleksində Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etdi. Həmin gün Bakıda dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, ictimaiyyət nümayəndələri Zəfər Parkında oldular. Ölkəmizin şəhər və rayonlarında anım tədbirləri keçirildi. Bütün xalqımız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizin, qətlə yetirilmiş mülki vətəndaşlarımızın xatirəsinə ehtiramını bildirdi.

Spiker çıxışına yekun vuraraq qeyd edib ki, Anım Günü xalqımızı Ulu Öndər Heydər Əliyevin elan etdiyi Azərbaycançılıq amalı uğrunda daha sıx birləşdirir. Minlərcə qəhrəman övladımızın həyatı bahasına başa gəlmiş qələbələr Azərbaycan xalqı üçün mənəvi güc mənbəyidir.

İclasda Anım Gününün beşinci ildönümü ilə əlaqədar Milli Məclisin Bəyanatının mətnini parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov oxuyub.

**(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib)**

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov çıxış edərək Azərbaycan xalqının Vətən müharibəsində əldə etdiyi Zəfərin tariximizin ən parlaq səhifələrindən olduğunu deyib. Bu qələbənin qazanılmasında Prezidentin rəhbərliyi ilə aparılan düzgün siyasətin, xalqımızın öz torpaqlarının bütövlüyü uğrunda göstərdiyi qətiyyətin, Azərbaycan Ordusunun nümayiş etdirdiyi rəşadətin mühüm amillər olduğunu vurğulayıb. O, hazırda dövlətimizin gündəliyini sülh mövzusunun təşkil etdiyini və bunun üçün lazım olan əsasların mövcud olduğunu bildirib.

Sonra 27 Sentyabr Anım Gününün beşinci ildönümü ilə əlaqədar Milli Məclisin Bəyanatı səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri qeyd edib ki, gündəliyin ikinci məsələsi payız sessiyasının qanunvericilik işləri planı haqqındadır və nəzərə çatdırıb ki, qanunvericilik işləri planı 8 bənddən ibarətdir.

*Ardı 6-cı səh.*

## Milli Məclisin iclasında

# Parlamentin payız sessiyası öz işinə başladı

*Əvvəli 5-ci səh.*



Məsələ ətrafında müzakirələrdə çıxış edən parlamentin komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Sahib Alıyev, Ceyhun Məmmədov, Hikmət Məmmədov, Aydın Hüseynov payız sessiyasının qanunvericilik işləri planı haqqında fikirlərini açıqlayıblar. Millət vəkilləri sənədin məqsədəmüvafiq olduğunu söyləyiblər, planda qeyd olunan qanun layihələrinin əhəmiyyətindən danışıblar, bir sıra təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda Milli Məclisin 2025-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq təsdiq edilib.

Spiker Sahibə Qafarova növbəti məsələnin "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (II səsvermə) olduğunu deyib. O, nəzərə çatdırıb ki, konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur. Bu qanun layihəsinə 6 ay öncə - fevralın 28-də birinci səsvermədə münasibət bildirildiyini, indi isə onun ikinci səsverməyə çıxarıldığını söyləyib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanun layihəsi barədə məlumat verib. O, diqqətə çatdırıb ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğun olaraq, layihədə adıçəkilən qanunun müvafiq maddəsində "qanunsuz miqrantların saxlanılması" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilməsi təklif edilir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məsələ barədə rəhbərlik etdiyi komitənin rəyini söylədikdən sonra qanun layihəsi ikinci səsvermədə qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova növbəti 6 məsələnin beynəlxalq sazişlərin və digər sənədlərin təsdiq edilməsi, bir məsələnin isə səfirliyin təsis edilməsi ilə bağlı olduğunu söyləyib. O, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən, həmin qanun layihələrinin bir oxunuşda qəbul ediləcəyini bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Ozon qatını dağıdan maddələr haqqında" Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişinin təsdiq edilməsi haqqında" qanun layihəsini təqdim edib. Qeyd olunub ki, qanun layihəsi Azərbaycan Respublikasının "Ozon qatının mühafizəsi haqqında" Monreal Protokoluna XXVIII/1 Qərarı ilə qəbul olunmuş Kiqali Düzəlişinə qoşulmasını nəzərdə tutur. Bu sənəd qlobal səviyyədə ozon qatının qorunması ilə yanaşı, istixana effekti yaradan qazların azaldılmasına da xidmət edir.

Nəzərə çatdırılıb ki, Kiqali Düzəlişi 15 oktyabr 2016-cı ildə Ruandanın paytaxtı Kiqalidə, Monreal Protokolunun Tərəflərinin 28-ci iclasında qəbul olunmuş və ən azı iyirmi dövlətin ratifikasiyasından sonra 1 yanvar 2019-cu ildən qüvvəyə minib. 2025-ci ilin yayına olan məlumatlara əsasən, düzəliş artıq 163 dövlət və Avropa İttifaqı tərəfindən ratifikasiya olunub və bu, onun beynəlxalq səviyyədə geniş qəbul edildiyini göstərir. Kiqali Düzəlişi ilə Monreal Protokoluna hidroflüorokarbonların (HFC) nəzarət altına alınması əlavə olunub. Düzəlişlərə əsasən, dövlətlər üçün istehlak və istehsalın mərhələli azaldılması qrafiki müəyyənləşdirilmişdir. Məqsəd 2045-ci ilə qədər HFC istifadəsini 80-85 faiz azaltmaqdır. Kiqali Düzəlişi həm ətraf mühitin mühafizəsi, həm də qlobal iqlim öhdəlikləri baxımından tarixi əhəmiyyət daşıyır. Kiqali Düzəlişinə qoşulmaq COP29-un ev sahibi kimi ölkəmizin beynəlxalq mövqeyini gücləndirəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə rəhbərlik etdiyi komitənin rəyini nəzərə çatdıraraq, ekoloji məsələlərin Azərbaycan tərəfindən ən yüksək səviyyədə diqqətdə saxlanıldığını, bu sazişin qəbul olunmasının ölkəmizin milli maraqlarına cavab verdiyini söyləyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsinə qoşulmaq haqqında" qanun layihəsini təqdim edib. O, bildirib ki, "Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsi" 11 dekabr 1953-cü il tarixində Roma şəhərində təsdiq edilib. Sənəd preambuladan və 19 maddədən ibarətdir. Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasına üzvlük BMT üzvü olan və müvafiq formada bu Nizamnaməni qəbul edən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzv dövlətləri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa və Mərkəzi Asiya üzrə Regional Konfransında üzv kimi iştirak edən və BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə Regional Ofisi tərəfindən xidmət göstərilən dövlətlər və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) Avropa üzv dövlətləri üçün açıqdır.

Diqqətə çatdırılıb ki, üzv dövlətlər dabaq və analoji transsərhəd heyvan xəstəliklərinə nəzarət üzrə milli siyasət və beynəlxalq əməkdaşlığa dair öhdəliklər əsasında müvafiq karantin və sanitar tədbirlərinin yaradılması, Nizamnamədə sadalanan tədbirlərdən bir və ya bir neçəsi vasitəsilə xəstəliyin tam məhv edilməsi məqsədilə dabaq xəstəliyinə nəzarət etməyi öhdələrinə götürürlər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ barədə bu komitənin müsbət rəyini söylədikdən sonra qanun layihəsi qəbul edilib.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini nəzərə çatdırıb. Komitə sədri qeyd edib ki, 28 oktyabr 2022-ci il tarixində Astana şəhərində imzalanmış Saziş Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazilərində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və aradan qaldırılması üzrə əməkdaşlığın inkişafı məqsədinə xidmət edir. 21 maddədən ibarət sənədə əsasən, tərəf dövlətlərdən hər hansı birinin ərazisində baş vermiş müvafiq fövqəladə vəziyyətlə əlaqədar məlumatların təcili ötürülməsi qaydası Müstəqil Dövlətlər Birliyinin Səhiyyə sahəsində Əməkdaşlıq Şurası tərəfindən müəyyən edilir.

Sazişə əsasən, ərazisində fövqəladə vəziyyət yaranmış tərəf dövlətlər bir-birinə yardım üçün sorğu ilə müraciət etdikləri halda, sənəddə öz əksini tapmış müvafiq şərtlər daxilində, tərəf dövlətlərin epidemiya əleyhinə ixtisaslaşmış briqadaları cəlb edilə bilərlər. Tərəflər öz qanunvericiliklərinə uyğun olaraq fövqəladə vəziyyətlərin qarşısının alınması və aradan qaldırılması məqsədilə yardım edən tərəfin epidemiya əleyhinə ixtisaslaşmış briqadaları, avadanlıq və sərfiyyat materiallarının sorğu göndərən tərəf dövlətin ərazisinə maneəsiz tranzitini təmin edirlər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təqdim olunan məsələnin vacibliyini qeyd edərək, layihə ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini açıqlayıb.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş"in təsdiq edilməsi haqqında qanun layihəsinə dair məlumatı təqdim edib. O, nəzərə çatdırıb ki, Azərbaycan Respublikası Hökuməti adından səlahiyyətli orqan kimi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU) arasında 2025-ci il 25 iyun tarixində Cenevrədə və 11 iyul tarixində Bakıda "Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş" imzalanıb. Bu Saziş Azərbaycan Respublikasının sözügedən beynəlxalq tədbirə evsahibliyini rəsmən təsdiq edir və konfransın təşkili və maliyyələşdirilməsi, tədbir üçün zəruri infrastrukturun təmin olunması, iştirakçıların təhlükəsizliyinin və rahatlığının təmin edilməsi, eləcə də beynəlxalq prosedurların sadələşdirilməsi ilə bağlı əsas müddəaları özündə əks etdirir.

Qeyd olunub ki, Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransı (ÜTİK-25) 17-28 noyabr 2025-ci il tarixlərində Bakı Konqres Mərkəzində keçiriləcək. Hər dörd ildən bir təşkil olunan bu tədbirin məqsədi rəqəmsal əlaqənin universallığını və əlçatanlığını təmin etmək, rəqəmsal bərabərsizliyi azaltmaq və telekommunikasiya sahəsində yaxın illər üçün prioritet istiqamətləri və fəaliyyət mexanizmlərini müəyyənləşdirməkdir. Konfransın nəticələri inkişaf layihələri, texniki yardım və regional təşəbbüslər üzrə konkret istiqamətləndirmələri müəyyən edəcək.

Məsələ barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bu komitənin rəyini bildirdikdən sonra, qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra deputat Zaur Şükürov növbəti məsələni - "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında" qanun layihəsi barədə məlumat verib.

O, bildirib ki, İslam İnkişaf Bankı Qrupunun 2026-cı ildə İllik Toplantılarının Azərbaycanda keçirilməsi barədə qərar İslam İnkişaf Bankı Qrupunun Müdirlər Şurası tərəfindən 2025-ci il 22 may tarixində qəbul edilib. Həmin gün Əlcəzair şəhərində, Azərbaycan Respublikasının Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Anlaşma Memorandumu imzalanıb. Memorandum 2026-cı il 16-19 iyun tarixlərində Bakı şəhərində keçiriləcək İllik Toplantıların təşkili ilə bağlı ev sahibi ölkənin öhdəliklərini müəyyən edir. Burada tədbirin keçirilməsi üçün zəruri təşkilati-texniki və logistika təminatları, təhlükəsizlik və protokol məsələləri, iştirakçıların akkreditasiyası və digər əlaqədar prosedurlar nəzərdə tutulur.

Qeyd olunub ki, qanun layihəsinin qəbul edilməsi Azərbaycanın İslam İnkişaf Bankı ilə əməkdaşlığını gücləndirəcək və ölkəmizin beynəlxalq nüfuzuna müsbət təsir göstərəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov layihəyə dair bu komitənin rəyini söylədikdən sonra qanun layihəsi qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə qanun layihəsi ilə bağlı məlumat verib. O, bildirib ki, konvensiya 1998-ci il 10 sentyabr tarixində Rotterdam şəhərində imzalanıb və sənəd dövlətlər arasında təhlükəli kimyəvi maddələrin və pestisidlərin idxalı və ixracı ilə bağlı məlumat mübadiləsini təmin etmək, onların istifadəsi nəticəsində yarana biləcək risklərin azaldılmasına nail olmaq, insan sağlamlığını və ətraf mühitin qorunmasını gücləndirmək məqsədini daşıyır.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənəd barədə rəhbərlik etdikləri komitələrin müsbət rəylərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Gündəliyin növbəti məsələsini - Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) səfirliyinin təsis edilməsi haqqında qanun layihəsini təqdim edən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan-Bəhreyn münasibətlərinin tarixi və əhəmiyyəti barədə fikirlərini səsləndirib, qanun layihəsinin qəbulunun iki dövlət arasında əlaqələrin inkişafına xidmət edəcəyini bildirib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin on birinci məsələsi olan "Tibbi sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, sənəd həbs edilmiş, müəyyən müddətdə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxslərə göstərilən tibbi xidmətlərin icbari tibbi sığorta çərçivəsində həyata keçirilməsi məqsədilə hazırlanıb. Belə ki, təklif olunan dəyişikliklərə əsasən, sözügedən qanunun 15-2.1-ci maddəsinə həbs edilmiş, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslər əlavə olunub.

Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, qeyd edilmiş kateqoriyaya aid olan şəxslərə tibbi xidmətin göstərilməsi xüsusi xarakter daşıdığından, Xidmətlər Zərfində onlara göstəriləcək tibbi xidmətlərin tətbiqi şərtləri müəyyən olunacaq.

Layihənin müzakirəsində komitə sədrləri Siyavuş Novruzov və Zahid Oruc, deputatlar Razi Nurullayev və Pərvanə Vəliyeva çıxış edərək fikirlərini səsləndiriblər.

Sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edib.

Layihədə Qaradağ Sənaye Parkının rezidenti olan Bakı Gəmiqayırma Zavoduna verilən güzəşt və azadolmaların müddətinin 2025-ci ildə başa çatması nəzərə alınaraq, sözügedən müddətin uzadılması təklif olunub. Belə ki, layihədə Qaradağ Sənaye Parkının gəmiqayırma fəaliyyəti ilə məşğul olan rezidentinə münasibətdə Vergi Məcəlləsi ilə tətbiq olunan mənfəət, əmlak və torpaq vergisindən azadolma müddəti, eyni zamanda malların idxalına tətbiq olunan gömrük rüsumunun ödənilməsindən azadolma müddəti 2030-cu ilədək uzadılır.

Layihənin müzakirəsində deputatlar Razi Nurullayev, Qüdrət Həsənquliyev, Samir Vəliyev və Aydın Hüseynov çıxış edərək fikirlərini səsləndiriblər. Komitə sədri Azər Əmiraslanov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## 27 Sentyabr Anım Gününün beşinci ildönümü ilə əlaqədar

### Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

2020-ci il sentyabrın 27-də başlanmış və Azərbaycan Silahlı Qüvvələrinin parlaq qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsi milli tariximizin ən şərəfli səhifələrindən birini təşkil edir. 30 illik işğala hərbi yolla son qoymaqla və dövlətimizin ərazi bütövlüyünün bərpasını təmin etməklə Azərbaycan Respublikası bütün dünyaya sübut etdi ki, beynəlxalq hüquq mexanizmlərinin işləmədiyi, dövlətlərə münasibətdə ikili standartların hökm sürdüyü bir şəraitdə də uzaqgörən və müdrik dövlətçilik strategiyası, öz lideri ətrafında sıx birləşən xalqın qanuni maraqlarını müdafiə etmək naminə fədakarlığı ədaləti bərpa etməyə və tarixin gedişini dəyişdirməyə qadirdir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev qələbənin əldə olunmasında həlledici rol oynamışdır. Onun irəli sürdüyü milli təhlükəsizlik konsepsiyasının həyata keçirilməsi nəticəsində müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələr formalaşdırılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan vətənpərvər gənc nəsil yetişdirilmişdir. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsi barədə Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin strateji baxışı, cəsarəti, qətiyyəti və əzmkarlığı, sərkərdəlik məharəti döyüş meydanında uğurların təməlində dayanmışdır. Vətən müharibəsi Azərbaycan əsgərlərinin və zabitlərinin kütləvi qəhrəmanlığına və fədakarlığına səhnə olmuşdur. Hərbi qulluqçular ən yüksək peşəkarlıq, mərdlik və Vətənə sədaqət nümayiş etdirmiş, öz borclarını şərəflə yerinə yetirərək doğma torpaqlarımızı işğaldan azad etmişlər. Onların bir çoxu "Vətən Müharibəsi Qəhrəmanı" adına və yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törətmişlər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir.

Dinc yaşayış məntəqələrinə 227 raket və 30 minə yaxın mərmi atılmış, nəticədə 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450-dən çox insan yaralanmışdır. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər və çoxmənzilli yaşayış binaları dağıdılmış və ya onlara ciddi ziyan vurulmuşdur.

Bu qanlı hücumlara və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüquq normalarına dönmədən əməl etmiş, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf almış, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. 2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və Azərbaycanın ərazi bütövlüyünün bərpası günü kimi tarixə həkk olunmuşdur.

İşğalçılara qarşı döyüş əməliyyatlarında həlak olmuş hərbi qulluqçuların, Ermənistanın dövlət terrorizmi aktları nəticəsində şəhər və kəndlərdə qətlə yetirilmiş dinc insanların xatirəsinə ehtiram əlaməti olaraq bu il sentyabrın 27-də ölkəmizdə Anım Günü beşinci dəfə qeyd edilmişdir. Vətən yolunda canından keçmiş şəhidlər xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədi ilə 2023-cü il sentyabrın 19-20-də Müzəffər Ali Baş Komandanın məharətli rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror əməliyyatı xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı sayəsində erməni silahlı dəstələri tərk-silah edildi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

Bu gün Azərbaycan hökuməti azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun bərpasına dair genişmiqyaslı proqramlar həyata keçirir. Ərazilər minalardan təmizlənir, işğal dövründə vəhşicəsinə dağıdılmış şəhər və kəndlər yenidən yaradılır, yollar, körpülər, tunellər, digər obyektlər inşa olunur, elektrik və su xətləri çəkilir. Bölgədə üç beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir. "Yaşıl energetika"nın, innovativ infrastrukturun genişləndirilməsinə və ərazilərin dayanıqlı inkişafına xüsusi diqqət yetirilir. Keçmiş məcburi köçkünlər mərhələ-mərhələ öz yurdlarına qaytarılır. İndiyədək 50 mindən çox soydaşımız doğma torpaqlarında yenidən dinc həyata başlamışdır.

44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycan ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla dövlətlərarası münasibətlər qurulmasına hazır olduğunu bəyan etmiş, sülhün bərqərar edilməsi üçün beynəlxalq hüquqa əsaslanan 5 təməl prinsip irəli sürmüşdür. Sülh sazişinin layihəsi də məhz Azərbaycan tərəfindən təqdim edilmişdir.

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması iki ölkə arasında münaqişəyə birdəfəlik son qoyulmasına əlverişli şərait yaradır. Eyni zamanda əldə edilmiş razılaşmalara uyğun olaraq reallaşacaq Zəngəzur dəhlizi qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevrilmək potensialına malikdir.

Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannamədə sülh sazişinin rəsmi şəkildə imzalanması üçün Azərbaycanın irəli sürdüyü hər iki şərt təsbit edilmişdir. İlk nəticə kimi, Azərbaycan və Ermənistanın müraciətinə əsasən keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk prosesi və əlaqəli strukturları ATƏT-in Nazirlər Şurasının qərarı ilə ləğv edilmişdir. Digər şərt olan Ermənistan Konstitusiyasında Azərbaycan Respublikasına qarşı ərazi iddialarının aradan qaldırılması ilə bağlı müvafiq dəyişikliklər edildikdən sonra isə iki ölkə arasında sülh sazişinin imzalanması yolunda heç bir maneə qalmayacaqdır.

Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, şəhidlərimizin qanı və canı bahasına, əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində Zəfər qazandığımız 44 günlük Vətən müharibəsinin nailiyyətləri Azərbaycan xalqının bugünkü və gələcək nəsilləri üçün daim güc və ilham mənbəyi olacaq, xalqımız öz liderinin ətrafında sıx birləşərək bölgədə güvənlik və inkişafın dayağı olan güclü, ləyaqətli və ədalətli dövlətini möhkəmləndirmək yolunda yeni-yeni uğurlar qazanacaqdır.

***(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 30 sentyabr tarixli iclasında qəbul edilmişdir)***

# Polşalı parlamentarilər Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər



Azərbaycan Respublikasında səfərdə olan Polşa parlamentinin Polşa-Azərbaycan parlamentlərarası əlaqələr qrupunun sədri Pşemıslav Vitekin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 30-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, tər çiçəklər düzüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanına gələrək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən şəhəri seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Polşa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sevinc Fətəliyeva və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycan-Polşa əlaqələri inkişaf edir



Sentyabrın 30-da Milli Məclis Sədrinin müavini Rafael Hüseynov ölkəmizdə səfərdə olan Polşa Respublikası Parlamentinin Azərbaycanla parlamentlərarası əlaqələr qrupunun sədri Pşemıslav Vitekin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları səmimi salamlayan Milli Məclis Sədrinin müavini ölkələrimiz arasında tarixi əlaqələrə əsaslanan ənənəvi dostluq münasibətlərindən danışıb. O bildirib ki, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərmiş polyak memarların yerli memarlarla birgə Bakının memarlıq simasının zənginləşdirilməsində göstərdikləri xidmətlər xalqlarımız arasında mənəvi bağlılığın və qarşılıqlı hörmətin bariz nümunəsidir. Qeyd olunub ki, polşalı memarlar Bakının memarlığında mühüm iz qoyub, şəhərin bir çox möhtəşəm tarixi binasını inşa ediblər.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dövlətlərarası əlaqələrin inkişafındakı müstəsna rolunu qeyd edən vitse-spiker bildirib ki, bu gün ikitərəfli münasibətlər siyasi, iqtisadi və mədəni-humanitar sahələrdə uğurla inkişaf edir. O həmçinin Prezident İlham Əliyevin ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin inkişafına və dərinləşdirilməsinə verdiyi böyük önəmi xüsusi vurğulayıb.

Vitse-spiker qonaqlara Azərbaycanın 30 ilə yaxın davam edən işğala son qoyaraq öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, bölgədə yaranmış yeni reallıqlar, həmçinin ölkəmizin regionda davamlı sülhün və əməkdaşlığın bərqərar olunması istiqamətində atdığı mühüm addımlar barədə məlumat verib.

Polşa Parlamentinin Azərbaycanla parlamentlərarası əlaqələr qrupunun sədri Pşemıslav Vitek səmimi qəbula və xoş sözlərə görə təşəkkürünü bildirib. Ölkəsinin Azərbaycanla əlaqələrin dərinləşdirilməsində maraqlı olduğunu deyən qonaq qeyd edib ki, parlamentlər ikitərəfli münasibətlərin dərinləşdirilməsində əhəmiyyətli rol oynaya bilərlər. Eyni zamanda vurğulanıb ki, Polşa tərəfi Azərbaycana beynəlxalq platformalarda göstərdiyi dəstəyi bundan sonra da davam etdirəcək.

Görüş tərəflərin Azərbaycan-Polşa əlaqələrinin inkişaf perspektivləri və qarşılıqlı əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikir mübadiləsi ilə davam edib.

*"Azərbaycan"*

# Parlamentlərarası əməkdaşlıq münasibətlərin inkişafında əhəmiyyətli rola malikdir

Sentyabrın 30-da Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sevinc Fətəliyeva Polşa Milli Assambleyasının nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Sevinc Fətəliyeva qeyd edib ki, dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətləri həm dövlət başçıları, həm də parlamentlər səviyyəsində dinamik şəkildə inkişaf edir. Bildirilib ki, mədəni, siyasi, diplomatik və humanitar sahələrdə yüksəksəviyyəli münasibətlər mövcuddur. Bu əlaqələrin möhkəmləndirilməsi xalqlarımız arasında dostluğun və qarşılıqlı etimadın daha da dərinləşməsinə xidmət edəcək.

Öz növbəsində qonaq - Polşa Milli Assambleyasının Polşa-Azərbaycan parlamentlərarası əlaqələr qrupunun sədri Pşemışlav Vitek göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, vurğulayıb ki, parlamentlərarası əməkdaşlıq münasibətlərimizin inkişafında əhəmiyyətli rola malikdir. Biznes və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi, işgüzar dairələr arasında birbaşa əlaqələrin təşviqi ölkələrimiz arasındakı strateji tərəfdaşlığı daha da gücləndirəcək və qarşılıqlı iqtisadi maraqların təmin olunmasına mühüm töhfə verəcəkdir.

Müzakirələrdə Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Asim Mollazadə, Sevil Mikayılova, Polşa-Azərbaycan parlamentlərarası əlaqələr qrupunun üzvləri Tomaş Qlovski, Rişard Vilk, Qjeqoj Matuşak çıxış edərək dövlətlərimiz arasındakı münasibətlərin tarixindən və parlamentlərarası əlaqələrin gələcək inkişaf perspektivlərindən bəhs ediblər.

Görüş qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi ilə davam edib.

*"Azərbaycan"*

# Azərbaycan-ABŞ münasibətləri və regional təhlükəsizlik məsələləri müzakirə olunub

Sentyabrın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunun baş müşaviri Vayat Tolki və səfirliyin müvəqqəti işlər vəkili Emi Karlonla görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-ABŞ münasibətləri, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumundan irəli gələn məsələlər, Azərbaycan-Ermənistan normallaşma prosesi və bu çərçivədə Vaşinqton razılaşmalarının icrası, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə rəsmiləri və nümayəndələri tərəfindən həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərin inkişafında əhəmiyyətli yer tutduğu qeyd edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# AZƏRTAC və İtaliyanın "Askanews" xəbər agentlikləri arasında əməkdaşlıq memorandumu imzalanıb

AZƏRTAC askanews

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) və İtaliyanın "Askanews" xəbər agentliyi əməkdaşlıq və informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu imzalayıblar.

Sənədə əsasən, agentliklər xəbər, foto və video mübadiləsi həyata keçirəcək, oxuculara və abunəçilərə Avropa və Asiyanı birləşdirən yeni multimedia və multiplatformalı informasiya kanalı təklif edəcəklər.

Tərəfdaşlıq İtaliya və Azərbaycan arasında ikitərəfli, regional və qlobal məsələlər üzrə əməkdaşlığı, habelə bu ölkələrin vətəndaş cəmiyyətləri arasında əlaqələri işıqlandırmaq məqsədilə agentliklər arasında informasiya mübadiləsini nəzərdə tutur. Bundan əlavə, sənəd İtaliya və Azərbaycan biznes qurumlarının tələblərinə cavab verən ixtisaslaşdırılmış informasiya-kommunikasiya xidmətləri və məhsulları təqdim etmək üçün transmilli əməkdaşlığın yeni sahələrini inkişaf etdirmək məqsədi daşıyır. "AZƏRTAC ilə "Askanews" arasında imzalanmış memorandum Azərbaycanla onun əsas ticarət tərəfdaşı olan İtaliya arasında informasiya mübadiləsinin gücləndirilməsi istiqamətində mühüm addımdır. Bu əməkdaşlıq hər iki ölkədə baş verən proseslərin daha geniş və obyektiv işıqlandırılmasına xidmət edəcək, eyni zamanda siyasi, iqtisadi, mədəni və digər sahələrdə münasibətlərin inkişafına töhfə verəcək. Əminik ki, bu tərəfdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə və media sahəsində ikitərəfli əlaqələrdə yeni imkanların açılmasına şərait yaradacaq", - deyə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev vurğulayıb.

Bununla əlaqədar "Askanews" agentliyinin baş redaktoru Gianni Todini deyib: "Biz İtaliya ilə ilk növbədə enerji və müdafiə sahələrində güclü ticarət əlaqələri olan, həmçinin beynəlxalq səviyyədə mədəniyyətlərarası və dinlərarası dialoq platforması kimi tanınan, geosiyasi baxımdan strateji ölkə olan Azərbaycan ilə bu yeni razılaşmaya şadıq. Əminik ki, bu sənəd həmçinin ölkələrimiz arasında mədəni, akademik və elmi əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək".

# Növbəti ağacəkmə kampaniyası



Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü, habelə 1 oktyabr - Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə sentyabrın 30-da Baş Prokurorluq, Hərbi Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, prokurorluğun veteranları, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi, nazirliyin əməkdaşları, muxtar respublikanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, eləcə də könüllülərin iştirakı ilə növbəti ağacəkmə kampaniyası keçirilib.

Tədbir çərçivəsində Abşeron yarımadası və Naxçıvan Muxtar Respublikasında torpaq-iqlim şəraitinə uyğun ümumilikdə 1500-dən çox zeytun və Eldar şamı ağacları əkilib.

Kampaniyadan sonra baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.

# Konstitusiya Məhkəməsində Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun nümayəndə heyəti ilə görüş keçirilib



Sentyabrın 30-da Konstitusiya Məhkəməsində Azərbaycanda səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun (TİHEK) sədri Fahrettin Altunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən bildirilib. Sədr Fərhad Abdullayev məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verərək, Azərbaycan-Türkiyə əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslandığını bildirib. O, iki qardaş ölkə arasında sarsılmaz münasibətlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri uğurlu siyasət nəticəsində durmadan inkişaf etdiyini vurğulayıb. Böyük geosiyasi və iqtisadi potensiala malik dövlətlərimizin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq əməkdaşlığının inkişafının daha da gücləndirilməsinə yönəlib.

Qeyd olunub ki, tarixin ən önəmli anlarında dövlətimizə dayaq olmuş qardaş Türkiyənin 44 günlük Vətən müharibəsində və Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı ölkəmizin yanında olması xalqımız tərəfindən daim yüksək qiymətləndirilir. Bu gün Əsas Qanunun hüquqi qüvvəsi suveren respublikamızda tam bərpa edilib və işğal altında olan torpaqlarımızın azad edilməsi həm də vətəndaşların Konstitusiyada təsbit olunan hüquqlarının müdafiəsinin təminatıdır.

Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Fahrettin Altun yüksək qonaqpərvərliyə görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edib. O bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də sıx əməkdaşlıq qarşılıqlı dəstək və anlaşma əsasında uğurla inkişaf edəcək.

Söhbət zamanı geniş fikir mübadiləsi aparılıb, insan hüquq və azadlıqlarının qorunması və digər hüquqi məsələlər müzakirə olunub. Görüşdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər. Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olub və xatirə fotoşəkilləri çəkdiriblər.

# Azərbaycan ilə Əlcəzair arasında əməkdaşlığın daha da dərinləşdirilməsi perspektivləri müzakirə edilib



Sentyabrın 30-da Azərbaycan Respublikasının maliyyə naziri Sahil Babayev Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Zakia İğhilini qəbul edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tanışlıq xarakteri daşıyan görüşdə Azərbaycan ilə Əlcəzair arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub, əməkdaşlığın daha da dərinləşdirilməsi perspektivləri müzakirə edilib.

Nazir Sahil Babayev enerji sahəsində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı investisiya təşəbbüslərinin dəstəklənməsinin, eləcə də ticarət əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Mövcud investisiya göstəricilərinin hələlik aşağı olmasına baxmayaraq, qeyri-neft və qaz sektorunda əməkdaşlıq üçün böyük potensialın olduğu, logistika və turizm imkanlarının, hava nəqliyyatı əlaqələrinin, həmçinin bərpa və tikinti layihələrinin nəzərdən keçirilməsinin əhəmiyyəti qeyd olunub.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Zakia İğhili fəaliyyəti dövründə iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşün sonunda maliyyə naziri səfirə Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

# *Nikol PAŞİNYAN:* "Əldə etdiyimiz sülh həmçinin Azərbaycan dövlətinin və xalqının nailiyyətidir"



Ermənistanın Baş naziri Nikol Paşinyan sentyabrın 30-da Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında çıxış edib.

AZƏRTAC erməni mətbuatına istinadla xəbər verir ki, Paşinyan Ermənistan ilə Azərbaycan arasında əldə olunmuş sülhü yüksək qiymətləndirərək bildirib: "Əldə etdiyimiz yeni sülhün bu gün 1 ay 22 günü tamam olur. Biz bu sülhün qayğısına qalmalıyıq, qorumalıyıq ki, daha da möhkəmlənsin".

Sülhün əldə olunmasında Azərbaycanın rolunu xüsusi qeyd edən Paşinyan deyib: "Mən məmnunluqla qeyd edirəm ki, bu gün Ermənistan ilə Azərbaycan arasında sülh var. Amma mən deyə bilmərəm ki, bu yalnız Ermənistan hökumətinin və erməni xalqının xidmətidir. Bu eləcə də Azərbaycan dövlətinin və Azərbaycan xalqının nailiyyətidir. Əgər Azərbaycan tərəfinin də əzmi olmasaydı, sülh də olmazdı. Bu eyni zamanda Azərbaycan və Ermənistan parlamentlərinin nailiyyətidir".

N.Paşinyan çıxışı zamanı daha sonra bildirib: "Ermənilərin Qarabağa qayıdışının real olduğunu düşünmürəm. Bu, çox riskli məsələdir".

O deyib: "İnsanlar tez-tez məndən ermənilərin Qarabağa qayıtmasının nə dərəcədə real olduğunu soruşurlar. Düzünü desəm, mən bunun real olduğunu düşünmürəm. Eyni zamanda mən bu məsələni sülh prosesi üçün təhlükəli hesab edirəm". N.Paşinyanın sözlərinə görə, Qarabağdan gələn ermənilər Ermənistanda qalmalıdırlar və artıq onların mənzillərlə təmin edilməsi proqramına başlanılıb.



# Prokurorluq orqanları suverenliyin və qanunçuluğun keşiyindədir

## Dövlətimizin parlaq gələcəyinə hesablanmış müstəqil və qətiyyətli siyasət

*Əvvəli 1-ci səh.*

### Dövlətçilik fəlsəfəsinin əsas sütunları: Konstitusiya və suverenlik

Tarix boyu azadlıq və müstəqillik uğrunda böyük sınaqlardan və məhrumiyyətlərdən keçmiş xalqımız dövlətçilik və suverenlik kimi milli kimlik və milli mövcudluq ideyalarına daim sadiq qalmış, hürr iradəsini əsrlər boyu qoruyub saxlamışdır.

Bu iradənin nəticəsi olaraq Azərbaycan bu gün özünün ərazi bütövlüyünü təmin etmiş tam müstəqil və suveren dövlət kimi beynəlxalq aləmdə layiqli yerini tutur.

Xüsusi vurğulanmalıdır ki, xalqımızın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra tarixin bizə bəxş etdiyi ən böyük azərbaycanlı Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, mütərəqqi dəyərlərə söykənən ilk milli konstitusiya suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi üçün zəruri olan ilkin şərtləri yaratmışdır.

Görkəmli rəhbərin *"Biz elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun"* sözləri bir daha göstərdi ki, Heydər Əliyevin dövlətçilik məktəbi bu gün də aktuallığını qoruyub saxlayır və ölkəmizin daha da qüdrətlənməsi işinə öz misilsiz töhfələrini verməkdə davam edir.

Müstəqilliyin qorunub saxlanmasından sonra sosial-iqtisadi inkişafa nail olmaqla yanaşı, dərhal ordu quruculuğuna başlayan qüdrətli lider Heydər Əliyev hələ ilk gündən torpaqlarımızın qan tökülmədən geri qaytarılmasına çalışmış, bölgədə dayanıqlı sülhün təmini üçün konstruktiv addımlar atmışdır.

Ədalətə əsaslanan sülh gündəliyinə sadiq qalan cənab Prezidentin bütün səylərinə baxmayaraq, ölkəmizin 2020-ci ilin sentyabrında Ermənistanın yeni hərbi təxribatına cavab olaraq 44 günlük Vətən müharibəsi, eləcə də antiterror əməliyyatı Azərbaycan Respublikasının Dövlət Suverenliyinin bərpası kimi, onun konstitusiya quruluşunun bərqərar olmasını da təmin etmişdir.

Bu baxımdan hər bir azərbaycanlı üçün tarixi anlam kəsb edən dövlət başçısının sərəncamı ilə elan olunan "Konstitusiya və Suverenlik İli" ölkəmizin möhtəşəm Zəfər yoluna - tam suverenlik zirvəsinə yüksəlməsinə hərtərəfli nəzər salınması, dövlətçiliyinin əsas sütunlarının bir daha təhlil edilməsi və mənimsənilməsi baxımından böyük əhəmiyyət daşımaqdadır.

### Müasir inkişaf mərhələsində prokurorluğun yeri və rolu

Bu gün prokurorluq orqanlarının bütün əməkdaşları və veteranlarımız böyük ruh yüksəkliyi ilə milli prokurorluq orqanlarının yaranmasının 107-ci ili və prokurorluq işçilərinin peşə bayramı gününü qeyd edir.

Tarixinin bütün mərhələlərində çətin, eyni zamanda şərəfli bir inkişaf yolu keçən milli prokurorluq orqanları daim millətinə və dövlətçilik ideyalarına sədaqətlə və vicdanla qulluq etmişdir.

Müstəqilliyinin bərpasından sonra fəaliyyətində və inkişafında mürəkkəb dövrlə qarşılaşan Azərbaycan prokurorluğunun qanunun aliliyinin təmin edilməsində və cinayətkarlığa qarşı barışmaz mübarizəsində qətiyyətli mövqeyinin, fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın formalaşdırılması məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl və məqsədyönlü hüquq islahatları nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarına hər zaman xüsusi qayğı və dəstək göstərən Ulu Öndərin *"Respublika prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir"* sözləri qurumun ictimai-siyasi sabitliyin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətinə ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, müstəqil dövlətçiliyimizin hüquqi əsaslarını yaradan Konstitusiyada prokurorluğa xüsusi maddə həsr edilmiş, səlahiyyətləri və vəzifələri dövrün tələblərinə uyğunlaşdırılmışdır.

Hüquq-mühafizə orqanlarının, xüsusilə də prokurorluğun məsuliyyətlə və peşəkarcasına fəaliyyət göstərməsinin ölkənin dayanıqlı və davamlı inkişafının təminatında mühüm roluna əhəmiyyət verən böyük öndərin *"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"* sözləri hər bir prokurorluq işçisi tərəfindən bu gün də iftixar hissi ilə yad edilir.

Sevindirici haldır ki, prokurorluq orqanlarının daha da təkmilləşdirilməsi, prokurorluq işçilərinin əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, əməkdaşların sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Heydər Əliyev irsinə layiqli varislik nümunəsini göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çağdaş dövrün tələblərinə uyğun apardığı hüquqi dövlət quruculuğu islahatları nəticəsində davam etdirilmişdir.

Bu baxımdan dövlət başçısının rəhbərliyi ilə innovativ yanaşmanı önə çəkən ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

Qeyd edilməlidir ki, prokurorluq orqanlarında yeni dövrün tələblərinə uyğun islahatlara təkanın əsasını cənab Prezident İlham Əliyev tərəfindən 2020-ci il mayın 1-də baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul zamanı verilən tapşırıq və tövsiyələr təşkil etmişdir.

Dövlət Başçısının *"Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq"* sözlərinin ruhuna uyğun olaraq bu gün də prokurorluqda işin səmərəliliyinin artırılması və çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması, hesabatlılığın və şəffaflığın təmini, elmi-texniki nailiyyətlərin tətbiqi istiqamətində mütəmadi islahat tədbirləri həyata keçirilməkdədir.

Xüsusi vurğulanmalıdır ki, cənab Prezidentin dəstəyi ilə hüquq sistemində aparıcı rola malik prokurorluğun fəaliyyətində maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, xidməti fəaliyyətinin yaxşılaşdırılması istiqamətində cari il ərzində də mühüm addımlar atılmış, Kürdəmir rayon, Bakı şəhərinin Nəsimi və Pirallahı rayon prokurorluqlarının yeni inzibati binalarının, həmçinin Bakı şəhər prokurorluğunun inzibati binasının yeni korpusunun istifadəyə verilməsi ölkə rəhbərliyinin quruma olan növbəti diqqət və qayğısının təcəssümü kimi qəbul edilmişdir.

Yeni dövrün yeni lideri cənab İlham Əliyevin hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının gələcək inkişaf istiqamətlərini müəyyən edən rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, prokurorluğa ictimai etimadın gücləndirilməsi ilə bağlı tədbirlər daim diqqət mərkəzində saxlanılmaqla bundan sonra da eyni qətiyyətlə davam etdiriləcəkdir.

### Qanunun aliliyinin təmini prokurorluq orqanlarının fəaliyyətinin əsasını təşkil edir

Ölkəmizin dinamik inkişafının təməlini təşkil edən möhkəm ictimai-siyasi sabitliyin, milli dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən qorunması, kriminogen durumun nəzarətdə saxlanması, qanunun aliliyinin təmin olunmaqla Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı dövlətimizin ali məqsədlərindən biri kimi müəyyən edilmişdir.

Bu baxımdan daxili işlər, dövlət təhlükəsizliyi, ədliyyə, gömrük, vergi, dövlət sərhəd və fövqəladə hallar orqanlarının fəaliyyətində məhkəməyədək aparılan təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətinə Konstitusiya ilə nəzərdə tutulmuş qaydada prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Ötən peşə bayramından keçən dövr ərzində ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə daxili işlər orqanları üzrə 22418, vergi orqanları üzrə 1518, ədliyyə orqanları üzrə 441, sərhəd xidməti üzrə 230, gömrük orqanları üzrə 308, dövlət təhlükəsizliyi orqanları üzrə 157, fövqəladə hallar orqanları üzrə 66 cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilmişdir.

Həmin işlər üzrə cinayət-prosessual qanunvericiliyin tələblərinin yerinə yetirilməsi ilə əlaqədar zəruri hallarda yazılı göstərişlər verilmiş, ibtidai istintaqı tamamlanmış işlərin müvafiq məhkəmələrə göndərilməsi və digər yekun qərarların qəbul olunması təmin edilmişdir.

### Peşəkar və keyfiyyətli istintaq əsas vəzifələrdəndir

Prokurorluq orqanları tərəfindən cinayət işləri üzrə tez bir zamanda obyektiv həqiqətin müəyyən edilməsi, təqsirli şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi, dövlətə və vətəndaşlara dəymiş ziyanın ödənilməsi mühüm əhəmiyyət kəsb edir.

Ötən peşə bayramından keçən müddət ərzində daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə qeyri-aşkar şəraitdə törədilmiş 25 qəsdən adam öldürmə cinayətinin isti izlərlə, habelə əvvəlki illərdən bağlı qalmış 3 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilmişdir.

Cari il ərzində prokurorluq orqanlarında aparılmış istintaq tədbirləri ilə istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilmiş materiallar üzrə vurulmuş maddi ziyandan 22 milyon 860 min manat, həmçinin qanunvericiliyin tələblərinə əsasən cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 4 milyon 411 min manat vəsaitin ödənilməsinə nail olunmuş, eləcə də 44 milyon 384 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmuşdur.

Ötən ilin sonlarında ictimaiyyəti dərindən üzən Rusiya Federasiyasının hava məkanında kənar müdaxiləyə məruz qalması nəticəsində "Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhərində qəzaya uğraması ilə bağlı başlanmış cinayət işi üzrə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən kompleks istintaq-əməliyyat hərəkətləri aparılmaqla təqsirli şəxslərin müəyyən edilməsi istiqamətində ayrı-ayrı xarici ölkələrlə birlikdə zəruri tədbirlər davam etdirilir.

### Korrupsiyaya qarşı kəsərli mübarizə ardıcıl xarakter kəsb edir

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi dövlət siyasətinə və strateji inkişaf konsepsiyasına, o cümlədən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq korrupsiyaya qarşı mübarizəyə xüsusi diqqət yetirilməsi prokurorluqda prioritet fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Bu sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyası tərəfindən dövlət idarəçiliyində səmərəliliyin artırılması və şəffaflığın gücləndirilməsi ilə əlaqədar davamlı tədbirlər həyata keçirilmişdir.

Korrupsiya ilə mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində bu müddətdə vətəndaşların 2676, o cümlədən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 5982 müraciətinə baxılaraq, prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi, həmçinin cinayət işlərinin başlanması təmin edilmişdir.

Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən 16 əməliyyat tədbiri nəticəsində 11 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 86 cinayət işi başlanmışdır.

Qeyd edilən dövrdə cinayət işləri üzrə vurulmuş maddi ziyandan 3 milyon 435 min manatın ödənilməsi, həmçinin 14 milyon 916 min manat məbləğində əmlak üzərinə həbs qoyulmaqla ümumilikdə 18 milyon 351 min manat məbləğində ziyanın bərpası təmin olunmuşdur.

Bundan başqa, icraatına xitam verilmiş işlər üzrə 4 milyon 307 min manat məbləğində maddi ziyan ödənilməklə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 2 milyon 189 min manat məbləğində pul vəsaiti ödənilmişdir.

### Ədalət mühakiməsinin həyata keçirilməsində dövlət ittihamının rolu

Sosial ədalətin bərpası, məhkumun islah olunması və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi daşıyan cəza-hüquq siyasətinə uyğun olaraq prokurorluq orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi prosesi sistemli olaraq davam etdirilir.

Bu baxımdan birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində ədalət mühakiməsi zamanı yalnız prokurorluq orqanları tərəfindən həyata keçirilən dövlət ittihamının müdafiəsi funksiyası qurumun əsas fəaliyyət istiqamətlərindən olmaqla insan hüquq və azadlıqlarının təminatının mühüm vasitəsidir.

Qanunçuluq, ədalət və əmələ görə məsuliyyət prinsiplərinə əsaslanan cinayətkarlığa qarşı mübarizəyə dair siyasətin həyata keçirilməsində yaxından iştirak edən dövlət ittihamçılarının iştirakı ilə cari il ərzində məhkəmələrdə 16096 şəxs barəsində 14583 cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilmiş, ümumilikdə 941 qərardan protest verilmişdir.

Ötən müddətdə Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırım, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaq yekunlaşdırılmaqla baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilmişdir.

Hazırda məhkəmə baxışı mərhələsində olan cinayət işləri üzrə 16 erməniəsilli şəxs barəsində dövlət ittihamının müdafiəsi davam etdirilməklə toplanmış sübutlar əsasında təqsirli şəxslərə layiqli cəzanın tələb olunması təmin ediləcəkdir.

### Ekoloji mühitin qorunmasında prokurorluğun iştirakı

Ölkəmizin daxil olduğu yeni tarixi mərhələnin reallıqları fonunda sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri kimi müəyyən edilmiş "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfinə uyğun olaraq prokurorluq orqanları tərəfindən ekoloji tarazlığın qorunması sahəsində hüquqpozmaların qarşısının alınması, aşkarlanması və araşdırılması istiqamətində aidiyyəti səlahiyyətli qurumlarla birgə fəaliyyət davam etdirilir.

Bu baxımdan ölkəmizin bəşəriyyəti narahat edən ən vacib məsələlərdən biri olan qlobal iqlim siyasətində yeni dönüş nöqtəsini hədəfləyən COP sammitinə evsahibliyi etməsi, o cümlədən həmin tədbirlər çərçivəsində Baş Prokurorluq və Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən beynəlxalq təşkilatların, eləcə də xarici ölkələrin prokurorluq orqanlarının rəhbər vəzifəli şəxslərinin, o cümlədən ölkəmizin aidiyyəti dövlət orqanları, aparıcı ali təhsil, elm ocaqları və geniş hüquq ictimaiyyətinin iştirakı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda təşkil etdiyi yüksəksəviyyəli sessiya mühüm önəmə malik olmuşdur.

Qeyd etməliyəm ki, maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin mühafizəsi sahəsində mütəxəssislərin əlaqələndirilməsi, bu sahədə pozuntuların qarşısının alınması istiqamətində Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti və Qarabağ Universiteti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili"ndə təsis edilməklə birgə həyata keçirilən ECOLEAD platforması da uğurla işini davam etdirir.

Bu layihə çərçivəsində Bakı şəhərində və bölgələrdə ekoloji cinayətlər və inzibati xətalar nəticəsində kəsilmiş ağacların və ya yararsız vəziyyətə salınmış ərazilərin bərpası məqsədilə təsis edilmiş "Eko Park" adlı yaşıllaşdırılmış ərazilərdə 2200-dən çox ağac əkilmişdir.

Ümumilikdə 2020-ci ildən ətraf mühitin mühafizəsi qaydalarının pozulması faktları ilə əlaqədar 237 inzibati xəta haqqında is üzrə icraat və 644 cinayət işi başlanmaqla təqsirli şəxslər barəsində zəruri məsuliyyət tədbirləri görülmüş, həmçinin 7 milyon 277 min manat məbləğində ziyanın ödənilməsi təmin edilmişdir.

Ətraf mühitin mühafizəsini təmin etmək, təbiəti qorumaq, onun keşiyində durmaq, Prezident cənab İlham Əliyevin *"Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar"* şüarının reallaşdırılması hər bir prokurorluq əməkdaşının həm vəzifə, həm də gələcək nəsillər naminə vətəndaşlıq borcudur və əminəm ki, hər bir prokurorluq əməkdaşı bu istiqamətdə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəkdir.

### Hərbi prokurorluq orqanlarının fəaliyyəti

Müzəffər Sərkərdə cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin döyüş imkanlarının artırılması, hərbi infrastrukturun müasirləşdirilməsi, ordunun peşəkarlığının artırılması ölkəmizin müdafiə qüdrətinin daha da güclənməsini təmin etmişdir.

Bu baxımdan Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət orqanları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin böyük əhəmiyyəti olmuşdur.

Qeyd edilməlidir ki, cari il ərzində Hərbi Prokurorluqda aparılmış kadr və struktur islahatları ilə qurumun fəaliyyəti daha da optimallaşdırılmış, səmərəliliyin artırılması və maddi-texniki təminatın yaxşılaşdırılması üçün məqsədyönlü addımlar atılmışdır.

Həyata keçirilən tədbirlərin davamı kimi operativliyin təmin edilməsi və vətəndaşların məmnunluq səviyyəsinin yüksəldilməsi, hərbi qulluqçular və onların ailə üzvləri ilə Hərbi Prokurorluq arasındakı etimadın möhkəmləndirilməsi, eləcə də müraciət imkanının asanlaşdırılması istiqamətində ödənişsiz "962" Etimad xətti yaradılmışdır.

### Süni intellekt və rəqəmsal texnologiyalar: səmərəli və çevik fəaliyyətin əsası kimi

Çağdaş Azərbaycan Prokurorluğunun fəaliyyətində qarşıda duran vacib istiqamətlərdən biri də dövrün tələblərinə uyğun olaraq cinayət mühakimə icraatında rəqəmsallaşma prosesinin həyata keçirilməsidir ki, bu sahədə son dövrlər nəzərəçarpan irəliləyişlər əldə edilmişdir.

Bu baxımdan dövlət başçısının 7 may 2021-ci il tarixli fərmanı ilə yaradılmış "Elektron Prokurorluq" İnformasiya Sisteminin tam şəkildə bütün prokurorluq orqanlarında fəaliyyətə başlaması, sənədlərin elektron formada tərtibi, digər qurumlarla yazışmaların və sənəd mübadiləsinin rəqəmsal inteqrasiya platforması üzərindən aparılması işin operativliyinə olduqca müsbət təsirini göstərmişdir.

Qeyd etməliyəm ki, hazırda prokurorluq orqanlarında icraatda olan bütün cinayət işlərinin və cinayət xarakterli məlumatların araşdırılmasına dair materiallar "Elektron Prokurorluq" İnformasiya Sistemi vasitəsilə "kağızsız" qaydada aparılmaqdadır.

Eyni zamanda "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" 1 avqust 2023-cü il tarixli fərmanla yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə ilk qoşulan qurumlardan biri olan Azərbaycan Prokurorluğu tərəfindən cinayət prosesinin rəqəmsallaşdırılması ilə bağlı cinayət-prosessual və digər qanunvericiliklərə dəyişikliklərin edilməsini nəzərdə tutan qanun layihələri hazırlanmaqla razılaşdırılması üçün aidiyyəti qurumların müzakirəsinə təqdim edilmişdir.

Bununla yanaşı, son dövrlər süni intellekt, rəqəmsal və kibermühitlə bağlı texnoloji inkişafa adekvat olaraq törədilən hüquqpozmaların çevik aşkar edilməsi, zəruri qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə Baş Prokurorluqda Kibertəhlükəsizlik şöbəsi yaradılmaqla fəaliyyətə başlamışdır.

### Kadr potensialının artırılması başlıca vəzifələrdəndir

Prokurorluq orqanları tərəfindən ölkəmizin parlaq gələcəyinə hesablanmış gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında işə qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Cari il ərzində də mövcud vakant ştat vahidləri nəzərə alınmaqla yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə və sağlam mənəviyyata malik 56 gənc hüquqşünas bu ilin yanvar ayında sayca 26-cı müsabiqənin nəticələri üzrə qulluğa qəbul edilmişlər.

Xüsusi qeyd edilməlidir ki, 2020-ci ildən bəri keçirilən müsabiqələr üzrə uğur qazanmış namizədlərdən 23-ü Vətən müharibəsinin iştirakçısı olmaqla prokurorluq orqanlarında şərəfli xidmətlərini davam etdirirlər.

Ötən müddət ərzində prokurorluq orqanlarının kadr potensialının inkişafı istiqamətində əməkdaşların peşə səviyyələrinin artırılması, tədrisin uğurlu praktikalar əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə aparıcı elm və təhsil müəssisələri, hüquq-mühafizə orqanlarının akademiyaları ilə işgüzar əlaqələr daha da inkişaf etdirilmişdir.

Belə ki, cari ilin mart ayında Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Milli Aviasiya Akademiyası arasında 2020-ci ildə imzalanmış Sazişlə əldə olunan müsbət nəticələr nəzərə alınaraq əlaqələrin daha da genişləndirilməsi məqsədilə əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu imzalanmışdır.

Bununla yanaşı, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında tədris və elmi-tədqiqat sahəsində əməkdaşlığı nəzərdə tutan memorandum da imzalanmışdır ki, bu da dost və qardaş türk dövlətlərinin müvafiq qurumları ilə əməkdaşlığın genişlənməsinə xidmət edəcəkdir.

### Qanunvericiliyin təkmilləşdirilməsi və vətəndaş məmnunluğunun təmini də diqqət mərkəzindədir

Prokurorluq orqanlarında norma yaratma və hüquq tətbiqetmə fəaliyyətinin həyata keçirilməsi üzrə də cari il ərzində səmərəli işlər görülmüş, Baş Prokurorluq tərəfindən Konstitusiya Məhkəməsinə 5 sorğunun hazırlanaraq göndərilməsi, habelə Konstitusiya Məhkəməsində baxılan işlər üzrə 2 yazılı rəyin verilməsi təmin edilməklə konstitusiya icraatında iştirak edilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Bas Prokurorluqda, eləcə də 22 rayon və şəhərdə ümumilikdə 765 vətəndaş tərəfimdən qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Bas Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmişdir.

### Beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübə mübadiləsi

Ötən müddətdə cinayətkarlığın yeni formalarının dövlətlərin birgə səyi nəticəsində qarşısının alınması istiqamətində beynəlxalq tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilmiş, ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə əməkdaşlıq diqqətdə saxlanılmışdır.

Qeyd etməliyəm ki, qarşılıqlı münasibətlərin qurulması və inkişafı prokurorluğun insan hüquqlarının müdafiəsi və müstəqil dövlətimizin hüquqi əlaqələrinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinin əsasını təşkil etmişdir.

Həyata keçirilmiş tədbirlərin və prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin nəticəsidir ki, ötən il Bakı şəhərində dünya prokurorlarının yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir.

Müxtəlif ölkələrin baş prokurorları və digər yüksəkvəzifəli şəxsləri də daxil olmaqla, 95 ölkə və 10 beynəlxalq təşkilatdan ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə baş tutmuş tədbir Azərbaycan Prokurorluğunun inkişaf tarixində ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır.

Beynəlxalq tədbirlərin davamı olaraq cari il ərzində də çoxsaylı görüş keçirilmiş, o cümlədən "Konstitusiya və Suverenlik İli" çərçivəsində, həmçinin Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illik yubileyi ərəfəsində Uqanda, Laos, Tanzaniya, Keniya baş prokurorları və Türkiyə Baş Prokurorluğunun nümayəndələrinin iştirakı ilə "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda konfrans keçirilmişdir.

Bu müddətdə rəhbərlik etdiyim nümayəndə heyətlərinin Avstriya, Türkiyə, Qətər, Özbəkistan, Vyetnam, Sinqapur, Keniyada işgüzar səfərləri ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə rəvac vermişdir.

Milli prokurorluq orqanları tərəfindən əldə olunan müsbət təcrübələr beynəlxalq təşkilatlarda da qurumun əməkdaşlarının mütəxəssis qismində cəlb olunmasına şərait yaratmış, belə ki, cari ildə Baş Prokurorluğun idarə rəisi Albaniya tərəfindən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının tətbiqinin qiymətləndirilməsində dəyərləndirici ekspert kimi iştirak etmişdir.

Bununla yanaşı, Baş Prokurorluğun idarə rəisi korrupsiyaya qarşı mübarizə sahəsində nəzəriyyə və praktikada mövcud çatışmazlıqların aradan qaldırılmasına, ixtisasların artırılmasına, təcrübə mübadiləsinə və elmi araşdırmaların aparılmasına istiqamətlənmiş nadir institutlardan olan Beynəlxalq Anti-Korrupsiya Akademiyasının rəhbər qurumu olan İdarəetmə Şurasında fəaliyyətə başlamışdır.

### Korrupsiya ilə mübarizədə qarşılıqlı beynəlxalq təcrübənin önəmi

Dövrümüzün sosial bəlası hesab edilən korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə anti-korrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi prokurorluğun fəaliyyətində daim diqqət mərkəzində olan istiqamətlərdən olmuşdur.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə üzrə təşəbbüslərinə beynəlxalq etimadın növbəti təzahürü olaraq cari ilin may ayında Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - GlobE Network çərçivəsində 92 ölkəni təmsil edən 120 dövlət qurumunun 300-dən artıq nümayəndəsinin iştirakı ilə Altıncı Plenar İclasın keçirilməsi bu baxımdan müstəsna əhəmiyyət daşımışdır.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübə mübadiləsi və effektiv yanaşmaların formalaşdırılması baxımından əhəmiyyətli antikorrupsiya platforması hesab olunan GlobE Network-ün iclasında yeni texnologiyaların hüquq-mühafizə orqanlarına təsiri, ekoloji cinayətlərin qarşısının alınması və oğurlanmış aktivlərin bərpası kimi aktual mövzular üzərində müzakirələr aparılmışdır.

Bundan başqa, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin sonuncu plenar iclasında şəbəkənin İstanbul Antikorrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsi çərçivəsində ölkəmiz üzrə daha öncə təqdim edilmiş tövsiyələrin icrası ilə əlaqədar tərəqqi hesabatı müzakirə edilərək qəbul edilmişdir.

Xüsusilə qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ekspertlər tərəfindən olduqca yüksək qiymətləndirilmiş və müvafiq sahədə əldə etdiyi nəticələrə görə Azərbaycan region ölkələri arasında ilk yerlərdən birini tutmuşdur.

"Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları" mövzusunda keçirilən Plenar İclas çərçivəsində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar, habelə ölkəmizin COP29 sədrliyi ilə bağlı ekoloji hüquqpozmalara qarşı mübarizə ilə bağlı xüsusi sessiya və paralel tədbirlər də keçirilmişdir.

Qeyd etməliyəm ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanmaqla ölkəmiz 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) Üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə aparan Hüquq-mühafizə Orqanlarının Yüksəksəviyyəli Görüşünə evsahibliyi edəcəkdir.

*Sonda dövlət başçısını və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bu gün yaranmasının 107-ci ilini qeyd etdiyimiz Azərbaycan Prokurorluğu və onun kollektivi "Konstitusiya və Suverenlik İli" çərçivəsində məsuliyyətini dərindən dərk edərək ölkəmizin yeni inkişafı mərhələsində dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi naminə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəklər.*

***Kamran ƏLİYEV,***
***Azərbaycan Respublikasının baş prokuroru,***
***I dərəcəli dövlət ədliyyə müşaviri,***
***Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti,***
***hüquq elmləri üzrə fəlsəfə doktoru***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Diplomatiyamızın daha bir uğuru

Bu gün Azərbaycan müstəqil, balanslaşdırılmış xarici siyasət kursunu uğurla davam etdirir. Ölkəmizin reallaşdırdığı xarici siyasətin əsas prinsipləri ikitərəfli formatda əməkdaşlığa, bərabərhüquqlu münasibətlərə, bir-birinə hörmət ruhuna, daxili işlərə qətiyyən qarışmamaq şərtinə əsaslanır. "Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik", - deyə Azərbaycan Prezidenti bildirir.

Prezident İlham Əliyevin 2025-ci il sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirakı və BMT tribunasındakı tarixi çıxışı diplomatiyamızın daha bir təntənəsi oldu.

Dövlətimizin rəhbərinin bu ilin avqustunda Vaşinqtona səfəri, Ağ Evdə ABŞ Prezidenti Donald Trampla keçirdiyi görüş, BMT Baş Assambleyasındakı iştirakı bir-birini uğurla tamamlayır.

Bu, Vətən müharibəsindəki qələbəmizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra Azərbaycan Prezidentinin BMT tribunasından ilk çıxışı idi. Təxminən 30 ilə qədər çəkən müddət ərzində BMT Ermənistan-Azərbaycan arasında münaqişənin həllinə görə beynəlxalq məsuliyyət daşıyan əsas qurumlardan olmuşdu. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan hərbi birləşmələrinin işğal etdiyi Azərbaycan torpaqlarından dərhal çıxması barədə hələ 1993-cü ildə dörd qətnamə qəbul etsə də, bu qətnamələr uzun illər ərzində havadan asılı qalırdı. Azərbaycanın sülh prinsiplərinə sadiqlik göstərərək münaqişənin heç bir tərəfdən itkilərə, dağıntılara yol vermədən dinc şəraitdə həlli üçün apardığı danışıqların da faydası olmurdu. Reallıq bundan ibarət idi ki, Vətən müharibəsi ərəfəsində danışıqlar artıq səmərəsiz hala gəlmişdi və rəsmi İrəvan müzakirə platformalarından hər iki tərəfi qane edəcək hansısa həll yolu axtarmaqdan daha çox status-kvonu qorumaq, nələrəsə ümid bağlayaraq işğal dövrünü mümkün qədər uzatmaq məqsədi güdürdü. Azərbaycan isə Prezident İlham Əliyevin hər zaman bəyan etdiyi kimi səbrimizin tükənməz olmadığını göstərirdi.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrin icra olunmadan qalmasından, 30 illik səmərəsiz danışıqlardan sonra Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etdi. 2020-ci il Vətən müharibəsindəki tarixi qələbəmiz, ardınca 2023-cü ildə həyata keçirilmiş qısamüddətli antiterror əməliyyatı ilə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyev BMT-nin müvafiq qətnamələrinin icrasını ordumuzun gücü ilə təmin etdi. Eyni zamanda qalib tərəf olaraq dövlətimiz sülh təşəbbüsünü də özü irəli sürdü, 2022-2025-ci illər ərzində aparılan sülh danışıqlarında böyük təmkin, strateji yanaşma nümayiş etdirdi. Sülh proseslərini pozmağa yönələn cəhdlərin, xarici təhdidlərin, təxribatların qarşısını məharətlə aldı. Bütün bunların məntiqi nəticəsi kimi sülhə doğru mühüm addımlar atıldı. Bu addımların ən mühümü, təbii ki, avqustda Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasıdır.

### Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə

Ölkəmiz həm müharibədə, həm də sülhdə qazandığı qələbə ilə bütün dünya üçün mükəmməl bir təcrübə formalaşdırdı. Bu, haqq-ədalətin öz yerini tutması, beynəlxalq normaların bərqərar olması, suverenliyin möhkəmlənməsi, sülhün de-fakto təmin edilməsidir. "Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq", - Azərbaycan Prezidenti İlham Əliyev BMT-dəki çıxışında belə qeyd etdi.

Bir-birinin ardınca Amerika Birləşmiş Ştatlarına iki möhtəşəm səfər, dünyanın bu aparıcı ölkəsinin rəhbərliyi ilə sıx, səmimi kommunikasiyalar Azərbaycan-ABŞ münasibətlərində də artıq yeni bir səhifə açılmasının təzahürüdür. Bu baxımdan xüsusilə avqustda Azərbaycan Prezidentinin ABŞ-yə səfəri zamanı əldə edilmiş razılaşmalar çox mühüm əhəmiyyət daşıyır. Münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması yaxın gələcəkdə ölkələrimiz arasındakı münasibətlərin daha da inkişaf edəcəyini göstərir. Prezident İlham Əliyev çıxışında bu məsələyə xüsusi diqqət yetirdi: "Vaşinqton Sammiti həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır".

ABŞ Prezidenti Donald Trampın "907-ci düzəliş"in icrasını dayandırması haqqında tarixi qərarı da buna dəlalət edir. İki ölkə arasında etimadın, qarşılıqlı əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsi üçün isə bu düzəlişin birdəfəlik ləğvi vacibdir. Ümid etməyə dəyər ki, Tramp administrasiyası ABŞ-nin əvvəlki rəhbərliklərinin Azərbaycana və ümumən regionun gələcək təhlükəsizliyinə, rifahına münasibətdə yol verdikləri bu yanlışı tam aradan qaldıracaqdır.

"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) da Vaşinqton Sammitinin mühüm nəticələrindən biri kimi Cənubi Qafqazda sülhə, dayanıqlı inkişafa, regionun imkanlarından bütün tərəflərin qarşılıqlı faydalı şəkildə birgə istifadəsi məramına xidmət edir.

### Yeni iqtisadi modelə keçid

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev regionda yeni bir reallıq yaradıb. Ölkəmizin və yaşadığımız coğrafiyanın tarixində misilsiz bir dövr başlanıb. Yaranmış yeni vəziyyət iqtisadi proseslərə də, təbii ki, öz təsirini göstərir. İndiyə qədər Azərbaycanda tətbiq olunan iqtisadi modellərdə, münaqişə dövrünün gerçəklikləri, şərtləri nəzərə alınırdı. Bu gün isə Azərbaycan iqtisadiyyatında yeni, modern bir keçid dövrü başlanır. Bu, yeni iqtisadi modelə keçiddir. Azərbaycanın iqtisadi siyasətinin banisi xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Uzun illər ərzində müstəqil dövlətimizə çox böyük sosial-iqtisadi nailiyyətlər qazandıran və tarixi qələbəmizin də təməlinə çevrilən bu siyasətin əsasını Ulu Öndər qoyub. Torpaqlarımızın işğaldan azad olunmasından, ölkəmizin suverenliyinin tam bərpasından sonra yaranmış yeni reallıqlar isə yeni iqtisadi modelin formalaşdırılmasını vacib edir. Bu modelin isə müəllifi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Modelin mühüm tərkib elementi kimi Azərbaycan yeni fəal iqtisadi diplomatiyaya keçir.

ABŞ-yə səfəri zamanı Azərbaycan Prezidentinin Nyu Yorkda bir sıra aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri, ölkəmizdə Beynəlxalq İnvestisiya Forumunun təşkili və digər bu kimi addımlar yeni iqtisadi modelin ilkin təzahürlərindəndir.

Azərbaycan işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq tədbirləri həyata keçirir. Əhalinin Qarabağa, Şərqi Zəngəzura Böyük qayıdış proqramı uğurla, strateji planda addım-addım icra olunur. Ermənistanın vaxtilə işğal altındakı Azərbaycan torpaqlarında basdırdığı minalar, bunun tez-tez səbəb olduğu insan itkiləri postmünaqişə dövrünün ən böyük humanitar problemlərindən biridir. Prezident İlham Əliyev BMT-dəki çıxışında bu problemi də diqqətə çatdırdı. Eyni zamanda Ermənistanın hərbi təcavüzü və torpaqlarımızın işğalı zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi hələ də qeyri-müəyyəndir ki, rəsmi İrəvanın bununla bağlı da suallara aydınlıq gətirməsinə ehtiyac var.

Azərbaycan Prezidentinin BMT Baş Assambleyasındakı çıxışı ölkəmizin çoxsaylı təşəbbüslərlə davamlı inkişaf məqsədlərinə, dayanıqlı həllərə sadiqliyi baxımından məlumatların bir daha beynəlxalq ictimaiyyətə təqdimatı nöqteyi-nəzərindən də maraqlı oldu. Xüsusilə ötən il ölkəmizin uğurla evsahibliyi etdiyi COP29-da Azərbaycanın səyləri nəticəsində bəşəriyyətin faydasına əldə olunmuş nəticələr böyük əhəmiyyət daşıyır.

"Yaşıl enerji"yə keçidlə bağlı dövlətimizin başçısının çıxışında verdiyi mesajlar isə kifayət qədər dəqiq və hər zamankı kimi strateji mahiyyətli oldu: "yaşıl keçid"ə sadiqliklə yanaşı, qeyri-real hədəflər də qoyulmamalıdır. Çünki vəziyyət bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşamağın mümkünsüzlüyünü göstərir. İndi Azərbaycan bu sahədə də nümunə yaradır. Günəş, külək və su-elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə ardıcıl sərmayələr qoyur, eyni zamanda bu gün böyük bir coğrafiyanın enerji təhlükəsizliyində ciddi rol oynayan ənənəvi enerji təcrübəsini də diqqətdən kənarda saxlamır.

Dövlətimizin rəhbəri Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı və əvəzolunmaz tərəfdaş kimi, ölkənin Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində oynadığı strateji rola da diqqət yönəltdi. Eyni zamanda Azərbaycan və Suriya arasında enerji təchizatı, infrastrukturun inkişafı, münaqişədən sonra yenidənqurma sahəsində ikitərəfli tərəfdaşlıq məsələlərini nəzərə çatdırdı. Prezident İlham Əliyev dedi: "Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir. Bundan əlavə, son vaxtlar Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Bu ilin avqust ayından Azərbaycan Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlayıb və bununla da ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaldıb".

### BMT-nin məsuliyyətli üzvü

Bu gün Azərbaycan dünyanın önəmli enerji-kommunikasiya mərkəzlərindəndir və bu rolu getdikcə artır. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri, Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmiryolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirir. "Rəqəmsal İpək yolu" kimi əhəmiyyətli layihə vasitəsilə Azərbaycan rəqəmsal transformasiya təşəbbüsünü uğurla həyata keçirir. Ölkəmiz qeyri-neft sektorunu inkişaf etdirir, davamlı islahatlar, şəffaflıq tədbirləri vasitəsilə investisiya mühitini yaxşılaşdırır. Təsadüfi deyil ki, son illərdəki iqtisadi artım nəticəsində ölkəmizdə yoxsulluğun, işsizliyin həddi tarixi minimuma - 5 faizə enib. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın reytinqini yüksəldir, ölkəmizə sərfəli investisiya dərəcəsi verilir.

Azərbaycanın qlobal səviyyədə göstərdiyi humanitar yardım səyləri, xüsusilə COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə etməsi ölkəmizin BMT-nin ən məsuliyyətli üzvlərindən biri kimi öz məsuliyyətinə yüksək sadiqlik nümayiş etdirdiyini göstərir.

Prezident İlham Əliyev çıxışında Xəzər dənizinin quruması probleminə də toxundu. Hazırda Xəzəryanı dövlətlər belə bir ekoloji fəlakətlə üz-üzədir, Azərbaycan bu problemi dəfələrlə qaldırıb. Vəziyyətin müsbətə doğru dəyişməsi üçünsə Xəzəryanı dövlətlərin birgə səyləri çox zəruridir. Ümid edək ki, məsələnin BMT Baş Assambleyası səviyyəsində aktuallaşdırılması bu istiqamətdə də səylərin gücləndirilməsinə dəstək olacaqdır.

Prezident İlham Əliyev çıxışının sonunda dedi: "Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır".

Azərbaycan Prezidentinin son iki ayda ABŞ-yə ikinci səfəri də diplomatiyamızın uğuru kimi tarixə yazıldı və ölkəmizin beynəlxalq mövqelərini daha da gücləndirdi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Qalib Liderin BMT kürsüsündən sülh və əməkdaşlıq mesajları

Azərbaycanın dövlət başçısı İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında etdiyi çıxış çox ciddi məsələlərə yüksək siyasi-diplomatik yanaşmanın nümunəsidir. Həmin çıxışda bir çox məqamlar ustalıqla ifadə edilmişdir ki, bunları da bir yazıda əhatə etmək mümkün deyil. Buna görə də biz yalnız bəzi özəllikləri Azərbaycanın xarici siyasət kursu kontekstində nəzəri təhlil etməyə çalışacağıq.

### Uğurlu siyasətin taktika və strategiyası

Prezident İlham Əliyevin nitqlərində həmişə yığcam fikir bildirmə üslubu ilə məharətli diplomatik ifadə tərzinin vəhdətini müşahidə edirik. Dövlət başçısının sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı müstəqil dövlətin siyasətində taktika ilə strategiyanın uğurlu sintezinə necə nail olunduğunun bariz nümunəsinə şahidlik etdik. Azərbaycan Lideri qısa bir zaman kəsiyində ölkə siyasətinin bütün özəlliklərini dolğun və dəqiq şəkildə ifadə etdi.

Həmin çıxışın başlanğıcı həm taktiki, həm də strateji baxımdan son dərəcə möhtəşəm idi. Prezident İlham Əliyev demişdir: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam". Bu bir neçə cümlədə böyük Liderin Azərbaycanın faciələrlə dolu tarixi dövrü əhatə edən siyasətinin taktiki və strateji məqamlarını geniş, əhatəli və məzmunlu şəkildə analiz etməsi öz əksini tapmışdır.

### Fikrin strateji özünəməxsusluğu

Prezidentin çıxışında taktiki və strateji məqamların vəhdəti dörd əsas faktorda ifadə edilmişdir: qələbəyə və sülhə aparan yol, Azərbaycan tarixində yeni dövrün başlaması, Vətən müharibəsi nəticəsində işğala son qoyulması və sülhün siyasi vasitələrlə təmin edilməsi.

Bu tezislər ayrı-ayrı mərhələlərə aid deyil, əksinə, 30 ildən artıq davam edən uzun bir yolun vahid siyasi və geosiyasi proses kimi həyata keçirildiyini ehtiva edir. Burada Azərbaycanın qələbəyə və sülhə aparan siyasi kursunun ölkəni yeni tarixi mərhələyə necə çıxardığı və bu yolda Vətən müharibəsinin oynadığı rol ifadə edilmişdir. Bu əsasda bütövlükdə Azərbaycanın xarici siyasətində sülhün siyasi vasitələrlə təmin edilməsinin strateji cəhəti, onun fəlsəfəsi və geosiyasi kodları əks olunmuşdur.

### Qələbəyə və sülhə aparan uzun yol

Birinci mühüm məqam: Azərbaycan ərazi bütövlüyünü təmin etməyi öncədən xeyrin şər üzərində qələbəsi sayəsində sülhə nail olmaq kimi nəzərdə tutmuşdur. Bu yol nə qədər "uzun" olsa da, Ulu Öndər Heydər Əliyev və onun siyasi varisi Prezident İlham Əliyev bu məsələdə heç bir güzəştə getmədilər. Burada taktiki gedişlər strateji məqsədə çatmağa xidmət etmişdir. Bu yolun siyasi praktikada əlaməti Vətən müharibəsi oldu. Çünki Azərbaycan Vətən müharibəsini məhz siyasi həqiqətlərin tarixi ədalət və beynəlxalq hüquq çərçivəsində dünya tərəfindən qəbul edilməsi naminə qətiyyətlə qələbəyə qədər apardı. Prezident bu barədə açıq fikir bildirmişdir. Həmin fikir Vətən müharibəsi ilə işğala son qoyulması kontekstində verilmişdir. Dövlət başçısı demişdir: "Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi".

Bir tərəfdən, zalım təcavüzkarın şər əməli, digər tərəfdən isə, müstəqil sülhsevər bir dövlətin BMT Nizamnaməsinin 51-ci maddəsinə istinad etməsi. Təcavüzkar dinc sakinləri qətlə yetirir, şəhərləri dağıdır, lakin Azərbaycan beynəlxalq hüquqdan, beynəlxalq təşkilatın nizamnaməsindən kənara çıxmır. Qələbənin anatomiyası budur!

İlham Əliyevin aşağıdakı fikirləri həmin tezisin tam təsdiqidir. Azərbaycan Lideri dünyanın ən ali kürsüsündən bəyan etmişdir: "Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi".

Beynəlxalq hüquq və tarixi ədalətin bərpası sayəsində Ermənistanın kaputilyasiyası baş verdi, Azərbaycan ağıl, məntiq və müdrikliyin gücü ilə şər qüvvələrə qalib gəldi! Bu mühüm nəticə İlham Əliyevin nitqində yığcam şəkildə aşağıdakı kimi ifadə edilmişdir: "2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü". Bəli, dövlət başçısı Vətən müharibəsini müstəqil Azərbaycan dövlətçiliyinin tarixinə əbədi yazıldığını bəyan etmişdir. Yəni, həmin Zəfər bizim cəmiyyətin, xalqın və dövlətin ortaq qürur mənbəyidir və həmişə belə də olacaq!

### Postmüharibə mərhələsində sülhün təmin olunması xətti

Prezident İlham Əliyev müasir Azərbaycan dövlətçiliyi və ümumilikdə dünya siyasi-diplomatik praktikası üçün əhəmiyyətli olan bir gerçəkliyi də dəqiq ifadə etmişdir. Bu, postmüharibə mərhələsində sülhün təmin olunması xəttidir. Bu məsələ müasir dünya diplomatiyası üçün böyük aktuallıq kəsb edir. Postmünaqişə və ya postmüharibə mərhələsində qalıcı sülhə dinc yolla nail olmaq hələ də nadir hallarda mümkün olur. Avrasiyada hələlik Azərbaycan bunun yeganə nümunəsidir.

Dövlət başçısı həmin həqiqəti belə ifadə etmişdir: "Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi".

Prezident İlham Əliyev bu addımın konkret əlamətini də göstərmişdir. Dövlət başçısı demişdir: "Biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi".

Deməli, Azərbaycan həm sülh təşəbbüskarı, həm də bu yolda törədilən bütün əngəlləri aşan müstəqil dövlətdir! Bu həqiqət Azərbaycanın dövlət identikliyinin yeni tarixi mərhələdə əsas qayəsini əks etdirir. Prezident İlham Əliyev onu aşağıdakı kimi ifadə etmişdir: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq".

Burada iki vacib aspekt sintezdə və vahid məntiqi müstəvidə təqdim olunmuşdur. Birincisi, Azərbaycan bütün anlamlarda hərb meydanında qalibdir. İkincisi, Azərbaycan eyni zamanda dünya üçün sülhü qazanmışdır.

Bunların dövlət və cəmiyyət üçün faydasını da Prezident qısaca vurğulamışdır: işğala son qoyulandan dərhal sonra bərpa işləri başlamış, suverenlik möhkəmlənmiş, sülh de-fakto təmin olunmuşdur. Azərbaycan həmçinin bu böyük təcrübəni paylaşmağa hazırdır.

### Ədalətlilik, sülhsevərlik, humanizm və hüquq fonunda Böyük qayıdış

Prezidentin çıxışında bu mühüm faktorların dərin sintezi yer almışdır. Xalqımızın Lideri xüsusi vurğulamışdır ki, "Azərbaycan qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyur... Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır. Gəlin birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

Ölkə rəhbəri İlham Əliyevin vurğuladığımız möhtəşəm siyasi ümumiləşdirmələri 8 avqust Vaşinqton razılaşması, Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələsi, Zəngəzur dəhlizi (TRIPP) və Böyük qayıdış proqramının reallaşması kimi proseslərin fonunda tam əsaslıdır. Xüsusilə Böyük qayıdış Prezidentin daxili və xarici siyasətində parlaq və əlamətdar hadisədir. Bu proses xarici siyasətdə böyük uğurların əldə edilməsinin real təməli kimi görünür.

Bu nöqteyi-nəzərdən İlham Əliyevin aşağıdakı fikirləri çox əhəmiyyətlidir: "Azərbaycan 2020-ci ildə Vətən müharibəsində qələbədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma proqramına start verdi. Ermənistan işğal dövründə yüzlərlə şəhər və kəndimizi yerlə yeksan etdi, 65 məscidi məqsədli şəkildə dağıtdı. Hərbi cinayətkarlar tərəfindən 30 ilə yaxın müddətdə idarə olunan Ermənistanın siyasəti bu idi. Biz isə yerlə yeksan edilmiş kənd və şəhərləri yenidən qururuq. Böyük qayıdış proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır".

Əsl sülhsevərlik, əməkdaşlığa istiqamətlənmə, regiona və dünyaya fayda vermək xətti budur! Azərbaycan daxili mühitin sülhə və əməkdaşlığa yönləndirilməsi ilə xarici aspektdə sülh və əməkdaşlığın təşviqini vəhdət halında reallaşdırır.

BMT-nin Baş Assambleyasının 80-ci sessiyasında Azərbaycanın dövlət kimi kimliyinin bundan gözəl, real, ədalətli və möhtəşəm təqdimatı ola bilməz!

*Kamal ADIGÖZƏLOV,*
*beynəlxalq münasibətlər üzrə ekspert*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycan-Çin əməkdaşlığı strateji maraqlar üzərində qurulub

Tarix boyu qüdrətli imperiyaların vətəni olan Çin həm də bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi bir sıra mühüm kəşflərlə, ixtiralarla yadda qalmışdır. Bu yeniliklər cəmiyyət həyatının bütün sahələrində dirçəlişə, tərəqqiyə mühüm zəmin yaratmışdır. Çin xalqının böyük oğlu Sun Yatsen vaxtilə qeyd etmişdi ki, "Qərbdə elə bilirlər ki, Çin Avropadan 300 il geridə qalıb. Ancaq onlar bilmirlər ki, mətbəx sahəsində Avropa Çindən 3000 il geridə qalıb".

Təsadüfi deyil ki, bu gün xalq təbabəti, səhiyyə, çeşidli qidalanma sahəsində çinlilərin əldə etdiyi nailiyyətlər insanları heyrətləndirməyə bilməz. Digər tərəfdən, tale bu zəhmətkeş xalqın üzünə gülmüş, onlara möhtəşəm Xuanxe və Yantszı çaylarının vadilərində yaşamaq nəsib olmuşdur. Müqayisə üçün deyək ki, Yantszı çayının sututumu Kür çayından 74 dəfə böyükdür. Bu çayların vadilərindən ildə iki, bəzən də üç dəfə məhsul götürmək mümkün olur.

Dünya ekspertlərinin gözləntilərini üstələyən proqnozlara görə, Çin iqtisadiyyatı 2025-ci ildə müsbət dinamika nümayiş etdirərək inamlı bir sürət götürmüşdür. Rəsmi məlumata görə, cari ilin ilk iki ayında bir sıra əsas göstəricilər nəzərəçarpacaq artım göstərmiş, məşğulluq nisbətən sabit qalmış, yeni keyfiyyətli məhsuldar qüvvələrin inkişafı dayanmadan davam etmişdir.

2025-ci ilin ilk altı ayı ərzində Çinin ümumi dövlət büdcəsinin xərcləri illik müqayisədə 3,4 faiz artaraq təxminən 1,98 trilyon dollara çatmışdır. Çinin ümumi daxili məhsulu 2025-ci ilin birinci yarısında 9,21 trilyon dollar olub. Ölkədə ümumi daxili məhsulun cari ildə təxminən 19,5 trilyon dollara çatacağı gözlənilir.

Hazırda Çinin qlobal iqtisadi artıma töhfəsi təxminən 30 faiz səviyyəsində qalır və 14-cü Beşillik planın (2021-2025) ilk dörd ilində Çində ümumi daxili məhsulun orta artım sürəti 5,5 faiz təşkil edib. Çin həmçinin ticarət sahəsində 140-dan çox ölkənin ən böyük tərəfdaşı olaraq qalır.

2025-ci ildə Çinin ən böyük ticarət tərəfdaşları ASEAN, Avropa İttifaqı (Aİ) və ABŞ olaraq qalır. Afrika ölkələri ilə əməkdaşlıq da artmaqdadır. Cari ilin birinci yarısından başlayaraq ASEAN Çinin güclü iqtisadi bərpası və şaxələndirilmiş ixrac strategiyaları sayəsində bu ölkə ilə ticarətdə Aİ və ABŞ-ni geridə qoyaraq lider mövqe tutacaqdır. ABŞ elektronika, maşınqayırma, mebel və tekstil daxil olmaqla, əsas ixracatla Çin mallarının ən böyük alıcısı olaraq qalır.

Güclü sənaye istehsalı və yüksək texnologiyalı sektorların inkişafı sayəsində Çin iqtisadiyyatının 2025-ci ildə 5 faizlik hədəfi keçərək güclü böyüməsi gözlənilir. İlin birinci yarısında artım 5,3 faiz, ikinci rübdə isə 5,2 faiz olub. "Yaşıl texnologiya"lara, elektrik nəqliyyat vasitələrinə, süni intellektə və biotəbabətə investisiyalar böyümənin əsas hərəkətverici qüvvəsi olub.

Müqayisə üçün qeyd edək ki, Amerika Birləşmiş Ştatları innovasiyalar və inkişaf etmiş istehlak bazarları ilə dəstəklənən 30,50 trilyon dollarlıq ümumi daxili məhsul ilə dünyanın ən böyük iqtisadiyyatı statusunu qoruyub saxlayır. Çin isə 19,23 trilyon dollarlıq ümumi daxili məhsulla ikinci ən böyük iqtisadiyyat olaraq qalır və qlobal istehsal mərkəzi kimi rolunu davam etdirir. Proqnozlara görə, Çin yaxın gələcəkdə nominal ümumi daxili məhsulda ABŞ-ni keçəcək və 2030-cu ilə qədər dünyanın ən böyük iqtisadiyyatına çevriləcək.

Cari ilin ikinci yarısında proqnozlaşdırılan yavaşlamaya baxmayaraq, Çin daxili tələbata və innovasiyalara diqqət yetirərək qlobal bazarda mövqeyini gücləndirməkdə davam edir. Hazırda kiçik və orta biznesə dəstək Çinin iqtisadi inkişafının əsas hərəkətverici qüvvəsinə çevrilib. Hökumət bu sektorları əhalinin rifahını yüksəltmək üçün ən vacib sahələr hesab edir. Bu məqsədlə təhsil sahəsinə olduqca ciddi fikir verilir. Bunun məntiqi nəticəsidir ki, təhsil səviyyəsinə görə ölkələrin reytinq cədvəlində Çin 2024-cü ildə 13-cü yerə yüksəlib.

Azərbaycan və Çin xalqları tarixin müxtəlif çağlarında birbirilə iqtisadi və mədəni tellərlə sıx bağlı olmuşlar. Hələ orta çağlarda Azərbaycan şahlarının saraylarını Çin imperatorlarının göndərdiyi hədiyyələr - çini qablar, ipək şallar, pərdələr, xalatlar bəzəmişdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra iki ölkə arasında münasibətlər bərabərhüquqlu prinsiplər əsasında qurularaq keyfiyyətcə yüksək mərhələyə keçdi. Azərbaycanla Çin arasında 1992-ci ilin aprelində diplomatik münasibətlərin qurulmasından keçən dövr ərzində ikitərəfli əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Nəticədə 2025-ci il aprelin 23-də tərəflər Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında Hərtərəfli Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyanat imzalamışlar.

Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı surətdə dəstəkləmiş, həmişə ölkəmizin yanında olduğunu bəyan etmişdir. Azərbaycan isə "Vahid Çin" siyasətini hər zaman dəstəkləmişdir.

Tərəflər yüksəksəviyyəli görüşlər zamanı investisiya əməkdaşlığı üzrə işçi qrupunun yaradılması, azad ticarət sazişi üzrə danışıqlara başlanılması, beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin imzalanmasının sürətləndirilməsi, mədəniyyət günlərinin və turizmin təşviqi tədbirlərinin birgə təşkili və sair kimi sahələrdə bir sıra konkret razılıq əldə ediblər. Bu amil əməkdaşlığın dərinləşdirilməsinə və şaxələndirilməsinə daha geniş imkanlar açır.

ÇXR-in Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin 2024-cü il mayın 14-də Azərbaycana səfəri siyasi münasibətlərin intensivliyini artırmış, parlamentlərarası əlaqələrə təkan vermişdi.

Azərbaycan ilə Çin hökumətləri arasında imzalanmış "Çin-Avropa Dəmir Yolu Ekspresi üçün Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu", habelə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında Kəmər və Yol Təşəbbüsü üzrə Əməkdaşlıq Planının formalaşdırılmasının birgə sürətləndirilməsinə dair Anlaşma Memorandumu" iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafının sübutudur.

Çin Azərbaycanın ilk idxal mənbəyidir və Azərbaycanın beş əsas ticarət tərəfdaşından biridir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Azərbaycanda Çin kapitalı ilə yaradılmış təxminən 375 şirkət qeydiyyatdan keçmişdir ki, onlardan 298-i aktiv fəaliyyət göstərir.

Bu ilin aprel ayında Bakıda keçirilmiş hökumətlərarası komissiyanın 10-cu iclasında Azərbaycanla Çin arasında əməkdaşlıq imkanları müzakirə olunmuşdur və müvafiq razılaşmalar əldə edilmişdir. İki ölkə arasında iqtisadi əlaqələrin inkişafı, o cümlədən investisiya əməkdaşlığı istiqamətində daha bir neçə sənəd 2025-ci il aprel ayının 17-də Pekində imzalanmışdır.

150-dən çox ölkəni birləşdirən "Bir kəmər, bir yol" təşəbbüsü təmiz texnologiyalar və rəqəmsal inteqrasiyanı inkişaf etdirmək məqsədi daşıyır. Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub və Çinlə nəqliyyat-logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Azərbaycan bu layihəni dəstəkləyərək ona ən çox investisiya yatıran 2-ci investordur. Azərbaycan Çin iqtisadiyyatına 2,1 milyard dollardan çox, Çin isə Azərbaycan iqtisadiyyatına 1 milyard dollardan çox investisiya yatırmışdır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi - Orta dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. 2024-cü il ərzində bu dəhliz vasitəsilə daşınan Çin yüklərinin həcmi 378 min tonu keçmişdir.

Azərbaycan Orta dəhlizin önəmini və cəlbediciliyini artırmaq məqsədilə ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini həyata keçirib. Habelə Şərqi Zəngəzur iqtisadi rayonu vasitəsilə Naxçıvana birləşəcək Zəngəzur dəhlizi (TRIPP) layihəsi Orta dəhlizin imkanlarını daha da artıracaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən bu yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması isə ümumilikdə cəmi 18 günə baş verir.

Azərbaycan bu ölkə ilə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, nəqliyyat-logistika, tikinti və digər sahələrdə əməkdaşlıq edir. Ölkədə elektrik mühərrikli avtobusların istehsalı sahəsində Çinin BYD şirkəti ilə əməkdaşlığa başlanılıb. 2024-cü ilin noyabr ayında Azərbaycanda keçirilmiş COP29 tədbiri çərçivəsində BYD şirkətinin 160 ədəd elektrik mühərrikli avtobusu və 100 ədəd elektrik enerji doldurucusu xüsusi sifarişlə ölkəmizə gətirilmişdir. Avtobusların yerli istehsalına isə 2025-ci ildə başlanılması planlaşdırılır. Azərbaycan "yaşıl enerji"yə keçidi prioritet hədəflərindən biri elan edib və bu mənada Çinin təcrübəsi faydalı ola bilər.

Strateji tərəfdaşlığımız eyni zamanda iqtisadiyyat, ticarət, nəqliyyat, investisiyalar və bir çox digər sahələrdə əməkdaşlığımızı həm kəmiyyət, həm keyfiyyətcə yeni səviyyəyə yüksəldib.

Çin şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərinin gedişində iştiraka xüsusi maraq göstərirlər. Onlar "ağıllı kənd" kimi layihələrin həyata keçirilməsində və hava limanları üçün avadanlıqların təchizatında iştirak ediblər. Proses indi də davam edir. Çinin bir çox şirkəti Qarabağın və Şərqi Zəngəzurun bərpasına öz töhfələrini verir.

Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılıb. Çində Azərbaycanın 7 Ticarət və Şərab evləri fəaliyyət göstərir. Azərbaycan Çinə neft və neft məhsulları, kimya və plastik sənaye məhsulları, spirtli və spirtsiz içkilər ixrac edir. 2024-cü ildə iki ölkə arasında xarici ticarət dövriyyəsi 20,7 faiz artaraq 3,7 milyard dollar təşkil edib.

2025-ci ilin ilk səkkiz ayında Azərbaycanın Çinə ixracı 4,5 dəfə artaraq 60 milyon 120 min 360 dollara çatıb. Bununla yanaşı, Çindən idxalın həcmi 26,5 faiz artaraq 2 milyard 880 milyon 439,26 min dollar olub.

Mədəni əlaqələr güclənib. Tez-tez sərgilər keçirilir. 2024-cü ilin noyabrında Çinin iri maliyyə-biznes mərkəzi olan Şanxay şəhərində 7-ci Çin Beynəlxalq İdxal Sərgisi təşkil edilib. Stenddə həmçinin "Made in Azerbaijan" brendi ilə istehsal olunan məhsullar, o cümlədən şərab brendləri, digər alkoqollu və alkoqolsuz içkilər, qənnadı məmulatları, nar şirəsi, konservlər nümayiş etdirilib.

Azərbaycan Pekində keçirilmiş 3-cü Çin Beynəlxalq Təchizat Zənciri Sərgisində və 4-cü Şanxay Əməkdaşlıq Təşkilatı Beynəlxalq İnvestisiya və Ticarət Sərgisində iştirak edib. Sərgi çərçivəsində yüksək texnologiyalar, kənd təsərrüfatı, tikinti materialları, avadanlıq istehsalı, elektrik avtomobilləri və s. istiqamətlər üzrə fəaliyyət göstərən 50-dən çox şirkətlə danışıqlar aparılıb və onlara ölkəmizin biznes mühiti haqqında geniş məlumat verilib.

Son illər AMEA rəhbərliyi Çinin müxtəlif elm və təhsil ocaqları ilə əlaqələri yeni səviyyəyə yüksəldib. Bu proses 2024-cü ildə daha da intensivləşmişdir. AMEA prezidentinin rəhbərliyi ilə nümayəndə heyəti Çinə səfər etmiş və səfər zamanı mühüm sənədlər imzalanmışdır.

Bakı Dövlət Universitetinin Konfutsi İnstitutunda məktəblilər və tələbələr arasında Çin dilinə maraq göstərənlər əvvəlki illərdən çoxdur. İnstitut açılandan bəri burada 6000 tələbə təhsil almış, 400-dən artıq tədbirdə çox sayda insan iştirak etmişdir. Hər il 30-a yaxın gənc Çinə təqaüdlə təhsil almağa göndərilir. Eyni zamanda hər il 45-ə yaxın uşaq Çində yay məktəbində iştirak edir. Həmçinin BDU ilə Anxoy universiteti arasında ikili diplom haqqında sazişə uyğun olaraq bu il Şərqşünaslıq fakültəsinin 4 tələbəsi imtahan verib müsabiqən keçərək təhsillərini davam etdirmək üçün Çinə yollanmışlar.

Möhkəm əminliklə demək olar ki, Çinlə Azərbaycan arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Bu münasibətlər dəfələrlə zamanın sınağından üzüağ çıxmışdır. İki min ildən bəri Şərqlə Qərbi birləşdirən tarixi İpək yolu son illər ərzində canlanmağa başlayıb. Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan bu yolun üzərində körpü rolunu oynayır. Qarşılıqlı ticarət-iqtisadi, mədəni əlaqələrin intensivləşməsi, tranzit yüklərin daşınmasının çoxalması Şərqlə Qərbin inteqrasiya prosesinə öz sanballı töhfəsini verəcəkdir.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

## Ölkəmizin qlobal güc mərkəzləri ilə əlaqələri uğurla inkişaf edir

**Beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycan qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrini uğurla inkişaf etdirir. Bu baxımdan Çin Xalq Respublikası ilə Azərbaycanın yüksələn xətlə inkişaf edən əlaqələri mühüm əhəmiyyət kəsb edir. Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan-Çin strateji tərəfdaşlığı artıq qlobal əməkdaşlığa çevrilib.**

Prezident İlham Əliyevin aprelin 23-də Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması münasibətlərimizi yeni səviyyəyə yüksəldib. Dövlətimizin başçısının Çin Xalq Respublikasının Sədri Si Cinpinə sentyabrın 29-da ünvanlandığı təbrik məktubunda da vurğulanıb ki, Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Son dövrdə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. İki ölkənin nümayəndələri arasında fəal dialoq, səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlər, təmasların intensivliyi Azərbaycan-Çin əlaqələrinin yüksək səviyyəsindən və dinamik inkişafından xəbər verir. "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" və imzalanan



digər sənədlər ikitərəfli əlaqələri daha da yüksək pilləyə qaldırmış, dövlətlərarası münasibətlərimizin strateji mahiyyətini gücləndirmişdir", - deyə deputat xatırladıb.

O vurğulayıb ki, Çin dünyanın ən güclü dövlətlərindən biri kimi həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırır. Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin genişlənməsi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətlərində də öz əksini tapıb. Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsindəki birgə əməkdaşlıq, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı ilə həyata keçirilən birgə layihələr və Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulması bu əlaqələri daha da gücləndirib. Eyni zamanda Şərq-Qərb və Orta dəhliz layihələri çərçivəsindəki tərəfdaşlıqları nəqliyyat və ticarət əlaqələrinin inkişafına böyük töhfə verir. Pekində Azərbaycanın Ticarət Evinin açılması da bu əməkdaşlığın uğurlarını təzahür etdirir.

V. Rəhimzadə qeyd edib ki, bu gün Azərbaycan ilə Çin arasında qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanan münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişafı məmnunluq doğurur: Ölkələrimiz arasında "siyasi, iqtisadi-ticari, sənaye, enerji, nəqliyyat-kommunikasiya, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlıq gündən-günə genişlənir. Vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsi turizmin inkişafına, humanitar və mədəni əlaqələrin dərinləşməsinə mühüm təkan verəcək. Azərbaycan-Çin münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi mühüm siyasi hadisə olmaqla yanaşı, hər iki tərəfin maraqlarına cavab verir".

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

## Müstəqil siyasətin yaratdığı reallıq

### Prezidentin BMT-dəki çıxışı Azərbaycanın qlobal prosesləri müəyyənləşdirən dövlətə çevrildiyini göstərir

**Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı həm tarixi retrospektiv, həm də gələcəyə baxış bucağının mükəmməlliyi baxımından mühüm əhəmiyyət kəsb edir.**



Dövlətimizin başçısının cıxışı təkcə Azərbaycanın regional siyasətini deyil, həm də beynəlxalq hüquq, qlobal enerji təhlükəsizliyi, iqlim dəyişmələri və beynəlxalq əməkdaşlıq məsələlərində ortaya qoyduğu prinsipial mövqeyinin inikasıdır. Prezidentin nitqi Azərbaycanın son 30 ildə keçdiyi mürəkkəb yolun yekunu kimi təqdim olunur və dövlətimizin beynəlxalq münasibətlər sistemində strateji xəttini açıq şəkildə ortaya qoyur.

Milli Məclisin deputatı Elçin Mirzəbəyli qəzetimizə açıqlamasında bildirib ki, Prezidentin nitqinin mərkəzində Azərbaycan ərazilərinin 30 ilə yaxın işğal dövrü, ölkəmizin ədalətsizliyə məruz qalması, nəhayət, 2020-ci ildə Vətən müharibəsi ilə beynəlxalq hüququn bərpa olunması dayanıb. Prezident İlham Əliyev diqqəti bir daha BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrinə yönəltməklə göstərdi ki, Azərbaycanın qələbəsi həm də selektiv yanaşmalara, ikili standartlara rəğmən beynəlxalq hüququn üstünlüyünün təsdiqi oldu. "Ən mühüm məqam isə müharibədən dərhal sonra sülh gündəliyinin elan olunmasıdır. Bu, Azərbaycanın qalib tərəf olaraq dayanıqlı barışıq və qarşılıqlı tanınma əsasında yeni regional düzən qurmaq istədiyini nümayiş etdirir. Çıxışın mühüm hissəsinin Azərbaycan-ABŞ münasibətlərinə həsr edilməsi və Vaşinqton Sammitində əldə olunan razılaşmalara diqqət çəkilməsi tamamilə təbii qəbul olunmalıdır",- deyə o əlavə edib.

Deputat bildirib ki, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması ilə bağlı razılaşma, Zəngəzur dəhlizi (TRIPP), "907-ci düzəliş"in icrasının dayandırılması və enerji, təhlükəsizlik, iqtisadiyyat sahələrində əməkdaşlığın genişlənməsi istiqamətində əldə olunan nəticələr Azərbaycanın xarici siyasətində yeni mərhələ kimi qiymətləndirilə bilər. Bu, həm də Azərbaycanın çoxvektorlu siyasətinin uğuru kimi diqqət çəkir: Bakı eyni anda həm Avropa, həm ABŞ, həm də Asiya istiqamətlərində paralel şəkildə strateji kurs izləyir və bu kursu balanslaşdırılmış şəkildə məharətlə idarə etməyi bacarır.

E.Mirzəbəyli deyib ki, Prezident İlham Əliyevin çıxışında Böyük qayıdış proqramının Azərbaycanın uğurlu postmünaqişə siyasətinin nümunəsi kimi təqdim edilməsi də, mühüm strateji önəm daşıyır: "Azad edilmiş ərazilərdə yenidənqurma, şəhərlərin, kəndlərin, tarixi, mədəni, dini abidələrin bərpası Azərbaycanın təkcə iqtisadi deyil, həm də mənəvi qələbəsini təsdiqləyir. Prezident İlham Əliyevin BMT Baş Assambleyasındakı çıxışı Azərbaycanın yeni beynəlxalq münasibətlər sistemindəki yerini və rolunu aydın şəkildə əks etdirir: Azərbaycan qalib dövlət olaraq tarixi və hüquqi ədaləti bərpa edən, regional barışa, enerji və nəqliyyat sahəsində qlobal təhlükəsizliyə töhfə verən, iqlim diplomatiyasında lider rolunu üzərinə götürən, iqtisadi sabitliyi və humanitar diplomatiyası ilə beynəlxalq etimad qazanan bir ölkədir!"

Deputat vurğulayıb ki, Prezidentin nitqində diqqətçəkən və ekosistem üçün həyati əhəmiyyət kəsb edən məqam Xəzərin problemləri ilə bağlıdır. Prezidentin Xəzərin sürətlə azalması ilə bağlı xəbərdarlığı regional hüdudlardan kənara çıxır və qlobal əhəmiyyət daşıyır. Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi olmaqla yanaşı, yüz illərdir ki, region xalqlarının həyat mənbəyidir. Lakin son onilliklərdə müşahidə edilən proseslər, o cümlədən iqlim dəyişikliyi, çay axınlarının azalması, sənaye çirklənməsi və idarəetmə mexanizmlərindəki boşluqlar Xəzərin mövcud vəziyyətini daha da ağırlaşdırıb. Prezidentin "bu gün vəziyyət daha acınacaqlıdır" fikri real mənzərəni əks etdirir və beynəlxalq ictimaiyyət üçün ciddi siqnaldır.

E.Mirzəbəyli bildirib ki, Xəzərin gələcək taleyi yalnız region ölkələrinin deyil, beynəlxalq ictimaiyyətin də diqqətində olmalıdır: "Ekosistemin qorunması, balıqçılıq və nəqliyyat infrastrukturunun təhlükəsizliyi, eləcə də sahilyanı əhalinin sosial rifahı məsələsi bütün dünya üçün vacibdir. Azərbaycan bu məsələdə nümunəvi mövqe sərgiləyir. Bərpaolunan enerji layihələri, tullantıların idarə olunması, "yaşıl zona"ların yaradılması ölkəmizin ekoloji məsuliyyətini göstərir".

Deputat vurğulayıb ki, bütövlükdə, Prezidentin nitqi Azərbaycanın dünya siyasətində yalnız iştirakçı deyil, həm də qlobal proseslərin istiqamətini müəyyənləşdirən dövlətə çevrildiyini nümayiş etdirir. Prezident İlham Əliyevin çağırışı sübut edir ki, yeni dünya düzəninin ədalət, bərabərlik və beynəlxalq hüquqa hörmət üzərində qurulması mümkündür və Azərbaycan bu prosesdə aparıcı rol oynamağa hazırdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan uğurlu modellərdən faydalanaraq "yaşıl enerji zonası" strategiyasını inkişaf etdirir

Dünyamız bu gün bəşəriyyət tarixinin ən ciddi dönüş nöqtəsini yaşayır. Qlobal iqlim dəyişiklikləri artıq sadəcə nəzəri müzakirə mövzusu deyil, hər gün onların fəsadlarını hiss edirik. Orta qlobal temperaturun yüksəlməsi buzlaqların əriməsinə, dəniz səviyyəsinin qalxmasına, quraqlıqlara, daşqınlara və genişmiqyaslı meşə yanğınlarına səbəb olur. Əgər indi daha rasional və koordinasiyalı addımlar atılmasa, bu əsrin sonuna qədər istiləşmə 3°C-dən yuxarı qalxa bilər ki, bu da bəşəriyyət üçün ciddi təhlükədir.

Davam edən münaqişələr və hərbi əməliyyatlar təkcə insan həyatına deyil, həm də planetimizin iqliminə ciddi ziyan vurur. Müharibələr atmosferə milyonlarla ton karbon, toz və zərərli qazlar buraxır, ekosistemləri məhv edir.



Bu baxımdan Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə irəli sürülən sülh gündəliyi beynəlxalq səviyyədə diqqət çəkir. Bu ilin avqust ayında Vaşinqtonda keçirilmiş üçtərəfli görüşdə regionda sülh və əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi istiqamətində mühüm razılaşmalar əldə olunub. Bu razılaşmalar həm sabitlik, həm də qlobal ekoloji təhlükəsizlik üçün vacibdir. Sülh olmadan iqlim böhranının həlli mümkün deyil.

Davamlı inkişafın əsas amili enerji istehsalıdır. Elektrik enerjisinə olan qlobal tələbat artmaqdadır. Sənaye, nəqliyyat, rabitə və süni intellekt sistemləri enerji şəbəkəsinə hər zamankından daha böyük yük gətirir. Bu tələbatı qarşılamaq üçün bərpaolunan enerji mənbələri - günəş, külək, su və bioenerji qlobal sistemlərin əsas hissəsinə çevrilməkdədir.

Azərbaycanda bərpaolunan enerji potensialı 27 qiqavatdır. Bunlar 23 qiqavat günəş, 3 qiqavat külək, 0,5 qiqavat bioenerji və 0,6 qiqavat su-elektrik stansiyalarıdır. Ümumi enerji balansında bu pay hazırda 7-8 faizdir. Qarabağ və Şərqi Zəngəzurda yaradılan "yaşıl enerji zonası" ilə 2030-cu ilədək bu rəqəmin 30 faizə çatdırılması planlaşdırılır. Bu, hər il yüz minlərlə ton karbon emissiyasının azalmasına şərait yaradacaq.

OPEC-in 2025-ci il dünya neft proqnozuna görə, 2050-ci ildə qlobal elektrik istehsalı 85 faiz artacaq və əsas artım günəş və külək enerjisinin payına düşəcək. Lakin bu keçid yalnız texnoloji deyil, həm də siyasi iradə və beynəlxalq əməkdaşlıq tələb edir. Azərbaycan bu istiqamətdə etibarlı tərəfdaş və lider kimi tanınır.

Xüsusilə COP29-da qəbul edilən Yeni Kollektiv Kəmiyyət Hədəfi həmçinin Bakı Maliyyə Hədəfi iqlim maliyyəsində tarixi mərhələdir. Bu çərçivə 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin illik iqlim maliyyəsini ən azı 300 milyard ABŞ dollarına çatdırmağı nəzərdə tutur.

Azərbaycan, həmçinin Paris Sazişinin 6-cı maddəsi üzrə karbon bazarları üçün çərçivəni tamamlayaraq, bu mexanizmin tam fəaliyyətə başlamasına nail olub. COP29-da həmçinin İtki və Zərərlərə Cavab Fondunun tam fəaliyyəti üçün əsas sazişlər imzalanıb, həssas icmalara real dəstək təmin edilib.

Bununla yanaşı, "yaşıl keçid"ə sadiqliyimizi qorumaqla yanaşı, reallıqları da nəzərə almalıyıq. Cənab Prezident İlham Əliyevin BMT tribunasından dediyi kimi, "Dünya hələ uzun müddət mədən yanacaqlarından tam imtina edə bilməz".

Enerji təhlükəsizliyi sülh, regional əlaqələr və iqtisadi inkişafla birbaşa bağlıdır. Bu baxımdan keçid ədalətli və mərhələli olmalıdır. Azərbaycan bu balanslı yanaşmanı rəhbər tutaraq, həm bərpaolunan enerji layihələrini genişləndirir, həm də enerji təhlükəsizliyinə töhfəsini davam etdirir. Azərbaycan şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara inteqrasiyasında strateji rol oynayır və bir çox ölkənin etibarlı tərəfdaşı kimi tanınır.

Azərbaycan parlamentinin bu istiqamətdə rolu xüsusi qeyd olunmalıdır. Parlament iqlim siyasətinin hüquqi əsaslarını möhkəmləndirmək üçün bir sıra mühüm yeni qanunlar qəbul edib. Bunlar "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanunu, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununu, Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanunu, "Energetika haqqında" Azərbaycan Respublikası Qanunu, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikası Qanunudur. O cümlədən BMT İqlim Dəyişikliyi Çərçivə Konvensiyası, Kyoto Protokolu və Paris Sazişi üzrə öhdəliklər beynəlxalq inteqrasiyanı təmin edir.

Parlament yalnız qanunlar qəbul etmir, həm də büdcə müzakirələrində iqlim maliyyəsi və "yaşıl layihə"lərə önəm verir, hökumət proqramlarının icrasında ictimai dialoqu təmin edir.

Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın enerji siyasəti həm milli maraqlara, həm də qlobal çağırışlara xidmət edir. Biz həm ənənəvi, həm də bərpaolunan enerjini inkişaf etdirərək enerji təhlükəsizliyinə töhfə veririk.

Dünya iqlim böhranı ilə üz-üzədir. Problemin həlli yalnız birgə fəaliyyətlə mümkündür. Qlobal təcrübələr göstərir ki, "yaşıl enerji"yə keçid iqtisadi və ekoloji cəhətdən faydalıdır. Almaniyada bərpaolunan enerjinin payı 58 faizi keçmişdir, Skandinaviya ölkələrində bu göstərici 90 faizə yaxındır. Çin və ABŞ kimi dövlətlər də bu istiqamətdə lider mövqedədirlər. Azərbaycan da bu uğurlu modellərdən faydalanaraq "yaşıl enerji zonası" strategiyasını inkişaf etdirir.

Bu gün dünyanın 92 faizi "xalis sıfır" hədəfini qəbul etmişdir. Lakin məqsədlərə çatmaq üçün konkret siyasətlər və qanunlar tələb olunur. Paris Sazişinin 1,5°C hədəfinə nail olmaq üçün parlamentlərin rolu əvəzsizdir - qanunvericilik, büdcə nəzarəti və ictimai razılıq vasitəsilə bu missiyanı yerinə yetirirlər.

Birgə çalışaraq gələcək nəsillərə daha təmiz, daha təhlükəsiz və daha "yaşıl dünya" miras qoya, planetimizin qorunmasına böyük töhfələr verə bilərik.

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# "COP29 həm də davamlı qlobal enerji modeli kimi təşkil edilib"

"Azərbaycan COP29-a evsahibliyi edərkən tədbiri yalnız danışıqlar platforması deyil, həm də davamlı qlobal enerji modeli kimi təşkil etməyi qarşıya məqsəd qoyub".

AZƏRTAC xəbər verir ki, bunu COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova Bakı İqlim Fəaliyyəti Həftəsinin (BCAW 2025) ikinci günü etdiyi çıxış zamanı bildirib. O, həmçinin "COP29 Davamlılıq Hesabatı"nın əhəmiyyətini vurğulayıb. Hesabatda göstərilib ki, COP29 tamamilə bərpaolunan enerji ilə təmin edilib, 3 min tondan artıq emissiya azaldılıb və bütün tullantıların 68 faizi təkrar emala yönəldilib. Tədbir çərçivəsində ilk dəfə işarə dili tərcüməsi, əlçatan infrastruktur və inklüziv xidmətlər təqdim olunub. Nərmin Carçalova vurğulayıb ki, COP29 tarixdə ilk dəfə ISO Davamlı Torpaq İdarəçiliyi sertifikatı alıb və bu, Azərbaycanın davamlılıq sahəsində beynəlxalq nüfuzunu daha da möhkəmləndirib. O, həmçinin tədbirin təşkilinə dəstək göstərən minlərlə könüllünün və tərəfdaş qurumların rolunu xüsusi qeyd edib.

# COP29-un "yaşıl iqlim" konfransları üçün yeni qlobal meyar müəyyənləşdirən Dayanıqlılıq Hesabatı dərc olunub

AZƏRTAC xəbər verir ki, hesabat COP29-un indiyə kimi təşkil edilmiş ən dayanıqlı qlobal iqlim konfranslarından birinə çevrilməsi üçün görülən ciddi tədbirləri ön plana çıxarır. Azərbaycanın COP29 sədrliyi dövründə dayanıqlılıq prinsipləri planlaşdırılmadan tutmuş icra və irsin davam etdirilməsinə qədər bütün mərhələlərə inteqrasiya olunub və gələcək ev sahibləri üçün yeni standartlar müəyyən edilib.




Bu təşəbbüsün ana xəttini COP29-un yeddi dayanıqlılıq öhdəliyi təşkil edir:

1. Xalis sıfıra nail olmaq - Tədbir 100% bərpaolunan enerji ilə təmin edilib və qaçılmaz emissiyalar kompensasiya olunub. Bununla da, COP29 tədbiri Azərbaycanda xalis sıfıra nail olan ilk iqlim konfransına çevrilib.

2. Dayanıqlı mobillik - 160 elektrikli nəqliyyat vasitəsi sayəsində aşağı emissiyalı nəqliyyat sistemi tətbiq olunub və 70000-dən çox nümayəndə üçün rahat və ekoloji cəhətdən təmiz mobillik imkanı yaradılıb.

3. Dövri tullantıların idarə edilməsi - "Sıfırpoliqon" siyasəti həyata keçirilib və tullantıların çeşidlənməsi, təkrar emalı, eləcə də genişmiqyaslı kompostlaşdırılması tətbiq olunub.

4. "Yaşıl" satınalmalar - Bütün strateji təchizatçılar üçün ekosertifikat tələbi qoyulub və qida məhsullarının 95%-i yerli mənbələrdən təmin edilib. Bunun sayəsində isə daşınma ilə bağlı emissiyaların həcmi azaldılıb.

5. İnklüziv və əlçatan COP - Surdotərcümə xidmətləri və maneəsiz infrastruktur da daxil olmaqla, kompleks funksional əlçatanlıq imkanları təmin edilib.

6. "Yerli" potensialın artırılması - 3000-dən çox könüllü, işçi və dövlət nümayəndəsi dayanıqlılıq üzrə təlim keçib və uzunmüddətli bacarıq irsi yaradılıb.

7. Şəffaflıq və irs - COP29 Dayanıqlılıq Hesabatı dərc olunub, bütün nailiyyətlər sənədləşdirilib və gələcək sədr ölkələr üçün nümunəvi yol xəritəsi hazırlanıb.

Həmçinin COP29 tədbirlərin dayanıqlı idarə edilməsi üzrə ISO 20121:2024 sertifikatını əldə edib və hətta bu miqyasda bir tədbirin ən yaxşı beynəlxalq təcrübələrə tam uyğun şəkildə təşkil oluna biləcəyini sübuta yetirib.

"COP29 ilə bağlı məramımız aydın idi: dayanıqlılığı şüardan fəaliyyətə çevirmək," - deyə COP29 Azərbaycan Əməliyyat Şirkətinin baş icraçı direktoru Nərmin Carçalova bildirib. "Biz tədbir məkanlarının bərpa-olunan enerji ilə işləməsindən tutmuş tullantıların poliqona yönləndirilməsinin qarşısının alınmasına və gələcək ev sahibləri üçün nümunəvi yol xəritəsinin yaradılmasına qədər bütün əməliyyatlar çərçivəsində sübut etdik ki, qlobal iqlim konfransları bəyan edilən vədləri həyata keçirmək iqtidarındadır. Bu irs təkcə Azərbaycana deyil, bütün beynəlxalq iqlim ictimaiyyətinə məxsusdur", - deyə o əlavə edib.

İnnovasiya, inklüzivlik və operativ mükəmməlliyi inteqrasiya etməklə, COP29 qlobal tədbiri dayanıqlı bir şəkildə idarə etməyə müvəffəq olub və bütün dünyada daha güclü iqlim fəaliyyətinə stimul verib.

Sənədləşdirilmiş nailiyyətləri və əldə olunan təcrübənin icmalını ehtiva edən COP29 Dayanıqlılıq Hesabatı rəsmi COP29 veb-saytında dərc olunub.

# "Yaşıl iqtisadiyyat" üçün zəruri bacarıqlara malik işçi qüvvəsinin yaradılması sahəsində mühüm addımlar atılır

## Nazir Anar ƏLİYEV: "Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar, rəqəmsal transformasiya və sosial müdafiə mexanizmlərinin gücləndirilməsi "yaşıl keçid" üçün mühüm baza yaradıb"

"Yaşıl keçid" yalnız enerji və sənaye sahələrində texnoloji yeniliklərlə məhdudlaşmır, eyni zamanda əhalinin məşğulluğuna birbaşa təsir göstərir.




Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev "Bakı İqlim Fəaliyyəti Həftəsi 2025" çərçivəsində "Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, təmiz və dayanıqlı enerjinin sürətləndirilməsi, eləcə də ədalətli keçid" mövzusunda keçirilən tədbirdəki çıxışında bildirib.

Nazir "yaşıl iqtisadiyyat"ın yeni iş yerlərinin yaradılmasını, işçi qüvvəsinin yenidən ixtisaslaşması və əmək bazarında rəqabət qabiliyyətinin artırılmasını tələb etdiyini diqqətə çatdırıb. Bu prosesin uğurla həyata keçirilməsində sosial müdafiə və peşə hazırlığı mexanizmlərinin gücləndirilməsinin önəmini vurğulayıb.

O, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısının nəticəsi olaraq 2018-2025-ci illərdə reallaşdırılan 5 böyük sosial islahat paketinin uğurlarını, sosial ödənişlərdəki ciddi artımları diqqətə çatdırıb. Son illər əmək və sosial müdafiə sahəsində rəqəmsal transformasiyanın uğurla həyata keçirildiyini vurğulayan Anar Əliyev məşğulluq tədbirlərinin genişləndirilməsi istiqamətində aparılan işləri qeyd edib.

Bildirib ki, Azərbaycanda "yaşıl iqtisadiyyat" üçün zəruri olan yeni bilik və bacarıqlara malik işçi qüvvəsinin formalaşdırılması istiqamətində də mühüm addımlar atılır. Bu məqsədlə peşə hazırlığı mərkəzlərində işsiz və işaxtaran şəxslərə alternativ enerji qurğularının istismarı, bərpaolunan enerji avadanlıqlarının yığılması, eləcə də külək turbinlərinin quraşdırılması kimi "yaşıl bacarıq"lar üzrə müasir təlim proqramları təqdim olunur. Həmçinin "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində "Yaşıl peşə"lər üzrə bir çox peşə və kvalifikasiya standartının hazırlanması, eləcə də həmin bacarıqlar üzrə peşə hazırlığının təşkili (robotlar və robototexniki sistemlər, süni intellekt, dron texnologiyaları və sair sahələr üzrə mütəxəssislərin hazırlanması) istiqamətində tədbirlər həyata keçiriləcək.

Nazir ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar, rəqəmsal transformasiya və sosial müdafiə mexanizmlərinin gücləndirilməsinin "yaşıl keçid" üçün mühüm baza yaratdığını vurğulayıb.

"Bakı İqlim Fəaliyyəti Həftəsi 2025" çərçivəsində "Ədalətli keçid: heç kim kənarda qalmasın" mövzusunda sessiya da keçirilib. Sessiyanın açılışında çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev "yaşıl keçid"in əmək bazarına təsirlərini və "yaşıl iqtisadiyyat"a ədalətli keçid prosesi üçün vacib prinsipləri diqqətə çatdırıb.

Bu prosesdə işçilərin əmək hüquqlarının müdafiəsi, "yaşıl bacarıq"lara malik olmaları, əmək bazarının inklüzivliyinin təmin edilməsi, həssas qrupların dəstəklənməsi üçün aparılan işlər, prioritet istiqamətlər qeyd edilib və ədalətli keçid üçün birgə fəaliyyətin əhəmiyyəti vurğulanıb.

# Azərbaycan inklüziv iqlim dialoqlarının aparıcı təşkilatçısı kimi çıxış edir

## Bakı İqlim Fəaliyyəti Həftəsi 2025 bunun növbəti təsdiqidir

Paytaxtımızda Bakı İqlim Fəaliyyəti Həftəsi 2025 (BCAW2025) öz işini davam etdirir. Beş gün keçiriləcək tədbirin artıq üçüncü günüdür. Sentyabrın 29-da açılış mərasimi keçiriləndən sonra nəzərdə tutulan mövzuların sessiyalarda müzakirəsi aparılır.

Əvvəla xatırladaq ki, birinci Bakı İqlim Fəaliyyəti Həftəsi keçən il COP29 ərəfəsində keçirilib. Ötən ilin təcrübəsi sayəsində formalaşmış möhkəm təməl üzərində qurulan bu təşəbbüs hazırda beynəlxalq əməkdaşlıq, eləcə də innovasiyalar, bilik mübadiləsi və praktiki iqlim həlləri üzrə mühüm platforma funksiyasını davam etdirir. Onu da qeyd edək ki, dünyanın müxtəlif yerlərində təşkil olunan iqlim fəaliyyəti həftələri beynəlxalq iqlim diplomatiyasına yeni nəfəs verməklə yanaşı, iqlim fəaliyyətinin həm yerli, həm də regional müstəvidə həyata keçirilməsinə diqqət yetirilməsini zərurətə çevirmişdir. İqlim fəaliyyəti həftələri həm Asiya, Latın Amerikası və Afrika ölkələrində, həm də Yaxın Şərq və Şimali Afrika (MENA) regionlarında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Regional İqlim Həftələrini tamamlayır. Onlar UNFCCC-nin Tərəflər Konfransı (COP) ərəfəsində ambisiyaların artırılması, eləcə də iqlim fəaliyyətinin sürətləndirilməsi istiqamətində aparılan rəsmi diplomatik səylərə töhfə verir.

Hazırda paytaxtımızın evsahibliyi etdiyi tədbirin ilk sessiyalarından biri də məhz belə adlanırdı: "Azərbaycanın iqlim liderliyi: COP29-dan Bakı İqlim Fəaliyyəti Həftəsi 2025-ə".Sessiyada BMT-nin Azərbaycandakı rezident koordinatoru Vladanka Andreeva COP30-da yeni hədəflərin müəyyən edilə biləcəyinə diqqət çəkib. Qeyd edib ki, COP29-dan dərs alınmalı, onun nəticələri tətbiq olunmalıdır: "BMT-nin Baş katibi yeni beynəlxalq səviyyədə hədəflər, ambisiyalar müəyyən edib. Onlardan biri temperaturun 1,5 dərəcədən yüksəlməsinin qarşısını almaqdır. Biz alternativ enerjidən istifadə etməliyik. Meşələri qorumaq vacibdir. Çünki karbon emissiyaların qarşısını alır. Ağır metallurgiya müəssisələrində qaz emissiyalarının azaldılması üçün yeni texnologiyalar tətbiq etməlidirlər. Hər bir cəmiyyətin öz texnoloji strategiyaları olmalıdır. Düşünürəm ki, növbəti ildə Azərbaycan öz yeni əməkdaşları ilə yeni hədəflər müəyyən edəcək".

Sessiyada həmçinin qeyd olunub ki, Bakı İqlim Fəaliyyəti Həftəsi iqlim sahəsində görülən işləri müzakirə etmək, təcrübə mübadiləsi aparmaq və gələcək üçün birgə həll yolları tapmaq baxımından ideal platformadır. Burada aparılan müzakirələr imkan verir ki, həm uğurların məmnunluğu bölüşdürülsün, həm də mövcud problemlərə diqqət yetirilsin.

Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində "dəyirmi masa" da keçirilib. "İqlim dayanıqlılığı və sıfır emissiyaya keçid üçün iqlim qanunlarının və təşkilatlarının gücləndirilməsi" mövzusu müzakirə olunub. Müzakirələr zamanı Milli Məclisin deputatı, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov qlobal iqlim dəyişikliyi fəsadlarının hər gün daha aydın şəkildə hiss olunduğuna diqqət çəkib: "Bu dəyişikliklər yalnız ətraf mühitə deyil, həm də insanların sağlamlığına və gələcək nəsillərin həyatına ciddi təsir göstərir. Genetik problemlərə yol açan iqlim dəyişiklikləri göstərir ki, biz daha rasional və davamlı addımlar atmalıyıq".

O qeyd edib ki, hazırkı dünyada hərbi əməliyyatların da təsirini nəzərə alsaq, görüləcək tədbirlər yalnız insanlara deyil, həm də planetimizin gələcəyinə təsir göstərir. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə irəli sürülən sülh və əməkdaşlıq prinsipləri xüsusilə önəm daşıyır. "Davamlı inkişafın əsas meyarlarından biri enerji istehsalıdır. Son dövrlərdə enerji şəbəkəsinə tələbat əhəmiyyətli dərəcədə artıb. Azərbaycanda bərpaolunan enerji sahəsində atılan addımlar bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaradılan yeni enerji obyektləri ölkəmizin enerji təhlükəsizliyinə və davamlı inkişafına böyük töhfə verir. Statistik göstəricilər göstərir ki, gələcəkdə qlobal enerji tələbatı daha da artacaq. Bu isə bizi daha çox məsuliyyətli və innovativ yanaşmalar tətbiq etməyə məcbur edir. Məqsədimiz həm ekoloji dayanıqlılığı təmin etmək, həm də enerji resurslarını səmərəli istifadə etməkdir", - deyə deputat vurğulayıb.

Prezidentin İqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev Azərbaycanın bu gün iqlim və ətraf mühit sahəsində 20 beynəlxalq konvensiyanın üzvü olmasına diqqət çəkib.

Bakı İqlim Fəaliyyəti Həftəsinin ikinci günü ərzində iqlim fəalları, ekspertlər, yüksəksəviyyəli qonaqlar müxtəlif mövzular ətrafında fikir mübadiləsi apardılar. Tematik mövzu "Yaşıl Keçid və Transformasiya" olub. Belə ki, Azərbaycan zəngin bərpaolunan enerji potensialına malikdir və bu sahədə müəyyən etdiyi hədəfləri var. Belə ki, ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan həmçinin 1,5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcək. Bundan əlavə, ölkənin quruda və dənizdə mövcud olan zəngin külək enerjisi resursları dayanıqlı enerji istehsalı üçün mühüm imkanlar yaradır.

Çıxışlarda xatırladılıb ki, Azərbaycanın külək enerjisi üzrə quruda 3 qiqavat həcmində iqtisadi potensiala, həmçinin dənizdə 157 qiqavat texniki potensiala malikdir. Bu potensialın reallaşdırılması istiqamətində mühüm addımlar atılıb. "ACWA Power" və "Masdar" kimi beynəlxalq investorlarla həyata keçirilən layihələr bunun bariz nümunəsidir.

Hazırda hidroenerji ölkənin illik elektrik enerjisi istehsalının təqribən 10 faizini təşkil edir. Şirin su ehtiyatlarının təxminən 25 faizi Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında cəmləşir. Bu potensial həmin ərazilərdə 2050-ci ilədək xalis sıfır (net-zero) hədəfinə çatmaq üçün xüsusi əhəmiyyətə malikdir. Hidroenergetika infrastrukturunun tacı isə 424 MVt qoyuluş gücünə malik Mingəçevir Su-Elektrik Stansiyası hesab olunur.

Ölkəmizin iqtisadi cəhətdən səmərəli günəş enerjisi potensialı 23 qiqavat təşkil edir. Başqa sözlə, günəşli saatların sayı ildə 2400-3200 saat arasında dəyişir. Bu da təbii ki, günəş enerjisi istehsalı üçün əlverişli şərait və imkan yaradır. İki il əvvəl 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyasının açılışı və hazırda bir sıra digər layihələrin reallaşdırılması da elə bunu göstərir.

Bakı İqlim Fəaliyyəti Həftəsinin gündəliyində "yaşıl texnologiya" sahəsində iş quran sahibkarların, iqlim idarəçiliyi və fəaliyyətinə yeni baxış bucağı təklif edən gənclərin iştirakı ilə keçiriləcək sessiyalar və digər tədbirlər də var. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan inklüziv iqlim dialoqlarının aparıcı təşkilatçılarından olaraq fəaliyyətini davam etdirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## ZƏFƏR gündəliyi

1 oktyabr 2020-ci il

### İlham ƏLİYEV: "Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını həyata keçirir"

İlham Əliyev Aleksandr Lukaşenkoya həqiqətləri açıqlayıb



Belarus Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə telefonla zəng edərək təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb.

İlham Əliyev belaruslu həmkarına məlumat verərək bildirib ki, Ermənistanın sentyabrın 27-də səhər saatlarında başladığı hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli ağır artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində bu günə kimi hərbi qulluqçularımız, 17 mülki şəxs həlak olub, 50-dən çox mülki şəxs yaralanıb, 200-dən çox ev dağıdılıb. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını həyata keçirir.

Dövlət başçısı əlavə edib ki, artıq Ermənistan ərazisindən də Azərbaycan mövqeləri atəşə tutulub ki, bu da qəti şəkildə yolverilməzdir. Ermənistan tərəfi şüurlu şəkildə danışıqlar prosesini pozur və hərbi təxribatlara rəvac verməklə yanaşı, danışıqlar prosesinə də böyük zərbə vurur.

#### Düşmənin 200 tankı, 228 artilleriyası sıradan çıxarılıb

Sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21:30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib.

Bu müddət ərzində düşmənin ümumi itkiləri belə olub:

* 200-dək tank və digər zirehli texnika;
* 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri;
* 30 ədəd hava hücumundan müdafiə vasitələri;
* 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
* 5 silah-sursat anbarı;
* 110-dan artıq avtomobil texnikası;
* 1 ədəd "S-300" zenit-raket kompleksi.

#### Qarşı tərəfin hərbi kolonları darmadağın edilib

Oktyabrın 1-də Azərbaycan Ordusunun əks-həmlə əməliyyatları uğurla davam edib.

Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən darmadağın olunub.

Səhər saatlarından etibarən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulub.

Azərbaycan Müdafiə Nazirliyi Ermənistan tərəfindən tələb edib ki, ölkəmizin ərazisinin atəşə tutulmasını dərhal dayandırsın. Əks təqdirdə adekvat cavab tədbirləri görüləcək.

#### Erməni əsgəri ön xəttə təminat aparmaqdan boyun qaçırıb



Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhəboyu ağır itkilər verib.

İşğal olunmuş ərazilərimizdə yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşib. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhədəki hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina ediblər.

#### Düşmənin bir neçə alayına atəş zərbələri endirilib

Bölmələrimiz tərəfindən düşmən işğalı altında olan Hadrut qəsəbəsindəki Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayın infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına atəş zərbələri endirilib.

Azərbaycan Ordusunun bölmələri düşmənin daha bir neçə hava hücumundan müdafiə vasitələrini və yaylım atəşli reaktiv sistemlərini məhv edib.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Naxçıvanın itkin şəhidi

## Sönməz Günəşə çevrilib Murovun buz kəsmiş zirvəsini əridən igid

Onun ən böyük sevgisi Vətənə idi. Belə olmasaydı, hərbçi kimi çətin peşəyə cidd-cəhdlə yiyələnməyə can atmazdı. Boyuna-buxununa da çox yaraşırdı hərbi forma... Söhbət Vətən müharibəsində qəhrəmanlıq nümunəsi göstərmiş İbrahim Vəlizadədən gedir.



AZƏRTAC xəbər verir ki, İbrahim Vəlizadə 2011-2014-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2014-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsil alıb, 2018-ci ildə Türkiyədə təkmilləşdirmə kursu keçib. Təhsilini başa vuran kimi, leytenant hərbi rütbəsi alaraq Vətən torpağının keşiyini çəkməyə yollanıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan kimi yüzlərlə qəhrəman oğul kimi, İbrahim də döyüşə atılıb. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə itkin düşüb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə İbrahim Vəlizadə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

İtkin şəhidimizin Şərur şəhərindəki Şəhidlər xiyabanında büstü ucaldılıb.

Atası Səməd Vəliyev deyir ki, İbrahim uşaqlıqdan çalışqan, məsuliyyətli idi, orta məktəbdə dərslərini həvəslə oxuyardı: "Qiymətləri əla idi, müəllimləri razılıq edirdi. Arzusu isə hərbçi olmaqdı. Məqsədinə çatmaq üçün əzmlə çalışdı, 2012-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə keçirilən imtahanda ən yüksək balı topladı. Bir gün iş yerində idim, zəng gəldi. Tanımadığım nömrə idi. Telefonun o başında olan şəxs "Siz İbrahim Vəlizadənin atasısınız?" - deyə sual verəndə sözün düzü, zəng vuran şəxsə həyəcanlı şəkildə cavab verdim. "Xeyir, narahat olmayın, oğlunuz yüksək nəticə göstərərək Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub", - dedi. Uğuru məni sevindirsə də, ondan ayrı qalacağım üçün, sözün düzü, kədərləndim. Onu liseyə aparıb təhvil verdiyim gün əyninə geyinib getdiyi paltarları evə gətirdim. Anası Xurşud paltarları görəndə soruşdu ki, "Bəs uşaq nə geyinəcək, niyə bütün paltarlarını gətirmisən?" Bu gündən İbrahim dövlətin, Vətənin balası oldu, nə lazımdırsa, liseydə verdilər" deyəndə İbrahimin paltarlarını sinəsinə sıxıb həyətin lap aşağısındakı ağacın altına getdi".

Xurşud xanım söhbətə qoşulur: "Paltarından balamın ətrini duyub için-için ağladım. Evə qayıdanda heç kim görməsin deyə göz yaşımı sildim və İbrahimə xitabən "gözümün nuru, sən Vətənin sönməz işığı ol", - dedim. Həmin gün haradan bilərdim ki, cəmi 10 il sonra İbrahim sönməz Günəşə çevrilib Murovun buz kəsmiş zirvəsini əridəcək".

"İbrahim kursant olandan sonra həftəsonları evə gələrdi. Ən sevdiyi yeməkləri bişirərdim. Hərbi forma boy-buxununa elə gözəl yaraşırdı ki... Hər qapıdan girəndə "Boyuna qurban kəsim", - deyirdim. Hər həftəsonu evimiz onun gəlişi ilə bayram əhval-ruhiyyəsinə bürünərdi. İllər çox tez ötdü, İbrahim böyüyüb kəndin yaraşıqlı oğlanlarından oldu. İdmanla məşğul olur, xarici dil öyrənirdi. Ürəyindən xüsusi təyinatlı olmaq keçirdi. Elə bu səbəbdən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olanda sevincinin hədd-hüdudu yox idi. Zəng vurub sevinə-sevinə dedi ki, arzuma çatdım. İntizamlı kursant kimi təhsilini uğurla başa vurdu. Vətən müharibəsi başlayanda 44 gün dua etdim ki, hamının övladı sağ-salamat qayıtsın. Kiminin balası bayrağı özünə kəfən bilib qayıtdı, kimisi gözünün nurunu, kimisi əlini, ayağını Vətənə qurban verib, kimisi bədəni qəlpə dolu qayıtdı. Amma İbrahimdən heç bir xəbər gəlmədi ki, gəlmədi", - deyərək göz yaşlarına qərq olur Xurşud xanım.

Bu gün Azərbaycan əbədi, tarixi Zəfər qazanıb, öz ərazi bütövlüyünü, suverenliyini tam təmin edib. Bu Zəfərdə yüzlərlə Vətən oğlunun ali məqsədi, ülvi arzusu yaşayır. İtkin şəhidimiz İbrahim Vəlizadənin ana-atasının gözləri yolda qalsa da, ürəkləri ona görə toxtaqdır ki, Vətən müharibəsində 30 illik həsrətə son qoymaqla məqsədinə çatan, arzuları çin olan igidlər arasında onların övladları da var.

# *Şəhid atası:* "Mənim yarımçıq qoyduğum işi oğlum tamamladı"

Elşən Ağasıyev Vətən müharibəsində Suqovuşan uğrunda gedən şiddətli döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Qəhrəman döyüşçü ölümündən sonra "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.




AZƏRTAC xəbər verir ki, Ağasıyev Elşən Ağabala oğlu 1999-cu il sentyabrın 22-də Xaçmaz şəhərində doğulub. Müharibə başlamazdan 5 ay əvvəl hərbi xidmətə yollanan qəhrəman əsgər düşmənlə savaşa atılan ilk döyüşçülərimizin sırasında yer alıb.

"Onunla keçən bütün günlərimizi xatırlayıram. Uşaqlıqda dəcəl, nadinc olmaqla yanaşı, həm də çox mehriban idi. Elşəni dişlərində olan problemə görə hərbi xidmətə aparmırdılar. O isə heç cür bunu qəbul edə bilmirdi. Sonradan dişlərini yondurdu və hərbi xidmətə yollandı. Sentyabrın 22-si onun doğum günüdür. Yanına gedə bilməmişdim. Zəng edib danışdıq. Ona sovqat göndərmək istəyirdim. Bildirdi ki, hərbi hissədə olmurlar, meşəlik ərazidədirlər. Deyirdi: "ana, tələsməyin daha gözəl günlər qeyd edəcəyik". Yəqin ki, qələbəni nəzərdə tuturdu. Mən həmin vaxt anlamamışdım. Sonuncu dəfə sentyabrın 30-da danışdıq. Bir gün əvvəl ruh yüksəkliyi ilə söhbət etmişdi. Sizə müjdəli xəbərlərim var deyirdi. Ayın 30-da isə bizimlə halallaşdı. Üç gün sonra isə şəhid oldu. Mən onunla qürur duyuram, fəxr edirəm. O, daim yaşayacaq və həmişə bizimlədir", - deyə şəhidin anası Zəminə Ağasıyeva söyləyib.

Döyüş yoldaşlarının bildirdiyinə görə, Elşən savaşın ilk günlərində yaralansa da, ön cəbhəni tərk etməyərək, döyüşməyə davam edib.

Elşən Ağasıyev müharibə ağrı-acısından xəbərdar idi. Onun atası Ağabala Ağasıyev də Birinci Qarabağ savaşında dörd il könüllü döyüşüb. Oğlu hərbi xidmətə yollananda atasına bildirib ki, onların yarımçıq qoyduğu işləri tamamlayıb, torpaqlarımızı düşməndən azad edəcək.

"Mən özüm 1992-ci ildə könüllü olaraq Birinci Qarabağ müharibəsinə yollanmışam. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ildə həyata keçirilən uğurlu Horadiz əməliyyatında iştirak etmişəm. Həmin vaxt biz döyüş əməliyyatları ilə Horadiz qəsəbəsi də daxil olmaqla, Füzuli rayonunun 21, Cəbrayıl rayonunun isə 1 yaşayış məntəqəsini erməni işğalçılarından azad etdik. Ümumilikdə 4 il cəbhədə olmuşam. Oğlanlarım həmişə məndən döyüş xatirələrimi soruşurdular. Elə oldu ki, vaxt gəldi çatdı və oğlum Elşən Vətən müharibəsində döyüşlərə qatıldı. Beş ayın əsgəri idi. Mənim kimi Elşən də qumbaraatan silahı ilə döyüşürdü. Həmişə çıxışlarımda qeyd edirəm ki, mənim yarımçıq qoyduğum işi oğlum tamamladı. Allah bütün şəhidlərimizə rəhmət eləsin", - deyə şəhidin atası Ağabala Ağasıyev söyləyib.

Elşən Ağasıyev Vətən müharibəsinin onuncu günü 21 yaşında şəhidlik zirvəsinə ucalıb. Xaçmaz şəhər qəbiristanlığında dəfn olunub.

# Şəhid Xəyyam Hüseynovun xatirəsi ehtiramla yad edilib

Göyçayın Məlikkənd kəndində Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn Xəyyam Hüseynov Hüseyn oğlunun beşinci ildönümü qeyd edilib. Mərasim iştirakçıları şəhidin əziz xatirəsini ehtiramla yad edərək məzarı üzərinə gül dəstələri düzüblər.



AZƏRTAC xəbər verir ki, şəhidin ildönümü mərasimində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən və şəhid Xəyyam Hüseynovun keçdiyi döyüş yolundan, qəhrəmanlığından bəhs olunub.

Şəhid Xəyyam Hüseynovun atası Hüseyn Hüseynov onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına və rayon rəhbərliyinə təşəkkür edib.

Anım tədbirinin sonunda rayon mədəniyyət mərkəzinin əməkdaşı Əli Səfalı və Məlikkənd kənd tam orta məktəbinin şagirdləri ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

Xatırladaq ki, şəhid Xəyyam Hüseynov 1996-cı ildə Göyçay rayonunun Məlikkənd kəndində anadan olub. 2020-ci il sentyabrın 21-də hərbi təlimlərə cəlb edilib, Vətən müharibəsinin ilk günlərində Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

# *Xaçmazlı tankçı:* "Qələbə xəbərini eşidəndə yaralarımı unutdum"

"Biz hamımız həmin günün gələcəyini bilirdik. Torpaqlarımızın azadlığı uğrunda döyüşləri səbirsizliklə gözləyirdik. Vətən müharibəsinin ilk günü ən çətin döyüşlərimizdən biri oldu. Düşmənin uzun illər ərzində möhkəmləndirdiyi ön xətti yarıb keçmək əsas tapşırıqlardan idi. Öhdəsindən gəldik. Amma təəssüf ki, qardaşlarımızı itirdik, şəhidlərimiz oldu. Bizim 131 nömrəli tankımız vardı. Həmin tank düşmən tərəfindən vuruldu. Taqım komandirimiz Ümüd Məmmədov, mexanik Bəxtiyar Bəkirov, tuşlayıcı Əjdər Sabirli həmin tankda şəhid oldular. Çox istərdim onlar da Zəfərimizi görsünlər".



Bu sözləri AZƏRTAC-a müsahibəsində Vətən müharibəsi qazisi, birinci qrup əlil Çingiz Vəçhiyev deyib.

Çingiz Məmməd oğlu Vəçhiyev 1987-ci il oktyabrın 14-də Xaçmaz rayonunun Əbilyataq kəndində anadan olub. Elçin Mövlamov adına Əbilyataq kənd tam orta məktəbində təhsil alıb.

2005-ci ilin oktyabrında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət keçib. 2007-ci ilin aprel ayında ordu sıralarından tərxis olunub.

2012-ci ildə Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində təşkil edilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) hazırlığı kursunda sürücü-mexanik tankçı ixtisasına yiyələnib. 2012-ci ildən Silahlı Qüvvələrin Goranboydakı "N" saylı hərbi hissəsinin tank taborunda xidmət etməyə başlayıb.

Çingiz Vəçhiyev 2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına vuruşub.

"Tankçı olmaq çoxdankı arzum idi. Hər dəfə televizorda döyüş kadrlarında tankçıları görəndə deyirdim: "kaş mənə də qismət olaydı". Sonunda arzuma çatdım. Aprel döyüşlərində iştirak etdim. Döyüşçü yoldaşlarımdan yaralananlar, şəhid olanlar oldu. Mən də ayağımdan yaralanmışdım. Bir ay Gəncə hospitalında müalicə aldıqdan sonra xidmətimə qayıtdım. Aprel döyüşləri bizim Zəfər tariximizin başlanğıcı idi", - deyə Çingiz Vəçhiyev bildirib.

Qırx dörd günlük Vətən müharibəsi başlayanda tankçı Çingiz Vəçhiyev düşmənin üzərinə atılan ilk hərbi birləşmələrin tərkibində yer alıb. Xaçmazlı tankçı Tərtər, Ağdərə, Ağdam, Suqovuşan və Talış kəndi uğrunda gedən ağır döyüşlərdə cəsarətlə savaşıb.

Noyabrın 2-də Tərtər-Ağdərə istiqamətlərində gedən döyüşlər zamanı düşmən tərəfindən atılan minaatan mərmisinin yaxınlıqda partlaması nəticəsində ağır yaralanıb.

"Qəlpə onurğa sümüyümün yaxınlığından keçərək daxili orqanlarımı zədələdi. Ayaqlarımın işləmədiyini hiss etdim. Döyüş yoldaşlarımın köməyi ilə ərazidən çıxarıldım. Onurğa beyinin zədələnməsi və güclü sinir pozuntusu səbəbindən məndə tam hərəkət məhdudiyyəti yaranmışdı. Qəlpə qarın boşluğuna nüfuz etdiyindən bağırsaqlarım, qara ciyərim zədələnmişdi. Əməliyyatlar aparıldı. Sağ böyrəyim çıxarıldı. Respublika Klinik Xəstəxanasında, Müdafiə Nazirliyinin Mərkəzi Hospitalında müalicə aldım. Müharibənin qələbəmizlə bitməsi xəbərini hospitalda aldım. Qələbə xəbərini eşidəndə yaralarımı unutdum. 2021-ci ildə Türkiyəyə göndərildim və orada 9 ay müalicə aldıqdan sonra Vətənə qayıtdım. Hazırda fizioterapevtik müalicə davam edir", - deyə qəhrəman tankçı bildirib.

Döyüşlərdə göstərdiyi şücaətlərə görə Çingiz Vəçhiyev "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb. Onun xidmət dövründəki təltifləri arasında "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalları və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları da var.

Çingiz Vəçhiyev ailəlidir. Övladları Nuray 12, Ömər isə 8 yaşındadır.

# Bakıda II Azərbaycan-Özbəkistan Media Forumu işə başlayıb

Sentyabrın 30-da Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən "Rəqəmsal transformasiya və media" mövzusunda II Azərbaycan-Özbəkistan Media Forumunun açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, forum Azərbaycan və Özbəkistan arasında media sahəsində əməkdaşlıq əlaqələrinə həsr olunmuş videoçarxın nümayişi ilə başlayıb.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov çıxış edərək bildirib ki, Azərbaycan və Özbəkistan xalqları arasında olan tarixi bağlar bu gün prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin güclü siyasi iradəsi, uzaqgörən liderliyi nəticəsində yüksək mərhələyə çatıb. İkitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin bütün sahələrdə, o cümlədən media sahəsində əməkdaşlığın gücləndirilməsi üçün geniş imkanlar açdığını vurğulayan icraçı direktor qeyd edib ki, rəqəmsal media mühitinin nizama salınması, yeni texnologiyaların tətbiqi və jurnalistikanın peşəkar standartlarının qorunması istiqamətində qarşılıqlı təcrübə və bilik mübadiləsi hər iki ölkənin media sektorunun inkişafına mühüm töhfə verəcək. "Süni intellekt texnologiyalarının media sahəsinə tətbiqindən irəli gələn spesifik məsələlərin həlli günümüzün vacib çağırışları sırasındadır. Bu yeni bilik və bacarıqlara yiyələnmək, onun verdiyi fürsətləri dəyərləndirərək ölkələrimizin informasiya landşaftını müasirləşdirmək zərurəti artıq hiss olunur. Media süni intellektdən yalnız forma baxımından təkmilləşmək üçün deyil, eyni zamanda daha maraqlı kontent yaradılması prosesindən də yararlanmalıdır", - deyə Ə.İsmayılov bildirib.

Forumda çıxış edən Özbəkistan Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya şöbəsinin sektor müdiri Dilşod Saidjanov iki qardaş ölkə arasında media sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini vurğulayıb. O deyib ki, ortaq tarixi və mədəni dəyərlərə söykənən bu əlaqələr informasiya mübadiləsinin intensivləşdirilməsi, dezinformasiyaya qarşı birgə mübarizə strategiyalarının formalaşdırılması və regional informasiya təhlükəsizliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. "Mövcud geosiyasi vəziyyət şəraitində əməkdaşlığımız xüsusi rəng alır. Qardaş ölkələrimizin bir-birini tanıması çox vacibdir. Rəqəmsal transformasiya əsrimizə qədəm qoyan yenilikdir. Biz çox çalışırıq ki, media və bloqçular bu texnologiyaları qanunvericiliyin tələblərinə uyğun tətbiq edə bilsinlər. Bu, bizə milli maraqlarımızı qorumağa imkan verəcək", - deyə D.Saidjanov əlavə edib.

Özbəkistanda media üçün məzmun yaratmaq məqsədilə mərkəz yaradıldığını diqqətə çatdıran Dilşod Saidjanov bütün praktiki mexanizmləri hazırladıqlarını bildirib. "İndiki şəraitdə məzmunun keyfiyyətinə diqqət yetirməyimiz vacibdir. Biz informasiya sahəsində öz məzmunumuzun yer almasına xüsusi diqqət yetiririk. Bu vəziyyətdə Azərbaycan təcrübəsi bizə çox kömək edəcək. Sizin təcrübəniz çətin şəraitdə - müharibə şəraitində qazanılıb. Sizin mediada bizdə olmayan xüsusi təcrübə var. İki ölkənin mediası arasında təcrübə mübadiləsini gücləndirməli, birgə layihələr və məzmun yaratmaq üçün kadrlar hazırlamalı, ortaq məqsədlər, tarix və mədəniyyət haqqında birgə seriallar, sənədli filmlər çəkməliyik", - deyə sektor müdiri diqqətə çatdırıb.

Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov qeyd edib ki, rəqəmsal medianın inkişafı audiovizual məzmunun istehsalı və müvafiq sahənin tənzimlənməsi istiqamətində yeni yanaşmaların tətbiqini tələb edir. Onun sözlərinə görə, bu proses qlobal media məkanında keyfiyyət standartlarının yüksəldilməsini, peşəkar prinsiplərə əsaslanan fəaliyyətin gücləndirilməsini və beynəlxalq əməkdaşlığın daha sıx qurulmasını zəruri edir. "Azərbaycan və Özbəkistan xalqlarını, sadəcə, ortaq tarix və mədəniyyət deyil, eyni zamanda qardaşlıq, dostluq və bir-birinə bağlılıq duyğuları birləşdirir. Bu gün Bakıda keçirilən II Azərbaycan-Özbəkistan Media Forumu da məhz həmin qardaşlığın bariz nümunəsidir".

İ.Səttarov bu münasibətlərin dövlət başçılarının şəxsi dostluğu və qardaşlığı sayəsində daha da gücləndiyinə diqqət çəkib. "Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev xalqlarımız arasında əsrlərdən gələn dostluğu strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə qaldırıblar. Onların siyasi iradəsi nəticəsində ölkələrimiz bu gün bütün sahələrdə, o cümlədən media sahəsində yeni imkanlar əldə edib. Media sahəsində əməkdaşlığımız bu güclü əlaqələrin vacib hissəsidir. Çünki informasiya yalnız xəbər ötürmək deyil, həm də xalqlarımızı daha sıx bağlayan körpüdür. Audiovizual Şura olaraq biz inanırıq ki, Azərbaycan və Özbəkistan media subyektləri arasında qurulan sıx əməkdaşlıq informasiya mühitimizin sağlam, obyektiv və peşəkar inkişafına mühüm töhfə verəcək", - deyə Şuranın sədri vurğulayıb.

Özbəkistanın Azərbaycandakı səfiri Baxrom Aşrafxanov diqqətə çatdırıb ki, informasiya və media sahəsində əməkdaşlıq iki ölkə arasında strateji tərəfdaşlığın mühüm istiqamətlərindən biridir. O vurğulayıb ki, Azərbaycan və Özbəkistan mediası arasında qurulan birgə platformalar qarşılıqlı informasiya mübadiləsini gücləndirir və xalqlarımızın ortaq dəyərlərinin təbliğinə xidmət edir.

Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Nozima Muratova isə forumun həm elmi müstəvidə, həm də praktik sahədə əhəmiyyətini vurğulayıb. O bildirib ki, bu platforma ali təhsil müəssisələrinin əməkdaşlığını genişləndirməklə yanaşı, gələcək jurnalistlərin rəqəmsal sahədə bacarıqlarının artırılmasına, media təhsilində müasir innovativ yanaşmaların tətbiqinə və təcrübə mübadiləsinin gücləndirilməsinə mühüm imkanlar yaradır.

Qeyd edək ki, forum işini "Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər" və "Rəqəmsal informasiya mühitində etik məsuliyyət" mövzularında panel sessiyalarla davam etdirib.




### "Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər"

Sentyabrın 30-da Bakıda II Azərbaycan-Özbəkistan Media Forumu çərçivəsində "Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər" mövzusunda panel sessiya təşkil edilib.

AZƏRTAC xəbər verir ki, sessiya "Trend" İnformasiya Agentliyinin baş redaktoru Emin Əliyevin moderatorluğu ilə keçirilib.

Rəqəmsal transformasiyanın mövcud vəziyyətdə ən prioritet məsələlərdən biri olduğunu qeyd edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov deyib: "XX əsr informasiya və eyni zamanda dezinformasiya əsridir. Bu, saxta məlumatların böyük bir axını ilə əlaqədardır. Bizim kimi mürəkkəb geosiyasi bölgədə də bu informasiyanın ayırd edilməsi mühüm əhəmiyyət kəsb edir".

O, informasiya sahəsinin sərhədləri olmadığını deyib, buna görə də təhlükəsizliyin təmin edilməsinin zəruriliyini vurğulayıb.

"Biz Medianın İnkişafı Agentliyi olaraq media savadlılığı həftələri, konfranslar, tələbələrin və gənclərin iştirak etdiyi seminarlar, "ASAN radio" ilə "Smart media" layihəsi, AzTV-də yayımlanan "Medialab" layihələri həyata keçiririk. Mediamız Özbəkistanın media subyektləri ilə çox sıx əməkdaşlıq edir. Nümunə kimi bu yaxınlarda Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Özbəkistanın Milli İnformasiya Agentliyi (UZA) arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasını gətirmək olar. İki ölkə arasında qarşılıqlı mediaturlar təşkil olunur. Əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük səylər göstərilir", - deyə departament direktoru əlavə edib.

Özbəkistan Jurnalistlər İttifaqının sədri vəzifəsini icra edən Xolmurod Salimov informasiya təhlükəsizliyi və media sahəsindəki çağırışlardan danışarkən müasir dövrdə bu məsələlərin strateji əhəmiyyətinin getdikcə artdığını söyləyib. "Xəbərlərin çatdırılması ilə bağlı inkişaf həm yeni imkanlar yaradıb, həm də ciddi çağırışları gündəmə gətirib", - deyə o əlavə edib.

Xolmurod Salimov bildirib ki, qarşıda geniş fürsətlərlə yanaşı, ciddi təhlükələr də mövcuddur. Çünki sürətlə yayılan məlumatların həqiqətə uyğun olub-olmamasını müəyyənləşdirmək getdikcə çətinləşir. Məhz buna görə də informasiya təhlükəsizliyinin təmin edilməsi müxtəlif sahələrdə əməkdaşlıq və birgə fəaliyyət tələb edir. "Dövlət və media arasında sıx əməkdaşlıq xəbərlərin doğruluğunu təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Unutmayaq ki, süni intellekt texnologiyalarından sui-istifadə feyk xəbərlərin yayılmasına zəmin yarada bilər. Buna görə də təlimlərə, maarifləndirmə layihələrinə və peşəkar hazırlığa ehtiyac getdikcə artır. Xüsusilə vurğulamaq istəyirəm ki, ötən il Özbəkistan ?urnalistlər İttifaqı ilə Azərbaycanın Mətbuat Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Bu çərçivədə jurnalistlərin qarşılıqlı səfərləri təşkil olunub, təcrübə mübadiləsi həyata keçirilib", - deyə Xolmurod Salimov bildirib.

O əlavə edib ki, əhalinin media savadlılığının artırılması da mühüm məsələdir. Çünki vətəndaşların bir xəbərin və ya məlumatın nə dərəcədə doğru olub-olmadığını ayırd edə bilməsi informasiya təhlükəsizliyinin əsas şərtlərindən biridir: "Əminəm ki, Azərbaycan və Özbəkistan bu istiqamətdə əməkdaşlığı davam etdirərək həm xalqlarımız, həm də bütövlükdə region üçün böyük töhfələr verəcək".

Azərbaycan Respublikası Audiovizual Şurasının Aparat rəhbəri Fazil Novruzov məlumatların genişmiqyaslı axınının informasiya məkanını çirkləndirməsini qaçılmaz etdiyini diqqətə çatdırıb: "Bu mənada informasiya təhlükəsizliyi cəmiyyəti bundan qoruya bilər. Bunun üçün bir sıra təsirli vasitələr mövcuddur".

Qeyd edilən məsələlər üçün cəmiyyətin təhsil səviyyəsinin yüksəlməsinin və media savadlılığının artırılmasının vacib olduğunu vurğulayan F.Novruzov vurğulayıb ki, rəqəmsal bacarıqlar bir çox media qurumu və ictimai təşkilatlar tərəfindən uğurla istifadə olunur".

Audiovizual Şuranın bu istiqamətdə uğurla fəaliyyət göstərdiyini diqqətə çatdıran Aparat rəhbəri əlavə edib: "2023-cü ildən başlayaraq Audiovizual Şura Bakı Dövlət Universitetində 20-dən çox media subyekti ilə 50-dən çox, həmçinin xarici ölkələrin media requlyatorları ilə çoxsaylı görüşlər keçirib. 2025-ci ildə biz Qara Dəniz Yayım Tənzimləyici Orqanlarının Forumunu təşkil etdik".

Özbəkistanın Milli Media Assosiasiyasının baş direktoru Abduaziz Abutolipov bu gün təhlükəsizliyin yalnız sərhədlərin qorunması deyil, ilk növbədə məlumatların qorunması olduğunu deyib.

"İnformasiya iqtisadiyyatın, siyasətin, beynəlxalq münasibətlərin üzərində dayanan etibardır. Etibarın çökdüyü yerdə hər şey məhv olur. Buna görə informasiya təhlükəsizliyi yalnız texnologiya haqqında danışmaq deyil, mədəniyyət, dəyər və gələcək haqqında düşünməkdir", - deyə baş direktor əlavə edib.

### Rəqəmsal informasiya mühitində etik məsuliyyət mövzusu müzakirə olunub

Sentyabrın 30-da Bakıda keçirilən II Azərbaycan-Özbəkistan Media Forumu çərçivəsində rəqəmsal informasiya mühitində etik məsuliyyət mövzusu müzakirə olunub.

Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Nozima Muratovanın moderatorluğu ilə keçirilən panel sessiyada çıxış edən AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Sevinc Abdullayeva forum çərçivəsində müzakirə olunan mövzuların əhəmiyyətindən söz açıb. O qeyd edib ki, sürətli rəqəmsal transformasiya dövründə jurnalistika, sadəcə, texniki dəyişikliklərlə üzləşmir, həmçinin peşənin mahiyyətinə toxunan dərin etik çağırışlarla qarşı-qarşıyadır. Sədr müavini deyib ki, jurnalistin əsas alətləri qələm və dəftər olduğu dövrlərdən etibarən jurnalist etikası hər zaman peşəmizin ayrılmaz tərkib hissəsi sayılıb. "Lakin bu gün jurnalistin etik məsuliyyətindən danışmaq hər zamankından daha aktualdır. Çünki rəqəmsal texnologiyalar böyük imkanlar açsa da, bəzi problemləri daha da kəskinləşdirib və yeni risklər yaradıb. İnformasiyanın sürətlə yayılması, auditoriya ilə birbaşa təmas, beynəlxalq mənbələrə çıxış, işin avtomatlaşdırılması süni intellekt və rəqəmsal texnologiyaların müsbət cəhətləridir. Ancaq dezinformasiya, manipulyasiya, saxta xəbərlər, diqqət uğrunda yarış hazırda aktual problemlərdir", - deyə S.Abdullayeva vurğulayıb. O əlavə edib ki, belə şəraitdə etik məsuliyyət, sadəcə, peşə borcu deyil, həm də kontent axınında yolgöstərən zəminə çevrilir.

Özbəkistanın Milli Kütləvi İnformasiya Vasitələrinin Dəstəklənməsi və İnkişafı üzrə İctimai Fondun Himayəçilər Şurasının sədri Akramjon Fozilov dünya əhalisinin 69 faizinin internetdən istifadə etdiyini deyərək vurğulayıb: "Lakin bir çoxları etik davranışlara riayət etmir. Ənənəvi mediaya gəldikdə, biz fərdi məzmunu ön plana çıxarmalıyıq. Çünki dezinformasiya ictimai rəyə zərər vuran nəticələrə gətirib çıxara bilər".

Şura sədri Özbəkistan mediasında bu cür xəbərlərə rast gəlindiyini və bu biznes strukturlarının dövlət qurumlarının reputasiyasını sarsıtdığını diqqətə çatdırıb.

"Oksford Universitetinin alimləri müəyyən ediblər ki, bir çox ölkədə seçkilər zamanı dezinformasiya vasitələrinə əl atılır. Bu, insanların reallığı qəbul etmələri üçün çətinliklər yaradır", - deyə A.Fozilov əlavə edib.

Onun sözlərinə görə, kiberhücumlar milli, dini mənsubiyyəti olan xalqları, icmaları hədəfə alır. "ChatGpt" və digər vasitələr vəziyyəti daha da çətinləşdirib. Sosial şəbəkələrdə vaxt keçirən yeniyetmələr trollinqin qurbana çevriliblər. Rəqəmsal etika böyük əhəmiyyət kəsb edir. İstifadəçilər aqressiyadan kənarlaşmalıdırlar. Kiberbullinq halları tədricən aradan qaldırılmalıdır. İnternetin aqressiyasını azaltmaq üçün universal bir həll yoxdur, lakin tənzimləyici qurumlar və vətəndaş cəmiyyətləri bununla mübarizə apara bilər", - deyə Şura sədri qeyd edib.

"1news.az" xəbər portalının baş redaktoru Kəmalə Məmmədova deyib ki, bu gün etik media məsuliyyəti baxımından qarşımızda çox ciddi tələblər dayanır.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın çox ciddi dezinformasiya problemi ilə üzləşdiyini xatırladan baş redaktor bildirib: "Bu dövrdə dövlət qurumları və informasiya sahəsində çalışan mütəxəssislər öyrəndilər ki, xəbəri tez deyil, yoxlanılmış və düzgün formada təqdim etmək daha vacibdir. Bu həm ictimaiyyətin etimadını qorudu, həm də informasiya mühitində məsuliyyətli yanaşmanı gücləndirdi".

Baş redaktorun sözlərinə görə, bu prosesdə media sahəsində keçirilən təlimlərin böyük əhəmiyyəti var. Rəqəmsal medianın müsbət və mənfi tərəflərinin öyrənilməsi, ona uyğunlaşma yollarının tapılması vacib addımdır. Biz interneti xaotik bir məkan kimi deyil, şəxsi və ictimai məsuliyyət mühiti kimi qəbul etməyi bacarmalıyıq. "Burada regional əməkdaşlığın da xüsusi rolu var. Özbəkistanla birlikdə əldə etdiyimiz təcrübə regional təşəbbüslərin qloballaşması baxımından çox nümunəvidir. İnanıram ki, biz birgə şəkildə region miqyasında maarifləndirmə proqramları həyata keçirə bilərik və bu həm peşəkar media mühitinə, həm də cəmiyyətlərimizə böyük fayda gətirəcək", - deyə Kəmalə Məmmədova vurğulayıb.

"O'zbekiston 24" Yaradıcı Birliyinin direktor müavini, "O'zbekiston 24" teleradio kanalının baş prodüseri Xaydar Xasanov forum çərçivəsində müzakirə edilən mövzuların aktuallığı barədə danışaraq deyib ki, burada səslənən fikirlərin əsas xətti bir məfhum - media etibarlılığı üzərində qurulub.

O qeyd edib ki, müasir dövrdə dünyada məlumat axını heç vaxt dayanmır, davamlı şəkildə artır. Belə bir şəraitdə jurnalistlər üçün ən vacib amil etibar qazanmaqdır. Çünki xəbərin dəyəri onun doğruluğu və dürüstlüyü ilə ölçülür. "Doğrudur, xəbər başlığı oxucunu cəlb etmək baxımından çox əhəmiyyətlidir. Ancaq bu, yalnız mövzuya uyğun olduğu halda dəyərli olur. Başlığı emosiyalar üzərində quraraq manipulyasiya etmək medianın etibarlılığına zərbə vurur. Unutmayaq ki, auditoriyamız artıq vaxtının böyük hissəsini sosial şəbəkələrdə keçirir. Bu məkanda saxta xəbərlərə, dezinformasiyaya yer vermək olmaz. Əksinə, jurnalistlərin missiyası sosial şəbəkələrdə belə keyfiyyətli, etibarlı və yoxlanılmış məlumatı insanlara təqdim etməkdir", - deyə Xaydar Xasanov əlavə edib.

Bununla da Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən "Rəqəmsal transformasiya və media" mövzusunda II Azərbaycan-Özbəkistan Media Forumu öz işini yekunlaşdırıb.

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 30-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra sədrlik edən bildirib ki, əvvəllər məhkəmənin hazırlıq iclasında tərcüməçi qismində iştirak etmiş İslam Ağakərimov məhkəməyə teleqram vuraraq səhhəti ilə bağlı prosesdə iştirak edə bilməyəcəyini və bunun nəzərə alınmasını xahiş edib.

Qeyd edək ki, ötən iclasların birində təqsirləndirilən şəxs Ruben Vardanyan məhkəməyə müraciət edərək prosesdə əvvəllər tərcüməçi qismində iştirak etmiş İslam Ağakərimovun məhkəməyə dəvət olunmasını xahiş etmişdi. Məhkəmə də bununla bağlı İslam Ağakərimova bildiriş göndərməklə onu prosesə dəvət etmişdi.

Bundan sonra Ruben Vardanyanın müdafiəçisi Avraam Berman məhkəməyə müraciət edərək iclas protokolu ilə bağlı məlumat əldə etmək istədiklərini deyib. Həmçinin bildirib ki, müdafiə tərəfinin verdiyi vəsatətlərlə bağlı bəzi məhkəmə qərarlarının çıxarışları onlara təqdim olunub, digərlərinin də təqdim olunmasını xahiş edir.

Hakim Zeynal Ağayev iclas protokolları ilə tanışlıq üçün müdafiə tərəfinə bundan sonra da şərait yaradılacağını deyib. Çıxarışlara gəlincə isə bildirib ki, bununla bağlı hansı qərarların surətlərini almaq istədiklərini konkret göstərsinlər.

Proses zərərçəkmişlərin hüquqi varislərinin və zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam edib.

Zərərçəkmiş Şair Heydərovun hüquqi varisi Camal Heydərov ifadəsində övladının düşmənin açdığı atəş nəticəsində Laçında həlak olduğunu qeyd edib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Devid Cəlilovun hüquqi varisi Sevinc Cəlilova ifadəsində bildirib ki, övladı Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində Ağdərədə həlak olub.

Zərərçəkmiş Cavid Zülfüqarovun hüquqi varisi Cavanşir Zülfüqarov ifadəsində oğlunun düşmənin açdığı atəş nəticəsində həlak olduğunu deyib.

Zərərçəkmiş Tofiq Alıyevin hüquqi varisi Fərid Alıyev ifadəsində bildirib ki, övladı Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı snayper atəşi nəticəsində Xankəndidə həlak olub.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Sirac Abışovun hüquqi varisi Şirzad Səmədov ifadəsində qeyd edib ki, qardaşı Kəlbəcərin Susuzluq kəndində tank əleyhinə minanın partlaması nəticəsində həlak olub. O deyib: "Qardaşım AzTV-nin operatoru idi. Partlayış zamanı qardaşımdan başqa Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov və Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Arif Əliyev də həlak olub, dörd nəfər isə yaralanıb".

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkən Elkin Mirzəhmədov düşmənin açdığı atəşlər nəticəsində Xocalıda qəlpə yaraları aldığını söyləyib.

Zərərçəkən Rauf Hüseynov baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən bildirib ki, düşmənin minaatandan atdığı mərminin partlaması nəticəsində xəsarət alıb. Həmin vaxt bir neçə nəfər həlak olub.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkən Orxan Bələdov ifadəsində deyib ki, düşmən tərəfindən Ağdərə rayonunun Canyataq kəndində onun da içərisində olduğu avtomobilin raketlə vurulması nəticəsində özü və bir neçə nəfər xəsarət alıb.

Zərərçəkən Eltun Məmmədov düşmənin açdığı atəş nəticəsində Şuşanın Daşaltı kəndində yaralandığını söyləyib.

Zərərçəkən Muxtar Əliyev ifadəsində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin açdığı atəşlər nəticəsində Ağdamın Gülablı kəndində sağ ayağından güllə yarası aldığını, bir nəfərin isə həlak olduğunu deyib.

Digər zərərçəkən Nazir Cəlilov Şuşa rayonu ərazisində içərisində olduğu avtomobilin düşmən tərəfindən atəşə tutulması nəticəsində yaralandığını söyləyib.

Zərərçəkən Pərvin Babayev isə düşmənin artilleriya atəşi nəticəsində Şuşa rayonu ərazisində xəsarət aldığını vurğulayıb.

Zərərçəkənlər Emil Əliyev, Fərhad Rzayev və Əyyub Məmmədov düşmənin açdığı atəşlər nəticəsində Kəlbəcər istiqamətində xəsarət aldıqlarını deyiblər.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkən Vidadi Məmmədov bildirib ki, Laçında minatəmizləmə işləri zamanı düşmənin açdığı atəş nəticəsində xəsarət alıb.

Raqif Əliyev bildirib ki, Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən Ağdərə rayonunun Canyataq kəndində içərisində olduğu avtomobilin raketlə vurulması nəticəsində özü və bir neçə nəfər yaralanıb, bəzi şəxslər isə həlak olub.

Zərərçəkən Əsgər Quliyev ifadəsində qeyd edib ki, düşmənin Şuşa istiqamətində açdığı atəş nəticəsində sağ ayağından xəsarət alıb. Bundan başqa, bir neçə nəfər həlak olub, bir neçə şəxs isə yaralanıb.

Digər zərərçəkənlər - Anar Əziz-zadə, Aydın Verdiyev, Yunis İsmayılov, Valeh Məmmədov, Əli Məhərrəmov, Ceyhun Həsənzadə, Nicat Teymurov, Eltəkin Həsənov, Yəhya Quliyev, Arif Abbasov, Vüsal Hüseynov, Əli Ələkbərov, Zaur Məmmədov, Vasif Osmanov, Mehti Mürsəlov və Əlizamin İsmayılov müxtəlif ərazilərimizdə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin təxribatları və basdırdıqları minaların partlaması nəticəsində yaralandıqlarını bildiriblər.

Sonra zərərçəkmiş şəxslər barəsində məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası oktyabrın 7-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Müasir statistikanın inkişaf perspektivləri

### Prezident İlham ƏLİYEV: "Beynəlxalq Statistika Forumu metodoloji yeniliklərin təqdim edilməsi və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından universal bir platforma kimi çıxış edir"

**Keçən həftə Azərbaycan daha bir mötəbər tədbirə evsahibliyi etdi. Paytaxtımızda III Beynəlxalq Statistika Forumu keçirildi. Forumu Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və MDB Dövlətlərarası Statistika Komitəsi birgə təşkil etmişdilər. Üç gün davam edən tədbirin mövzusu isə "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" idi.**




Toplantıya Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətləri, tanınmış elmi ictimaiyyət xadimləri və ekspertlər qatılmışdılar. Prezident İlham Əliyevin forumun iştirakçılarına müraciət ünvanlaması bu toplantının önəminə bir daha diqqət çəkir. Belə ki, müraciətdə forumun məqsəd və məramı aydın şəkildə öz əksini tapıb: "Bu mötəbər tədbir milli statistika sistemlərinin inkişafı, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır... Müasir dövrdə statistika cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün öz əhəmiyyətini daha da artıraraq mühüm vasitələrdən birinə çevrilmişdir. Etibarlı statistik məlumatlar dayanıqlı inkişafın təmin olunmasında, əsaslandırılmış qərarların qəbulunda və şəffaf idarəetmənin qurulmasında böyük rol oynayır. Bu səbəbdən Beynəlxalq Statistika Forumu metodoloji yeniliklərin təqdim edilməsi və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından universal bir platforma kimi çıxış edir".

Məlumdur ki, Azərbaycanda milli statistika sistemi ardıcıl şəkildə inkişaf etdirilir, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalı daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda süni intellekt kimi müasir çağırışlar statistika sahəsində yeni metodologiyaların, alət və yanaşmaların işlənib hazırlanmasını, gələcək hədəflərin düzgün müəyyənləşdirilməsini zərurətə çevirir. Odur ki, ölkəmizdə rəsmi statistika sahəsində müasir texnologiyalara, süni intellektə və rəqəmsal transformasiyaya əsaslanan islahatların həyata keçirilməsi xüsusi önəm daşıyır. Bu istiqamətdə aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edilərək qlobal inkişaf gündəliyinə töhfə verməyə səy göstərilir.

Sözügedən forumun Bakıda keçirilməsi deyilənləri bir daha təsdiqləyir. Baş nazir Əli Əsədov da tədbirin açılışındakı çıxışında məhz bunları vurğuladı: "Prezident və hökumət statistika qurumunun fəaliyyətindən öz razılığını bildirir. O cümlədən Prezidentin tapşırığı ilə Azərbaycan hökuməti dəstək olaraq son illər ərzində 6 dövlət proqramını qəbul edib və bu proqramlar Azərbaycanda statistikanın inkişafını əks etdirir. Statistika elə bir alətdir ki, nəinki iqtisadiyyat, cəmiyyətin bütün sahələrini, dünəni, bu günü və sabahı proqnozlaşdırmaq üçün əsaslar olmalıdır. İnkişafı qiymətləndirmək üçün hansısa rəqəmlərə əsaslanmalıyıq və bu məlumatlar bizim inkişafımızı, addımlarımızı daha da qiymətləndirməyə imkan verir. Bu baxımdan statistikanın istənilən cəmiyyətin, sahənin inkişafında böyük rolu var. Bütün sahələrdə olduğu kimi, statistika sahəsi də inkişaf dövrünü yaşayır".

MDB İcraiyyə Komitəsi sədrinin müavini Denis Trefilov, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri Konstantin Laykam, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və başqaları öz çıxışlarında forumun müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gətirilməsi, statistika sahəsində qabaqcıl bilik və təcrübələrin mübadiləsi, yeni hədəflərin müəyyən edilməsi, eləcə də birgə layihələrin təşviqi, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildirdilər. Forumda "Milli Hesablar Sistemi-2025", əhali və mənzil fondu siyahıyaalınmasının 2030-cu il mərhələsi, Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqi, həmçinin sahə və çoxsektorlu layihələrlə bağlı məsələlər müzakirə olundu. İnformasiya texnologiyaları, statistik məlumatların inteqrasiyası, institusional qərarlar, statistikada səriştəliliyin inkişafı ilə əlaqədar layihələrin effektivliyi qiymətləndirildi.

"Belə tədbirlər ölkələr arasında peşəkar əlaqələri və qarşılıqlı anlaşmanı gücləndirməyə kömək edir". Macarıstan Mərkəzi Statistika İdarəsinin prezidenti Aron Kinçeşin bu sözlərini forum iştirakçılarının ümumi fikri kimi də dəyərləndirmək olar. A.Kinçeş deyib: "Belə bir forumun Bakıda keçirilməsi Macarıstan üçün təkcə Azərbaycandan deyil, həm də digər MDB ölkələrindən olan həmkarları ilə təcrübə mübadiləsi və əlaqələr qurmaq üçün əla fürsətdir. Bu gün bütün dünyada statistika orqanları arasında əməkdaşlığın genişləndirilməsinə kəskin ehtiyac var. Hesab edirəm ki, Azərbaycanda təcrübəli və peşəkar statistika komitəsi var. Bizim xidmətimiz qarşılıqlı fəaliyyətə açıqdır".

Forum çərçivəsində Dövlət Statistika Komitəsində tədbirin iştirakçıları ilə görüş də keçirildi. Görüşdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında "Statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalandı. Memorandumdan irəli gələn vəzifələrin icra olunmasının səmərəli nəticələr verəcəyinə - statistika sahəsində əməkdaşlığın təşviq və inkişaf etdirilməsi, beynəlxalq səviyyədə müqayisə edilə bilən və hər iki ölkənin sosial-iqtisadi vəziyyətini əks etdirən statistik məlumatlar mübadiləsinin genişləndirilməsi və iki ölkənin statistika qurumları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olundu.

"Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda III Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 73-cü iclasının sonunda tədbirin yekunlarına dair Kommünike qəbul edildi.

Xatırladaq ki, BMT-nin Statistika Komissiyasının qərarı ilə bu il oktyabrın 20-də "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında Ümumdünya Statistika Günü qeyd ediləcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Kiyevdə Azərbaycanın enerji təhlükəsizliyindəki roluna dair konfrans keçirilib

**Kiyev şəhərində Azərbaycanın Ukraynanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə, Azərbaycan və Ukrayna arasında bərpaolunan enerji layihələrinin birgə işlənməsinə dair konfrans keçirilib.**

Ukrayna Milli Elmlər Akademiyasının konfrans zalında keçirilən tədbirdə Ukrayna və Azərbaycan arasında enerji sahəsində gələcək əməkdaşlığın yeni mərhələsindəki istiqamətlər müzakirə olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan-Ukrayna Enerji Assosiasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə bərpaolunan enerji mənbələrinin - Günəş, külək, kiçik su elektrik enerjisinə inteqrasiyası, müasir enerji saxlama texnologiyalarının tətbiqi, Ukrayna-Azərbaycan elmi, texniki və investisiya əməkdaşlığı üçün imkanlar müzakirə olunub. Tədbirdə çıxış edən Ukraynanın energetika nazirinin müavini Nikolay Kolesnik, Ukraynanın ölkəmizdəki səfiri Yuri Qusev, Azərbaycanın bu ölkədəki səfirliyinin müşaviri Rövşən Hüseynzadə, Ukrayna Ali Radasının deputatı Sergey Naqornyak, Assosiasiyanın həmsədrləri Pyotr Romanov və Şahin Yusifov və digər çıxışçılar iki ölkə arasında enerji sahəsində əməkdaşlığı yüksək qiymətləndiriblər. Natiqlər müharibə dövründə Ukraynanın enerji obyektlərinin bərpasına verdiyi töhfəyə görə Azərbaycanın dəstəyini xüsusi vurğulayıblar.



Qeyd edilib ki, hər iki ölkə regionda enerji təhlükəsizliyinin təmin edilməsi və yaşıl enerjinin inkişafına yönəlmiş əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır. Müzakirə zamanı vurğulanıb ki, 2025-ci ilin iyul ayında Azərbaycan təbii qazının Trans-Balkan marşrutu ilə Bolqarıstan və Rumıniya üzərindən tədarükünü həyata keçirir. Bu layihə Ukraynanın enerji mənbələrinin şaxələndirilməsi və onun enerji təhlükəsizliyinin artırılması istiqamətində mühüm addım olub.

Tədbirin sonunda birgə layihələr üçün yol xəritəsi rolunu oynayacaq qətnamə qəbul olunub. Ukrayna Ali Radasının Energetika və kommunal xidmətlər məsələləri komitəsinin üzvü, deputat Sergey Naqornyak AZƏRTAC-a açıqlamasında bildirib ki, Ukrayna cəmiyyəti və hökuməti enerji sektorunda göstərdiyi köməyə görə Azərbaycana dərin minnətdarlığını bildirir.

"Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı təcavüzü dövründə Ukraynanın enerji sahəsinə töhfə verən hər bir ölkə Ukraynanın enerji təhlükəsizliyinə dəstək verir. Azərbaycanın töhfəsi kifayət qədər böyükdür. Biz Azərbaycan tərəfindən Ukraynanın enerji sistemləri üçün generatorlar, transformatorlar və kabellər formasında göndərilən humanitar yardımı yüksək qiymətləndiririk. Bu, bu gün xüsusilə vacibdir, çünki Rusiya artıq dördüncü ildir ki, Ukraynanın energetika sisteminə və kritik enerji obyektlərinə zərbələr endirir. Hər bir ölkədən gələn yardım bizim üçün son dərəcə əhəmiyyətlidir", - deyə Naqornyak əlavə edib.

## "Aşağıkarbonlu biznesə başlamaq bizim strategiyamızda əsas yer tutur"

**"Davamlı inkişaf, iqlim dayanıqlığının təmin edilməsi üçün beynəlxalq və regional əməkdaşlıq artıq seçim deyil, zərurətdir. Tək bir şirkət və ya ölkə dayanıqlılığı təkbaşına təmin edə bilməz. Zərər artıq baş verib və biz davamlı gələcək üçün sürətlə hərəkət etməliyik".**

Bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Beynəlxalq Əməkdaşlıq vasitəsilə İqlim Dayanıqlığının Təkmilləşdirilməsi" adlı paneldə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, beynəlxalq tərəfdaşlıqlar SOCAR-ın iqlim və davamlılıq strategiyasının həyata keçirilməsində mühüm rol oynayır, bu təcrübə digər neft-qaz şirkətləri üçün də nümunə ola bilər.

"SOCAR "Boston Consulting Group" (BCG) ilə tərəfdaşlıq quraraq "Climate and Sustainability Lighthouse" proqramını həyata keçirib. Proqram şirkətin "upstream" və "downstream" əməliyyatlarını əhatə edən genişmiqyaslı yol xəritələrinin hazırlanmasına imkan verib və bərpaolunan enerji mənbələrinə investisiyaların artırılmasına təkan verib. SOCAR həmçinin COP28-də iştirak edərək iqlim öhdəliklərini təsdiqləyib və "Oil and Gas Development Organization" proqramına qoşulub. Bundan sonra şirkət "Oil and Gas Climate Initiative" ilə əməkdaşlıq çərçivəsində daha geniş iqlim təşəbbüslərinə qoşulub. SOCAR bərpaolunan enerjiyə də sərmayə qoyur. İlin sonuna qədər istifadəyə veriləcək 240 meqavatlıq "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının "ACWA Power" şirkəti tərəfindən inşası aparılır", - deyə Əfqan İsayev vurğulayıb.

2035-ci ilə qədər SOCAR-ın tam enerji şirkətinə çevriləcəyini deyən vitse-prezident yalnız qaz deyil, eyni zamanda bərpaolunan enerji mənbələrinə əsaslanan fəaliyyət qurulacağını əlavə edib: "2050-ci ilə qədər isə xalis sıfır karbon emissiyasına malik şirkətə çevrilməyi planlaşdırırıq. Aşağıkarbonlu biznesə başlamaq bizim strategiyamızda əsas yer tutur. SOCAR "Masdar", "China Energy International Group Co.Ltd", "ACWA Power" və ADNOC kimi peşəkar tərəfdaşlarla birgə bir sıra layihələr həyata keçirir. SOCAR tərəfindən həyata keçirilən layihələrdə tərəfdaşlıq modelindən istifadə olunaraq şirkətin həm yerli, həm də beynəlxalq təcrübədən faydalanması mümkün olub".

## BVF İİTKM-də təlimlərə başlayıb

**Beynəlxalq Valyuta Fondu (BVF) İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Makroiqtisadi diaqnostika" mövzusunda təlimə start verib. 29 sentyabr-3 oktyabr tarixlərini əhatə edəcək təlimə Azərbaycanın dövlət qurumlarından 25 nümayəndə cəlb olunub.**

Təlimin mövzuları arasında məcmu təklif və tələbin təhlili, inflyasiya dinamikası, fiskal və monetar siyasət qiymətləndirilməsi, borc dayanıqlılığı, xarici iqtisadi şərait və risk təhlili yer alır. Məqsəd dövlət qurumlarının aidiyyəti sahə üzrə fəaliyyət göstərən əməkdaşlarının makroiqtisadi diaqnostika sahəsində bilik və bacarıqlarını artırmaqdır.

Təlimə BVF-nin Qafqaz, Mərkəzi Asiya və Monqolustan üzrə Regional Potensial Quruculuğu Mərkəzinin (CCAMTAC) direktoru Norbert Funke, iqtisadçılar Nurdaulet Abilov, Kasımcomart Assanqaziyev və Aliyə Uskenbayeva rəhbərlik edirlər. Proqram iştirakçılara nəzəri biliklərlə yanaşı, praktiki qrup işləri də təqdim edəcək, bu da onların real iqtisadi təhlil və siyasət qurma bacarıqlarını artıracaq.

Açılış mərasimində İİTKM-nin icraçı direktorunun müavini Ramil Hüseyn çıxış edərək dövlət orqanları üçün makroiqtisadi təhlil vasitələrinin inkişaf etdirilməsində, effektiv siyasətlərin hazırlanmasında bu təlimin vacib rol oynadığını və Azərbaycanın iqtisadiyyatını gücləndirmək üçün atılan mühüm addım olduğunu qeyd edib.

Norbert Funke isə çıxışında Azərbaycan hökumətinə və İİTKM-ə davamlı əməkdaşlıq üçün təşəkkürünü bildirərək, belə təlimlərin iqtisadi siyasətlərin möhkəmləndirilməsində vacib rol oynadığını vurğulayıb. O bildirib ki, bu təlim iştirakçılara iqtisadi vəziyyəti qiymətləndirmək və davamlı iqtisadi artımı dəstəkləyən məlumatlı siyasətlər hazırlamaq bacarıqlarını inkişaf etdirmək üçün əvəzolunmaz bir fürsətdir.

Təlimin müddətində iştirakçılar makroiqtisadi modellər və alətlərdən istifadə edərək, fiskal siyasət, inflyasiya və borc dayanıqlılığı kimi məsələləri qiymətləndirəcək və praktiki tapşırıqlar vasitəsilə öyrəndiklərini real vəziyyətlərə tətbiq edəcəklər.

## Həssas təbəqə xüsusi diqqət mərkəzində

### 218 qazi tam reabilitasiya olunaraq aktiv həyata qayıdıb

**Son illər aparılan ardıcıl sosial islahatlar çərçivəsində ölkəmizdə reabilitasiya infrastrukturunun müasir tələblərə uyğun qurulması və şəbəkəsinin genişləndirilməsi, yeni avadanlıqlarla təchizatı istiqamətində mühüm tədbirlər görülüb.**

Postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 4452 nəfər Vətən müharibəsi qazisinə əlillik təyin edilib, o cümlədən 500-ə yaxın qazimiz son nəsil yüksək texnologiyalı 612 protezlə təmin edilib. Bununla yanaşı, Vətən müharibəsindən sonra agentliyin reabilitasiya mərkəzlərində 3665 nəfər müharibə iştirakçısı, habelə onların ailə üzvləri və şəhid ailəsi üzvləri reabilitasiya və sosial-psixoloji xidmətlərlə təmin olunublar. Peşəkar həkim komandasının səyləri, müasir və effektiv reabilitasiya üsullarının tətbiqi hesabına onların böyük hissəsi əvvəlki sağlamlıqlarına qovuşaraq əlilliklərini geridə qoyublar. Agentlik tərəfindən qazilərin sağlamlıqlarının bərpası, onların cəmiyyətə adaptasiyası istiqamətində görülən işlərin nəticəsində təkcə cari ilin 8 ayında 218 nəfər Vətən müharibəsi qazisi tam reabilitasiya olunaraq aktiv həyata qayıdıb. Ümumiyyətlə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə səmərəli reabilitasiya xidmətlərinin göstərilməsi, onların tibbi-sosial reabilitasiya imkanlarının artırılması agentliyin daim diqqət mərkəzindədir. Adıçəkilən agentlik tərəfindən bu ilin yanvar-avqust aylarında əlilliyi olan şəxslərə 94 min reabilitasiya vasitəsi verilib. Onlardan 5,6 mini təkərli oturacaq (o cümlədən 48-i mühərrikli), 1,7 mini aşağı və yuxarı ətraf protezi, 4,5 mini əsa, qoltuqaltı və dirsəkaltı ağac olub.



Bununla yanaşı, əlilliyi olan şəxslərə 7,1 min cüt protez və ortopedik ayaqqabı, 347 eşitmə aparatı, 388 korset və sair reabilitasiya vasitələri təqdim edilib.

Agentliyin Sumqayıt Reabilitasiya Mərkəzində müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə mütəmadi görüşlər keçirilir. Növbəti görüşdə agentliyin idarə heyəti sədrinin müavini Vüqar Məmmədov ölkəmizdə əlillik və reabilitasiya sahəsində aparılan islahatlar barədə danışıb, reabilitasiya infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işləri, qabaqcıl dünya təcrübəsi əsasında tətbiq edilən alternativ reabilitasiya üsullarını diqqətə çatdırıb. Qeyd olunub ki, möhtəşəm Zəfərimizlə yekunlaşan Vətən müharibəsindən sonra agentliyin reabilitasiya mərkəzlərində 3665 müharibə iştirakçısı, onların ailə üzvləri və şəhid ailəsi üzvləri reabilitasiya və sosial-psixoloji xidmətlərlə təmin edilib, peşəkar həkim komandasının səyləri, müasir və effektiv reabilitasiya üsullarının tətbiqi hesabına onların böyük hissəsi artıq əvvəlki sağlamlıqlarına qovuşublar.

ƏƏSMN-nin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin şöbə müdiri Cuma Nəbiyev şəhid ailəsi üzvləri və müharibə iştirakçısı olan şəxslərin məşğulluqlarının təminatı sahəsində aparılan işlər barədə ətraflı məlumat verib. Postmüharibə dövründə bu kateqoriyalardan olan şəxslərin bir qisminin məşğulluğunun təmin edildiyini, o cümlədən özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslərini qurduğunu bildirib. Vurğulayıb ki, döyüşlərdə yaralanaraq əzalarını itirmiş 500-ə yaxın hərbçimiz yüksək texnologiyalı son nəsil protezlə təmin olunub.

Görüşdə həmçinin əlillik və reabilitasiya sahəsində aparılan islahatlara, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin səmərəli reabilitasiya xidmətləri ilə təminatı sahəsində görülən işlərə dair fikir mübadiləsi aparılıb, rəy və təkliflər dinlənilib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*











## Mənsum İbrahimov - 65



**Baxanda deyərsən ki, yaşından gənc görünür. Amma həlim söhbətini dinlədikcə yanıldığını dərk edirsən və istər-istəməz insanın ağlına gəlir ki, ömrünü tarixin minilliklərindən süzülüb gələn muğam sənətinə həsr etmiş sənətkarın yaşı da muğamlarımızın tarixinə bənzəyir.**

**Köhnə kişilərə xas ölçülüb-biçilən danışığı, nitqindəki həlimlik və səsinin ahəngi ilə insanı öz sehrinə salır. Onu Azərbaycan muğam sənətinin siması adlandırmaq da olar.**

**Vədələşdiyimiz vaxtda Milli Konservatoriyada - rəhbərlik etdiyi Muğam xanəndə kafedrasında görüşürük. İllərin köhnə dostları kimi bizi mehribanlıqla qarşılayıb, yaşadığı 65 ilin hesabatını verirmiş kimi söhbətə körpü salır. Ağdamdan, böyüyüb boya-başa çatdığı İmamqulubəyli kəndində keçirdiyi günləri, doğma yurdlarını, xatirələrlə dolu uşaqlıq illərini xatırlayır. Həmsöhbətimiz Xalq artisti, professor Mənsum İsrafil oğlu İbrahimovdur.**

# Vətənini Məcnun kimi sevən "Qarabağın səsi"

"Ailədə 9 uşaq olmuşuq - 7 qardaş, 2 bacı. Atam aqronom, anam evdar xanım idi. Ailənin ikinci övladı mən olmuşam. Sizə deyim ki, arxada qalan bu 65 ili xatırlayanda düşünürəm ki, ömrümün ən xoşbəxt çağlarını uşaqlıq illərində keçirmişəm. Deyim ki, hamıdan əla biz yaşayırdıq - yox, bu, yalan olar. Kənd yeri ola, 9 uşaq ola... Məktəbə gedəndə bir-birimizin paltarını geyindiyimiz vaxtlar az olmayıb. Amma xoşbəxt, qayğısız idik. Ata-anamız yanımızdaydı. O, bir başqa dövr idi... Şükür ki, indi hamımız yerbəyer olmuşuq. Rayonda da, Bakıda da yaşayanlarımız var. Uşaqlıqda çox sakit idim. Humanitar fənləri, tarixi və ədəbiyyatı yaxşı oxuyurdum. Bu gün də o vaxt oxuduqlarım çox köməyimə çatır".

Professor Mənsum İbrahimov söhbətinə davam edir: "Ailəmizdə hamımızın səsi var idi. Qarabağlıyıq da... Bizim İmamqulubəyli kəndi Soltanbud meşəsinin əhatəsində yerləşir. Orada bir təpə var, indi orada Bayraq meydanı yerləşir. Kəndimizin üç tərəfi Soltanbud meşəsi ilə əhatə olunur. Xanlıq vaxtı o torpaqlar Xan qızı Natəvana məxsus olub. O meşəni də Natəvan xanım saldırıb. Kəndimizdə Mircabbar Ağanın üçmərtəbəli evi də var idi. Sovet vaxtı o evi söküb dağıtdılar. O təbiətdə, o təpənin üstündə, o meşədə ağaclara çıxa-çıxa, quzu otara-otara böyümüşəm. Kəndimizin yanından Xaçın çayı keçir. Xaçın çayında həmişə su olmur, quru çaydır. İldə 5-6 gün suyu gəlirdi, onda da özü ilə çoxlu balıq gətirirdi, çox bərəkətli çay idi".

Mənsum İbrahimov daxilən zəngin insandır. Keçdiyi sənət yolu bir məktəbdir. Yaşadığı illər də ləyaqətli, şərəfli, əsl sənətkar ömrüdür. Danışdıqca dinləmək istəyirsən. Hiss edirsən ki, müsahibin haradan başlayıb, haradan qurtaracağını bilir. Sanki söhbət etmir, hansısa muğamı zümzümə edir.

Ömrünün ahıl, müdriklik çağını yaşayan Xalq artisti bu dəfə həyat fəlsəfəsindən söhbət açır: "Düşünürəm ki, həyatda heç nə təsadüfi deyil. Hər şey insana genlə keçib, qanla gəlmədir. Doğulduğun mühüt, tərbiyə aldığın ailənin, nəsil-nəcabətin insanın həyatında, yaşam tərzində xüsusi önəmi var. Qarabağda doğulmuşam. Gözümü açıb hər yerdə ədəb-ərkan, böyüklərə hörmət, mədəniyyət, Vətənə sədaqət görmüşəm. Sənətimdən asılı olmayaraq, mən də o ruhda böyümüşəm. Bəzən deyirlər ki, filankəs sənət insanıdır. Məgər sənət adamısansa, hər şeyi edə bilərsən?! İnsanın özü üçün cızdığı bir sərhəd, vicdanının ona qoyduğu cizgi olmalıdır. Sənət adamı olmağın bu sərhədə, cizgiyə heç dəxli yoxdur. Hər bir insan, hər bir kişi, ilk növbədə, düşünməlidir ki, mən də milyonların biriyəm, mənə nəyi etmək olar, nəyi olmaz. Sənət adamısansa, deməli, daha çox diqqətdəsən. Elə sənət adamı var ki, öz peşəsinin ustasıdır. İki kəlmə danışdırandan sonra peşman olursan. Düşünürsən ki, kaş bunu heç danışdırmayaydım. Həyatda qazandığım uğura, bugünkü mövqeyimə görə, ilk növbədə, Allahımdan, bir də valideynlərimdən çox razıyam. Xasiyyətimin doxsan faizi atama bənzəyir. Özümdən asılı deyil, hiss edirəm ki, yaşlandıqca daha çox atama oxşayıram. Atam mənim üçün ideal xarakterli kişi olub. Yüksək mədəniyyəti, halı, xasiyyəti, davranışı ilə xalq arasında böyük nüfuz qazanmış bir insan idi. Mən də o yolu tutmuşam. Görmüşəm ki, bu yol çox gözəl yoldur".

Professor aramla danışır. Sanki bir sözü işlətməmiş yüz ölçüb bir biçir. Sözlə ehtiyatla davranır. Dilindən "şükür" sözü əksik olmur. Danışdıqca adamın ağlından bir fikir keçir - elə bil qarşısındakı insan səninlə yox, vicdanı ilə üz-üzə oturub içindəki Tanrıya hesabat verir: "İnsan bir yaş dövründən sonra dönüb bir arxaya baxır. İstər-istəməz keçdiyi yol gəlib gözü önündən keçir. Hər bir insanın özünə hesabat verdiyi zaman da olur. Fikirləşirəm ki, mən bir zamanlar Ağdamda, İmamqulubəyli kəndində orta məktəbdə oxuyurdum. Təbii ki, xəyallar qururdum, arzularım var idi... Bir şeyi deyim ki, məndə çox böyük bir inam var idi. İnanırdım ki, hər şey yaxşı olacaq. Mən istədiyim yerə çata biləcəyəm. Deyim ki, nə isə bir şöhrət istəyirdim - yox. Arzum bu idi ki, yaxşı sənətkar olum, xalqa yararlı olum, sənətdə öz yolum olsun".

Xalq artisti keçdiyi sənət yolunda ona dəstək olan insanları hörmətlə xatırlayır: "Bizim zamanımızda ali məktəbə qəbul olmaq çətin idi. Tanınmaq isə bir ayrı cür çətin idi. Sözün əsl mənasında, sənəti ilə seçilmək bir qəhrəmanlıq sayılırdı. Əslində, başqa bir zaman idi. Muğama münasibət də bu deyildi. Gənclərə qarşı indiki kimi diqqət göstərilmirdi. Tamam fərqli idi. Müəyyən adamlar da var idi ki, sanki sənətdə irəli getmək istəyən istedadlı gəncləri geri çəkmək üçün yaranmışdılar. Mən o zaman Üzeyir bəyin 100 illiyi ilə bağlı keçirilən musiqi müsabiqəsində birinci yeri tutdum. Allah Şövkət Ələkbərovaya rəhmət etsin. İndi də hər gün onun ruhuna dua oxuyuram. Mənim sənət taleyimi o müəyyənləşdirdi. Həmin müsabiqənin münsiflər heyətində Gülağa Məmmədov, Nəriman Əliyev və Şövkət Ələkbərova təmsil olunurdular. Bildiyim qədəri ilə orada birinci yerin kimə verilməsinin üstündə mübahisə də olub. Şövkət xanım deyib ki, birinci yer o qarabağlı balasınındır. Beləliklə, mən musiqi müsabiqəsinin qalibi seçildim. Sonra Şövkət xanımla tanış oldum. O zaman Şövkət xanım Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbində qızlara dərs keçirdi. Mən isə Vahid Abdullayevin sinfində oxuyurdum. Bir gün mənə dedi ki, sən də gələrsən mənim sinfimə. Vahid müəllim də yaxşı müəllim idi. Mən muğamın bütün sirlərini Vahid müəllimdən öyrənmişəm. Həyatın işinə bir bax, iş elə gətirdi ki, sonralar onun oğlu Valid Abdullayev mənim tələbəm oldu. Mən Şövkət xanımın sinfinə gedib-gəlirdim. Bir gün Şövkət xanım dedi ki, Mənsum, mən istəyirəm ki, sən gedib operada oxuyasan. Düzünü desəm, mən bunu gözləmirdim. Bu, mənim üçün çox sevindirici təklif idi. Şövkət xanım mənə ürək-dirək verərək dedi ki, sənin səsin Məcnun obrazına çox yaxındır. O zaman Opera və Balet Teatrının rəhbəri mərhum bəstəkarımız Azər Rzayev idi. Şövkət xanım Azər müəllimə elə mənim yanımdaca zəng edib dedi ki, operaya layiq yaxşı bir laureat tələbəmiz var, sabah Bədii Şuranı yığıb yoxlayaq. Şövkət xanım operanın yaxınlığında yaşayırdı. Dedi, gələrsən bir yerdə gedərik. Səhəri gün biz birlikdə teatra getdik. Yolboyu bizi görənlər Şövkət xanımı salamlayır, ona hörmət və ehtiramlarını bildirirdilər. Mənim üçün çox böyük fəxarət idi ki, bir gəncə görə belə bir tanınmış sənətkar onun istedadına güvənib vaxtını sərf edir. Orada bizi televiziyadan gördüyümüz tanınmış sənətkarlar gözləyirdilər. Mən "Mahur hindi" muğamını hazırlamışdım. Müsabiqə zamanı dedilər ki, qavalı qoy yerə, ayaqüstə oxu. Bu ondan ötrü idi ki, boy-buxunumu görsünlər. Elə də etdim. Oxuyundan sonra dedilər ki, çıx bayıra bir qədər gözlə. Üstündən çox az keçmişdi ki, çağırdılar ki, gəl ərizə yaz. O zaman təcrübə qrupu var idi. Məni o qrupda işə götürdülər, 80 manat da maaşım var idi. Üçüncü kursda oxuyan tələbə üçün bu çox yaxşı pul idi. Operada ilk rolum Zeyd, ilk tərəfdaşım rəhmətlik Arif Babayev olub. Gərək insana Allah da yol aça. Allah açan yolu kimsə bağlaya bilməz. Bu gün düz 40 ildir operada işləyirəm. 40 il bir insan ömrüdür".

Ustad sənətkarın sözünü kəsmirik: "İndi muğam müsabiqələri keçirilir. Özümüz gedib istedadlıları tapıb gətiririk, xalqa tanıtdırırq. Üç ayın içində olurlar məşhur xanəndə. O dövr belə şey yox idi, bir televiziya kanalı var idi. Ora çıxmağın da nə qədər çətinliyi var idi. Televiziyada bir dəfə çıxış etmək üçün neçə mərhələdən keçmək lazım gəlirdi. Senzura - Bədii Şura var idi. Şükür Allaha, indi gəlib çıxmışam bu yerə. Dönüb geriyə baxanda görürəm ki, bu mərtəbəyə çıxmaq üçün hansı mərhələlərdən keçmişəm. Yıxılmışam, süründüm... 



rünmüşəm, durmuşam... Təbii ki, yaşlı sənət insanlarından mane olmaq istəyənlər, dayandırmaq, geri çəkmək istəyənlər də az olmayıb. Amma sonralar mən onlara hamıdan çox hörmətlə yanaşmışam. Fikirləşmişəm ki, insandır, o da bunu bacarır, bunu edir, Allah canını sağ etsin".

Bütün sınaqlardan çıxan Xalq artisti davam edir: "Mən səbirlə dayandım, dözdüm, üsyan etmədim. Bilirdim ki, zamanım gələcək. Dayanmadan işləyirdim. Operada 6 il kiçik rolları oxumuşam. Sonra zaman gəldi, qapı açıldı, baxdılar ki, mənə qarşı haqsızlıq edirlər. Şükür Allaha, hər şey qaydasına düşdü. Aşıq Qəribi, "Gəlin Qayasında" Camalı oxumuşam. Bu 40 ildə milli operamızda Şah İsmayıl və Kərəmdən başqa bütün baş rolları ifa etmişəm. Şah İsmayılı da hazırladım. O zaman mənim ən populyar vaxtım idi. Tamaşaya iki ay qalmış oturub fikirləşdim, baxdım ki, bu obraz mənim səsim üçün deyil. Mən real insanam. Çünki Şah İsmayılda cəngavərlik səhnəsi yaratmaq üçün ayrı səs lazımdır. Səsdə səsin tembri var. Gördüm yox, oxumağına oxuyacağam, amma mən Şah İsmayıl olmayacağam. Dedim, Mənsum, sən bunu səhnəyə çıxmaq xatirinə oxumamalısan. Mən tələbələrimə də deyirəm ki, baxın görün səsinizə nə düşürsə, onu oxuyun. Siz özünüzü nədə görürsünüzsə, onun ardınca gedin. Mən mahnı seçimində də belə edirəm. Baxıram ki, çox sevdiyim mahnıdır, amma məndə yaxşı səslənmir, onu oxumuram. Keçdiyim bu 65 il mənə onu öyrətdi ki, sənətdə uğur qazanmağın bir yolu da səbirdən keçir. Çalışmışam ki, hər şeyə yaradıcılığımla, sənətimin mükəmməlliyi ilə cavab verim. Hər şeyə baş qoşum, kiməsə yerli-yersiz cavab verim, bu, mənim xasiyyətim deyil. Səbirli insanam. Özümdə ən çox sevdiyim xüsusiyyət səbirli olmağımdır. Bu xüsusiyyətim mənə çox şey qazandırıb. Səbirli insan lazım olmayan söz işlətmir, sonra üzr istəmir. O soyuqqanlıdır, hər şeyi ölçüb-biçir. Hansı məqamda danışmağı nə zaman susacağını bilir. Bizim sənət ciddi, əziyyətli sənətdir. Kim səbirlə dözür, çalışır, o, məqsədinə çatır. Tələbələrimə də deyirəm, tələsməyin ki, hər şeyi birdən əldə edim. Çalışın ki, sənətinizi öyrənin. Səbirli olsanız, zamanla məqsədinizə də çatacaqsınız. Tələsib yolunuzdan çıxmayın, başqa yola düşməyin. Bir də görürüsən ki, məşhurlaşmaq, tez uğur qazanmaq üçün müxtəlif janrlarda oxuyurlar. Olmaz! Bir janrı tutacaqsan, ona xidmət edəcəksən. Həmin janr da ona olan sədaqətini görüb sənə hər şeyi verəcək. Janrını dəyişəni, sənətə xəyanət edəni sənət bağışlamır. Bir şey dəqiqdir ki, bu sənət fədakarları qiymətləndirir. Allah da səbirli olmağı xoşlayır. Səbir edib çıxdığı yolu sona kimi gedənlər birmənalı olaraq qalib olurlar".

Bu gün Azərbaycanda onlarla tanınmış xanəndə var ki, Mənsum müəllimdən dərs aldıqları üçün özlərini şanslı hesab edirlər. Ustad-xanəndə fəxarət hissi ilə müəllimlik fəaliyyətindən danışır: "Mənim həmişə müəllimliyə böyük məhəbbətim olub. Hətta qohumlarımdan mənə deyən olub ki, cavan oğlansan, nəyinə lazımdır ki, vaxtını kimlərəsə nə isə öyrətməklə keçirəsən, yaşlananda müəllimlik edərsən. Cavab verirdim ki, həyat elə budur. Heç kim özü birdən hər şeyi bilməyib, bizi də öyrədiblər. Gərək biz də özümüzdən sonrakılara nə isə yaxşı bir şey verək. Müəllimlik məni özünə daha çox bağlayır. Müəllimlik tamam başqa bir peşədir, müqəddəsdir. Bir xasiyyətim var, hansı işin qulpundan yapışıramsa, ya onu mükəmməl edirəm, ya da heç etmirəm. Mən müəllimliyə başlayanda qarşıma bir məqsəd qoydum ki, 3-4 ildən sonra tələbələrim respublikada ən yaxşı xanəndə olmalıdır. Toxumu səpən adam onun cücərməsini, boy atmasını görəndə nə qədər zövq alırsa, yaxşı tələbə də müəllimi elə sevindirir. Şükürlər olsun ki, indi 100-dən çox tələbəmin yarısından çoxu respublikada tanınmış ifaçıdır. Operada, Azərbaycan televiziyasında, filarmoniyada, hər yerdə var. Azərbaycanın harasına gedirəmsə, tələbəmə rast gəlirəm. Bu, məni çox sevindirir. Mənimlə çiyin-çiyinə xarici ölkəyə gedirlər, səhnə bölüşürlər. Müəllim həm də yaxşı ifaçıdırsa, tələbə üçün öyrənmək çox rahat olur. Mən tələbələrimlə fəxr edirəm. Hamı dərs keçə bilər, amma hamı yaxşı müəllim ola bilməz. Bizim sahəmizdə o insan müəllim ola bilir ki, söhbət ifaçı yetişdirməkdən, başqasının uğuruna sevinməkdən gedir. İçində paxıllıq hissi olmur. Varsa da, o hissi öldürə bilir. İnanın ki, tələbələrimin uğuruna onların valideynindən çox sevinirəm. Fəxr edirəm ki, Azərbaycan ifaçılıq sənətinə belə nümunələr yetişdirmişəm. Konservatoriyanı bitirəndən sonra da onların yaradıcılığını, hətta davranışını belə izləyirəm. Səhv nə isə bir hərəkətlərinə, sözlərinə rast gələndə, zəng edib iradımı bildirirəm. Mən müəllimliyi heç vaxt arxa plana keçirmirəm. Tələbələrimi özümlə xarici ölkəyə, ən gözəl tədbirlərə aparıram. Xanəndə ifası ilə tanınmalıdır. Tələbələrimə tövsiyə etmişəm ki, onları tənqid edənlərə hətta haqlı və haqsız olsa belə, cavab verməsinlər. Sənətkarın ən gözəl cavabı onun ifası, mədəniyyəti, davranışıdır".



İlləri yola salan ustad sənətkar həyat təcrübəsindən danışır: "Bizim sənət meydan sənətidir. Meydana çıxan adamı sevənləri, alqışlayanları olduğu kimi, rəqibi də olacaq, paxıllığını çəkənlər də, gözü götürməyənlər də... Xanəndənin cavabı yaradıcılığıdır. Bədxahdan danışığı, ifaçıdan isə yaradıcılığı, sənəti yadigar qalır. Mənim devizim budur. "Leyli və Məcnun"un ilk tamaşasını hazırlayanda da tərəfdaşım Gülyaz xanım olub. Bizim premyeramıza o zaman mədəniyyət naziri olan Polad Bülbüloğlu gəlmişdi. 1993-cü ildə ilk dəfə gənclər "Leyli və Məcnun"da əsas rolu ifa edirdilər. Tanınmış ziyalılar, sənət adamları da tamaşamıza gəlmişdilər. Tamaşadan sonra Polad müəllim səhnə arxasında bizimlə söhbət zamanı dedi: "Artıq siz meydandasınız. Sizi haqlı-haqsız tənqid də edəcəklər, tərifləyəcəklər də, buna hazır olun. Özünüzdə buna qarşı immunitet yaradın. Heç kim birdən-birə ustad sənətkar kimi yetişməyib". Bu, mənim üçün bir ustad dərsi oldu. Sənətkar zamanla, tamaşadan-tamaşaya yetişir, püxtələşir. Birinci tamaşamı oxuyanda sevinirdim. Deyirdim, hamı tərifləyir. Üstündən 3-4 il keçdi, o tamaşanı gizlətmək istəyirdim ki, heç kim görməsin. Onda əzbərləyib oxuyurdum. Hər şey yerində idi. Yaratdığı obrazın həyatını, daxili aləmini duyub yaşamaq, tamaşaçıya Mənsum kimi yox, Məcnun kimi çatdırmaq başqa bir şeydir. Həyatda mükəmməl deyilən bir şey yoxdur. Hər şeyin çatışan və çatışmayan cəhətləri var. İstənilən bir layihədə nöqsan tapmaq olar. İdeal Allahdır. Mən hər şeyə alışmışam. Həyatımda pisdən çox yaxşı insanlara rast gəlmişəm. Şövkət xanım kimi böyük bir sənətkardan xeyirxahlıq görmüşəm, Arif Babayevi görmək eşqi ilə Opera Teatrına getmişəm. Uşaqlıqdan arzum idi ki, mən də Arif müəllim kimi Məcnun ola biləydim. Məncə, bu, hər bir xanəndənin arzusudur. Atalar deyib ki, niyyətin hara, mənzilin ora.

Məni hər zaman toy yox, böyük səhnələr çəkib. Böyük orkestrlə oxuyum, böyük səhnələrdə konsertlər verim, böyük tədbirlərdə çıxış edim. Ara-sıra toylara da getmişəm, indi də gedirəm. Amma özümü toy müğənnisi hesab etmirəm. Toylara gedən sənət yoldaşlarıma da normal baxıram. Amma mənim idealım böyük səhnələr olub. Allah da onu mənə nəsib edib. Simfonik orkestrlərlə Opera Teatrında, dünyanın müxtəlif ölkələrində olmuşam. Dünyanın elə bir yeri yoxdur ki, orada konsert verməyim. 30 ildir dəyərli sənətkarlarımız Elçin Həşimov və Elnur Əhmədovla "Qarabağ" muğam qrupu yaratmışıq. Məqsədimiz bu idi ki, Qarabağ harayını bütün dünyaya çatdıraq. Özüm də 30 il "Qarabağın səsi" olmuşam".

Ustad xanəndə bu məqamda şahidi və iştirakçısı olduğu bir hadisəni xatırlayır: "Dünyada "Vomeks" musiqi festivalı var. O, hər il bir ölkədə keçirilir. 2011-ci ildə Kopenhagendə təşkil olunmuşdu. Azərbaycanı bizim "Qarabağ" qrupumuz təmsil edirdi. Emin Musəvi də bizimlə oraya aparıcı olaraq getmişdi. Qayda belədir ki, təmsilçi ölkələrin hər birinə 45 dəqiqə vaxt verilir. Bizim vaxtımız Bakı vaxtı ilə gecə saat 4-ə təsadüf edirdi. Bu, bizim üçün, əslində, heç də uyğun vaxt deyildi. İnsanın vərdiş etmədiyi vaxta düşməsinin öz çətinliyi var. Özümüzü hazırlayıb vaxtımızda çıxış etdik. Orada yaşayan həmvətənlərimiz əllərində Azərbaycan bayrağı bizə dəstək üçün konsertə gəlmişdilər. Çıxışımızın sonunda "Qarabağ şikəstəsi"ni oxudum. Biz səhnədən enəndə ortayaşlı bir danimarkalı jurnalist səhnəyə çıxıb Azərbaycan bayrağını götürüb dizini yerə qoydu. Bayrağımızı öpüb "Belə musiqisi olan xalqın qarşısında mən baş əyirəm", - dedi".

Sənətkar bu yerdə mövzunu muğam janrına münasibətilə davam etdirir: "Muğam elə janrdır ki, insan yaşa dolduqca bu sənət daha da hörmətə minir. Muğamın spesifikası budur. Burada bir çəki var, ağırlıq var, ədəb-ərkan var. Muğam oxuyan oturub-durmağı bacarmalıdır. Şükür ki, belədir. Muğamı seçən ən gənc xanəndə belə ənənəni davam etdirir. Çünki ənənə var. Bu muğam sənətində böyük-kiçiyə həmişə hörmət qoyulub, indi də bu, davam etdirilir. Bu gün meydanda çox gözəl ustad sənətkarlarımız var. Tələbələrimə də nəsihətim budur ki, bunlara əməl etsinlər. Bəzən bir ifaçının, sənətkarın timsalında Azərbaycanı tanıyırlar. Xaricə səfərə gedən ifaçı özünü elə aparmalıdır ki, ona baxıb ölkəmizə düzgün qiymət versinlər. Bilirsiniz ki, muğama bir müddət əvvəl münasibət heç də birmənalı deyildi. Amma Heydər Əliyev Fondu yaranan gündən muğamımıza münasibət dəyişdi. Muğamımızın ikinci inkişaf dövrü başladı. Sözsüz ki, bu da Mehriban xanımın sayəsində oldu. Dəfələrlə ustad xanəndələrlə görüşlər keçirdi, problemləri öyrəndi, muğam gecələri keçirildi. 2005-ci ildən başlayaraq, "Muğam" televiziya müsabiqələrinə start verildi. Bu günə qədər 9 muğam televiziya müsabiqəsi, 6 beynəlxalq muğam festivalı keçirilib. Elə onun nəticəsidir ki, onlarla gənc xanəndə muğam sənətinə gəlib, bu gün də çox yaxşı fəaliyyət göstərirlər. Muğamımızın dünyada tanınıb sevilməsində Mehriban xanımın müstəsna rolu var. Mehriban xanım bu gün də qayğısını bizdən əsirgəmir. Birmənalı olaraq başa düşürük ki, muğamımızın inkişafının arxasında dövlətimiz var. Muğam mənəviyyat musiqisidir, onun inkişafına xidmət edir. Baxın Bakıda Beynəlxalq Muğam Mərkəzi inşa edilib, sonra Ağcabədidə, Füzulidə, Sumqayıtda... 2018-ci ildə Quzanlıda Muğam Mərkəzi tikilmişdi. Bu il isə Ağdamın mərkəzində Prezidentin, Mehriban xanımın iştirakı ilə çox möhtəşəm bir Muğam Mərkəzinin açılışı oldu. Hətta orada Nəzakət xanımla Leyli və Məcnundan kiçik parçanı ifa etdik. 30 ildən sonra Ağdamda, hansı ki, işğal dövründə ermənilərin xarabalığa çevirdikləri, indi isə cənab Prezidentin yenidən qurduğu, həyat verdiyi o torpaqlarda Leyli və Məcnunu oynamaq çox qürurverici idi. Bu, həm də dünyaya bir mesaj idi. Artıq bu torpağın sahibləri qayıdıb. Biz torpağımızın sahibiyik və biz burada əbədiyik. Ağdam əvvəllər musiqi beşiyi, çal-çağır mərkəzi olub, yenə də öz statusunu qaytarır. İnanıram ki, beş ildən sonra Ağdam dünyada xüsusi çəkisi olan, müasir ağıllı, ən fərqli şəhərlərdən biri olacaq.

Qələbəmizi, inkişafımızı istəməyən qüvvələr, dövlətlər var. Düşünürəm ki, bu gün bizə birlik daha çox lazımdır. Azərbaycanı istəməyən kənar qüvvələr daha çox birliyimizi pozmağa, bizi zəiflətməyə çalışır. Bu gün bir millət olaraq ən başlıca vəzifəmiz əl-ələ verib bu qüvvələri yerində oturtmalıyıq. Vətənin o baş-bu başı yoxdur. 44 günlük Vətən müharibəsində Azərbaycanın bütün bölgələri ayaqüstə durmuşdu. Bütün bölgədən olan igidlərimiz əmr, sərəncam gözləmədən vətənin müdafiəsinə qalxdılar, torpaq, vətən uğrunda canlarını verdilər".

Mənsum İbrahimovun əlləri Tanrıya tərəf qalxır. Gözlərində mirvari kimi yaş giləsi parlayır, Yaradana şükür edir, minnətdarlığını bildirir: "Bu günə min şükür. Biz işğalı da yaşadıq, qələbə sevincini də bölüşdük. Bu böyük qələbə bizi də, xalqımızı da depressiyadan çıxardı. Bu çox böyük işdir. Dünyada möcüzənin gerçəkləşməsi, fantastik, təsəvvür olunmayacaq bir hadisə oldu. İndi o torpaqlara gedəndə hər tərəfdə şəhidlərin izini görürük. Şəhidlərimiz qanları ilə o torpağın hər qarışını müqəddəsləşdirdi. Bu gün Qarabağa gedən valideynlər o torpaqlarda övladlarının qanının izini axtarır. Qardaşımın oğlu İsrafil Xüsusi Təyinatlı Qüvvələrin əsgəri idi. 30 gün döyüşdü. Laçında onun şəhid olduğu yerə gedib çıxa bilməmişəm. İstəyirəm gedib o müqəddəs torpağı ziyarət edim".

Mənsum müəllim 4 övlad atasıdır. Fərəhlə övladlarından söhbət açır: "Dörd övladım - üç qızım, bir oğlum var. Qızlarım ali təhsillidirlər, sonbeşiyimiz İbrahim Türkiyədə Hacəttəpə Universitetinin Beynəlxalq münasibətlər fakültəsində - magistraturada oxuyur. Övladlarımı kiçik yaşlarından vətənimizin bütün bölgələrini gəzdirmişəm. İstəmişəm ki, bu gözəl vətənimizi tanısınlar. Onun hər qarışına bələd olsunlar. Onlardan kimsə haradan olduğunu soruşanda, mən ağdamlıyam, bakılıyam deməsinlər. Desinlər ki, mən azərbaycanlıyam. Bu vətənin hər qarışı mənə doğmadır, əzizdir. Evdə zəngin kitabxanam var. 3 mindən çox müxtəlifməzmunlu kitabım var. Özüm mütaliəni, bədii ədəbiyyatı, poeziyanı çox sevirəm. Bədii ədəbiyyat insanı formalaşdırır. Bunu öz təcrübəmdən bilirəm. Övladlarıma da həmişə məsləhət görmüşəm ki, mütaliəyə çox fikir versinlər. Vətənimizi gəzəndə də həmişə özümüzlə kitab götürmüşük. Sənətimizin davamçısı böyük qardaşımın oğlu Rəşaddır. Rəşad çox yaxşı tar ifaçısıdır. Rəşadın özünün bəstələdiyi çox gözəl musiqiləri, mahnıları, rəngləri var".

Ömrünün 65 ilini yola salan ustad xanəndə yaşadığı ömrə görə Tanrıya şükür edir: "Şükür bu günümüzə. Gəlib ömrün 65-nə çıxmışıq. Açığını desəm, iş başımı o qədər qatır, o qədər məşğul oluram ki, 65-i yalnız hələ rəqəmlərdə hiss edirəm. Bu, hələ qocalıq deyil, əlavə bir məsuliyyətdir. Yuxudan çox erkən qalxıram. Hər gün iki saata yaxın yürüyüşüm olur. Hər gün saat 6-da Botanika bağında gəzintidə oluram. Həyat tərzim hər gün belə başlayır. Artıq bu, mənim üçün bir adətə çevrilib. Sonra iş rejimi başlayır. Çəkilişlər, məşqlər, dərslər..."

Mənsum müəllimlə söhbət edərkən onun qanı, canı ilə bu torpağa, vətənə, dövlətə bağlı, bu yurdun insanlarını Məcnun kimi sevən içi sevgi dolu bir şəxs olduğunu duyduq. İçində sevgi olan insanlar isə qocalmırlar.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Əməkdar artist Cabir İmanov son mənzilə yola salınıb

**Sentyabrın 30-da Əməkdar artist Cabir İmanov son mənzilə yola salınıb.**

AZƏRTAC xəbər verir ki, mərhumla vida mərasimi Şəhriyar adına Mədəniyyət Mərkəzində baş tutub. Mərasimdə mərhumun ailə üzvləri, sənət dostları, dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Cabir İmanovun qardaşı, Əməkdar artist Tahir İmanov mərhumla bağlı xatirələrini bölüşüb. Tahir İmanov qeyd edib ki, qardaşı Qarabağın və xüsusilə Şuşanın azad olunması xəbərini böyük sevinc və qürurla qarşılamışdı. O bildirib ki, Cabirin sənəti, insanlara olan səmimiyyəti və Vətənə bağlılığı heç vaxt unudulmayacaq.

Əməkdar artist Cabir İmanov "Qurd qapısı" qəbiristanlığında dəfn edilib.




# MDB Oyunlarında Azərbaycan standartları



**Nüfuzlu beynəlxalq yarışların təşkili idman mərkəzinə çevrilən Azərbaycana böyük imic qazandırıb.**

"Bakı-2015" ilk Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, XV Avropa Gənclər Olimpiya Festivalının, "Formula-1" yarışlarının, futbol üzrə Avropa Çempionatının final mərhələsinin 4 qarşılaşmasının, UEFA Avropa Liqasının finalının və müxtəlif idman növləri üzrə təşkil olunan dünya və qitə birinciliklərinin Azərbaycana həvalə edilməsi son illər ölkəmizdə bu sahədə görülən işlərə verilən ən yüksək qiymətdir.

Elə bunların nəticəsidir ki, Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman paytaxtı" seçib. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət hər zaman yüksək qiymətləndirilib.

Hazırda ölkəmiz daha bir nüfuzlu yarışa - III MDB Oyunlarına evsahibliyi edir. Yarışlar 23 idman növü (kamandan oxatma, badminton, 3x3 basketbol, boks, kanoe, çövkən, qılıncoynatma, futbol U-16, yunan-Roma güləşi, cüdo, karate, bədii gimnastika, avarçəkmə, sambo, güllə atıcılığı, stend atıcılığı, üzgüçülük, stolüstü tennis, taekvondo, batut gimnastikası, voleybol, qadın güləşçi, sərbəst güləş) üzrə keçirilir.

Böyük beynəlxalq yarışların keçirilməsi və ən yüksək səviyyədə təşkili cəhətdən artıq kifayət qədər təcrübəyə malik olan ölkəmiz 10 il öncə tarixdə ilk dəfə təşkil olunan I Avropa Oyunlarında nümayiş etdirdiyi təşkilatçılıq işlərinə görə dünyanın diqqətini üzərinə çəkmişdi. Bu gün də III MDB Oyunlarında möhtəşəm idman bazalarına, bütün əlaqədar təşkilatların birgə səylə nümunəvi fəaliyyətinə heyranlıqlarını gizlədə bilməyən xarici ölkə mütəxəssisləri, milli olimpiya komitələrinin rəhbərləri və üzvləri, ayrı-ayrı beynəlxalq federasiyaların nümayəndələri gələcəkdə öz ölkələrində mötəbər beynəlxalq yarışlar keçirməyə hazırlaşarkən Azərbaycanın təcrübəsindən istifadə edəcəklərini vurğulayırlar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Medal sıralamasında Azərbaycan 2-ci yerə yüksəlib







Azərbaycanın evsahibliyi etdiyi III MDB Oyunlarında sentyabrın 30-da 7 idman növü üzrə yarışlar keçirilib. Çövkən üzrə Azərbaycan millisi ikinci oyununda Küveyt yığması ilə qarşılaşıb. Şəki şəhər stadionundakı görüş 5:0 hesabı ilə komandamızın xeyrinə başa çatıb.

İlk turda idmançılarımız Qırğızıstan millisinə 4:0 hesabı ilə qalib gələrək qrupu birinci yerdə başa vurmuş və yarımfinala yüksəlmişdi. Komandanın baş məşqçisi Namiq Orucov oyundan sonra deyib:"İlk dəfə Azərbaycanın çövkən komandası MDB Oyunlarında təmsil olunur. Bu, Avropada və dünyada çövkənin təbliğatı baxımından çox vacibdir. Bu oyun sübut edir ki, çövkən Azərbaycanda inkişafdadır. Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Azarkeşlərimizə təşəkkür edirəm ki, bizə sona qədər dəstək oldular. Hədəfimiz finala çıxmaq və qalib olmaqdır. Bunun üçün hazırlaşmışıq. Üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırmağa çalışacağıq".

Gəncə İdman Sarayında üzgüçülük və voleybol, Mingəçevirdə taekvondo, Yevlaxda isə boks yarışları davam edib. Azərbaycan üzgüçüsü Oqtay Hüseynov 400 metr məsafəyə qarışıq üzmə yarışında bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb. O, jurnalistlərə açıqlamasında bu uğurdan məmnunluğunu ifadə edib: "İlk dəfədir ki, Azərbaycan üzgüçüsü MDB Oyunlarında qızıl medal qazanır. Bunu bacardığım üçün çox sevincliyəm. Xoşbəxtəm ki, Azərbaycanın bayrağını ən yüksəyə qaldırdım. Yarışdan öncə bir qədər tələskənliyim var idi, amma üzməyə başlayarkən həyəcanı aradan qaldıra bildim".

Gəncə İdman Sarayında üzgüçülük yarışlarında Azərbaycan idmançıları daha iki medal qazanıblar. 4x200 metr məsafəyə sərbəst üsulla üzməkdə Azərbaycan üzgüçüləri Oqtay Hüseynov, Yeqor Maynitski, Fərhad Şirməmmədli və Süleyman İsmayılzadə bürünc mükafat əldə ediblər. Rusiya idmançıları qızıl, Qazaxıstan üzgüçüləri isə gümüş medala sahibləniblər.

Azərbaycan üzgüçüsü Yeqor Maynitski 200 metr məsafəyə bras üsulu ilə üzmədə fərqlənərək üçüncü yeri tutub və bürünc medal alıb. Rusiyalı İlya Yaşmanov qızıl, Belarusdan olan Maksim Malyşka gümüş medala yiyələniblər.

Azərbaycan atıcısı Cavid Həsənov Oyunlarda gümüş medal qazanıb. Rusiyalı German Telenin birinci, qazaxıstanlı Ratmir Yenikeyev isə üçüncü olub. Daha bir atıcımız Daniyella Ulanova üçüncü yeri tutub. O, stend atıcılığı yarışlarında fərqlənib. İlk iki pilləni isə müvafiq olaraq, rusiyalı idmançılar Yelizaveta Yevgrafova və Darya Lekomtseva tutublar.

Yevlax Olimpiya İdman Kompleksində təşkil olunan boks yarışlarında 1/4 final mərhələsində 33 qarşılaşma keçirilib. Millimizin 7 idmançısı 5 çəki dərəcəsində mübarizə aparıb. Günün ilk görüşünü boksçumuz Gülər Hüseynova 48 kiloqram çəki dərəcəsində Bibisora Racabova (Tacikistan) ilə keçirib və 4:1 hesabı ilə qalib gəlib. Gün ərzində Qardaş Rəhimov 46 kiloqram çəki dərəcəsində Mikita Beskaravaynı (Belarus), Əli Ruşanov 46 kiloqram çəki dərəcəsində Anqsar Ussenxan (Qazaxıstan), Məhəmmədəli Kərimli 50 kiloqram çəki dərəcəsində Azizbek Şkokirjonov (Özbəkistan), Ayxan Həsənov 50 kiloqram çəki dərəcəsində Dayanç Orayev (Türkmənistan), İbrahim Bədəlli 54 kiloqram çəki dərəcəsində Erbol Barataxunov (Qırğızıstan), Hidayət Məmmədov 70 kiloqram çəki dərəcəsində Oybekjon Abdurahimov (Özbəkistan) ilə üz-üzə gəliblər.

Bir gün əvvəl isə boksçumuz Aysel Fərəcova (46 kq) 1/4 final çərçivəsində Aleksandra Kutsikovanı (Belarus) 5:0 hesabı ilə məğlubiyyətə uğradıb və yarımfinala yüksəlməklə azı bürünc medalı təmin edib. Cəmilə Muradlı (54 kq) da adını yarımfinala yazdırıb. Boksçumuz startda Nigora Yusupovaya (Tacikistan) ilk raundda tam üstünlüklə qalib gəlib. 63 kq çəki dərəcəsində Haqverdi Həsənov 1/4 finalda Bahdan Şaşlikovdan (Belarus) güclü olub. O, rəqibini 3:2 hesabı ilə məğlub edib.

Beləliklə, Azərbaycan ümumi medal sıralamasında 2-ci pillədə qərarlaşıb. Siyahıya Rusiya komandası başçılıq edir. 3-cü yeri Belarus tutur.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*
*Naftalan-Yevlax*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# İllər keçsə də, COVID-19-un fəsadları beyində qalır

Dünya miqyasında pandemiyaya yol açan, milyonlarla insanın yoluxmasına və ölümünə səbəb olan COVID-19-un üzərindən illər keçsə də, hələ də xəstəliyin fəsadları üzə çıxır. Zaman keçdikcə pandemiyanın sağlamlığa vurduğu zədələr daha aydın görünür.



Mütəxəssislər indiyədək COVID-19-un ən geniş yayılmış fəsadlarının ağciyər və ürək-damar xəstəlikləri olduğunu düşünürdülər. İndi isə koronavirusun beyinə də ciddi təsir etdiyi məlum olub. Böyük Britaniyanın Nottingem Universitetinin tədqiqatçıları xəstəliyin beyində yaratdığı fəsadlarla bağlı araşdırma aparıblar. Tədqiqat zamanı 15 mindən çox xəstənin məlumatlarından istifadə edərək beyin yaşlanmasını təyin edən süni intellekt modeli hazırlayıblar. Araşdırma çərçivəsində insanların xəstəlikdən öncəki və sonrakı beyin skanları müqayisə edilib. Məlum olub ki, koronavirusa yoluxmuş insanların beyninin qocalma sürəti orta hesabla 5,5 ay irəli çəkilib. Üstəlik, bu nəticə xəstəliyə yoluxmayan bir qrup insanda da görünüb. Tədqiqata rəhbərlik edən nevroloq Ali Reza Mohammadi Nejad bildirib ki, yalnız xəstəliyə yoluxma yox, həm də izolyasiya və qeyri-müəyyənlik kimi amillər beyin sağlamlığına da təsir edib. O qeyd edib ki, beyin sağlamlığı təkcə xəstəliklər tərəfindən deyil, həm də ətraf mühit tərəfindən formalaşır.

Bir müddət öncə "Nature" jurnalında koronavirus infeksiyasının baş-beyinə vurduğu dağıdıcı təsirlərdən bəhs edən yazı dərc edilmişdi. Yazı Liverpool Universitetinin, London Universitet Kollecinin, Yel Universiteti və İkon Tibb Məktəbinin mütəxəssislərinin birgə elmi işlərinə istinadən hazırlanmışdı. Mütəxəssislərin bildirdiklərinə görə, nevroloji və psixiatrik ağırlaşmaları olan COVID-19 xəstələrinin 62 faizində baş-beynin qanla təchizatı sistemi zədələnib. Eyni zamanda 31 faiz xəstədə qarışıqlıq və uzunmüddətli huşsuzluq vəziyyəti olduğu təsbit edilib. London Universitet Kollecindən bildirilib ki, infeksiyanın ən çox yayılmış nevroloji nəticələri insult və ensefalit - baş-beyin toxumalarının iltihabıdır. Belə simptomlar əhalinin müxtəlif qruplarında, o cümlədən gənclərdə görünüb.

Alimlərin fikrincə, koronavirusu ağır keçirən xəstələrin 50 faizindən çoxunda nevroloji fəsadlar baş verib. Onlar bildiriblər ki, üzərindən illər keçsə belə, xəstəliyin fəsadlarının heç də hamısını aradan qaldırmaq mümkün deyil. Təsirlərin əksəriyyəti isə hətta ömürlükdür. ABŞ-də keçirilən 1,2 milyon nəfəri əhatə edən geniş araşdırmada yoluxanların 15 faizində xəstəlikdən sonra bir ildən çox davam edən zehni problemlər müşahidə olunub. Böyük Britaniyanın Milli Statistik Ofisinin (ONS) məlumatına görə, COVID-19-dan sağalanların təxminən 2 milyonu "uzun COVID" sindromundan əziyyət çəkir. Onların 40 faizinin əsas şikayətlərindən biri məhz yaddaş və diqqət problemləridir.

Tədqiqatlar göstərir ki, COVID-19 beyində sadəcə funksional pozuntular yaratmayıb, həm də anatomik dəyişikliklərə səbəb olub. Almaniyanın Münxen Universitetinin alimləri yeni tədqiqatlarına əsaslanaraq bildiriblər ki, koronavirusa yoluxandan illər sonra belə beyində mənfi təsirlər qalacaq. Belə ki, SARS-CoV-2-nin spayk proteini yoluxmadan dörd il sonraya qədər beyin qişalarında və kəllə sümüyü iliyində qala bilər. Bu isə neyrodegenerativ xəstəliklərin inkişaf riskini əhəmiyyətli dərəcədə artırır. Bunu süni intellektə əsaslanan innovativ görüntüləmə metodu sayəsində öyrənmək mümkün olub. Yeni metod hüceyrə strukturlarını, metabolitləri və virus proteinlərini 3D formatda göstərməyə kömək edib. Nəticələr göstərib ki, spayk proteini bu bölgələrdə xüsusilə çox olan ACE2 reseptorları ilə birləşərək sümük iliyində və beyin qişalarında toplanır və illərlə qalır.

Elm adamlarının sözlərinə görə, spayk proteininin davamlı mövcudluğu COVID-19-un nevroloji nəticələri, həmçinin "uzun koronavirus" və neyrodegenerativ xəstəliklərlə əlaqəli ola bilər. Alimlər hesablayıblar ki, spayk proteininin daimi mövcudluğu beyin qocalmasını sürətləndirir ki, bu da onun normal işinin 5-10 il itirilməsinə bərabərdir. Tədqiqat həmçinin uzunmüddətli fəsadların riskinin azaldılmasında mRNT peyvəndlərinin effektivliyini təsdiqləyib.

Pandemiyanın bitməsi, yoluxmaların azalaması problemin həlli demək deyil. COVID-19-un uzunmüddətli təsirlərini izləmək üçün davamlı monitorinq sistemləri, reabilitasiya mərkəzləri və psixonevroloji dəstək proqramları vacibdir. Mütəxəssislər koronavirusun fəsadlarından qorunmaq üçün davamlı tibbi nəzarəti, psixoloji dəstəyi və zehni reabilitasiya proqramlarını vacib hesab edirlər. Sağlam həyat tərzi, düzgün qidalanma, idman, yuxu rejimi və stresin azaldılması bu yolda mühüm rol oynayır. Unutmamaq lazımdır ki, zamanında görülən tədbirlər daha ciddi problemlərin qarşısını almağa kömək edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov Əməkdar artist

**CABİR İMANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Sahibkarlar Konfederasiyasının Baş katibi Ziya Hacılıya atası

**CAHANGİR HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi AMEA-nın müxbir üzü Qorxmaz İmanova oğlu

**CABİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev Əməkdar artist

**CABİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Gömrük Komitəsinin sədri və komitənin kollektivi Əməkdar artist

**CABİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədova əzizi

**VAQİF ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyi və kollektivi Əməkdar artist

**CABİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Əməkdar artisti

**CABİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ziyad Səmədzadə və Elxan Bəşirov AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Qorxmaz İmanova oglu

**CABİR İMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunun kollektivi laboratoriya müdiri, AMEA-nın müxbir üzvü, professor Qorxmaz İmanova oğlu, Əməkdar artist

**CABİR İMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4092
Sifariş 2003

Qiyməti 60 qəpik